Xalqın qəzeti!

# Xalq qəzeti

№ 214 (30908) 5 oktyabr 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsi artır



Səhifə ⇨ 7

## Regional inteqrasiyanın strateji tərəfdaşları

*Azərbaycan–Gürcüstan dostluq münasibətləri etibarlı əməkdaşlıq modelidir*



**Azərbaycan və Gürcüstan arasında münasibətlər bu gün regionun ən etibarlı və uzunömürlü strateji tərəfdaşlıq modellərindən birdir. Tarixən yaxın olan iki ölkə və xalq müstəqillik qazandıqdan sonra bir-birinə arxa duran, regional və beynəlxalq müstəvidə qarşılıqlı maraqları müdafiə edən etibarlı tərəfdaşlara çevrilib. Cənubi Qafqazın mürəkkəb geosiyasi mənzərəsində Bakı–Tbilisi xətti sabitliyin, əməkdaşlığın və inkişafın əsas dayaqlarından biri hesab olunur.**

*(ardı 5-ci səhifədə)*

## "Bir kəmər, bir yol" quruculuğunda Azərbaycan memarlığı



**Planetar miqyaslı müasir dünyada hər iqtisadi təşəbbüs, xüsusilə "Bir kəmər, bir yol" kimi qlobal əhatəyə malik meqalayihənin dərinliyində siyasi məqsədlər və strateji hədəflər daşıyır. Çin tərəfindən irəli sürülən konsepsiya Avrasiyanın siyasi xəritəsini yenidən cızan, təsir mərkəzlərini diversifikasiya edən geosiyasi tənlikdir.**

*(ardı 3-cü səhifədə)*

## Naxçıvan sinerjisi: müstəqil dövlətçilik və Türk birliyi



Səhifə ⇨ 6

## TDT-nin Qəbələ Zirvəsi yeni zirvələrə yol açacaq

*Birlik daxilində çoxtərəfli əməkdaşlıq uğurlu nəticələr verir*



**Oktyabrın 7-də Qəbələ şəhərində keçiriləcək Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət Başçılarının XII Zirvə görüşünün mövzusu "Regional sülh və təhlükəsizlik" olaraq açıqlanıb. Toplantıda TDT-yə üzv və müşahidəçi ölkələrin dövlət və hökumət başçıları, nümayəndə heyətləri iştirak edəcəklər. Gündəliyə bölgədə və beynəlxalq aləmdə aktual məsələlərin müzakirəsi, üzv ölkələr arasında əməkdaşlığın gücləndirilməsi, birlik, sülh və rifahı irəli aparmaq məqsədilə mühüm sənədlərin qəbul edilməsi daxildir. Görüşdən əvvəl TDT Xarici İşlər Nazirləri Şurasının iclası keçiriləcək.**

*(ardı 3-cü səhifədə)*

## Ali məktəblərimizin "yaşıl" təşəbbüsü




Səhifə ⇨ 4

## Hayların seçki savaşı: sülhsevərlər, yoxsa revanşistlər?



Səhifə ⇨ 4

# Azad Qarabağın dirçəliş sədaları III MDB Oyunları tribunasından ucalır

Səhifə ⇨ 5

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi, Azərbaycan Respublikası Prezidentinin "Nizamnamə kapitalında dövlətə məxsus səhmlər olan bankların və bank olmayan kredit təşkilatlarının idarə edilməsində dövlətin iştirakı qaydası haqqında" 2009-cu il 7 avqust tarixli 144 nömrəli və "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 2009-cu il 9 fevral tarixli 48 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2021-ci il 22 sentyabr tarixli 1448 nömrəli və "Azər-Türk Bank" Açıq Səhmdar Cəmiyyətinin idarə edilməsinin təkmilləşdirilməsi haqqında" 2022-ci il 16 iyul tarixli 1752 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi, Azərbaycan Respublikası Prezidentinin "Nizamnamə kapitalında dövlətə məxsus səhmlər olan bankların və bank olmayan kredit təşkilatlarının idarə edilməsində dövlətin iştirakı qaydası haqqında" 2009-cu il 7 avqust tarixli 144 nömrəli və "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 2009-cu il 9 fevral tarixli 48 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 sentyabr tarixli 1448 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 988 (Cild I) 3.1-ci bəndindən "sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət" sözləri çıxarılsın.

**2.** "Azər-Türk Bank" Açıq Səhmdar Cəmiyyətinin idarə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 iyul tarixli 1752 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 741 (Cild I) 2.1-ci bəndindən "sədr də daxil olmaqla, 3 (üç) üzvdən ibarət" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 4 oktyabr 2025-ci il**

# "Tağıyev: Sona" bədii filminin təqdimatı



**Oktyabrın 3-də Nizami Kino Mərkəzində "Tağıyev: Sona" bədii filminin təqdimat mərasimi keçirilib.**

Tədbirdə Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva, hökumət rəsmiləri və mədəniyyət xadimləri iştirak ediblər.

"Tağıyev: Sona" filmi böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyat hekayəsinə həsr olunan "Tağıyev" filminin üçüncü bölümüdür.



Kinolent Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Kino Agentliyinin dəstəyi, "Neqsol Holding", "Kapital Bank", "Bakcell" və "Norm" şirkətlərinin sponsorluğu ilə Bakı Media Mərkəzi tərəfindən istehsal olunub.



Filmdə XIX əsrin sonu - XX əsrin əvvəlində Bakı və regionda baş verən mühüm tarixi hadisələrə toxunulur.

Taleyin çətin yollarından keçən Hacı Zeynalabdin Tağıyevin illər sonra həyatına gənc və savadlı Sona xanım daxil olur. Bu gənc xanıma qarşı duyduğu sevgi onu yeni maneələrlə üz-üzə qoyur. "Tağıyev: Sona" filmində məhz məşhur xeyriyyəçi ilə onun qəlbinə yol tapan Sona xanımın maneələri aşan unudulmaz məhəbbət hekayəsi əks olunub.

Filmin baş prodüseri Arzu Əliyeva, prodüseri Orman Əliyev, rejissoru Zaur Qasımlı, ssenari müəllifləri İsmayıl İman, Asif İsgəndərli və Zaur Qasımlı, operatoru Vladimir Artemyev, rəssamı Səbuhi Atababayev, geyim rəssamı Vüsal Rəhim və bəstəkarı Etibar Əsədlidir. Xalq artistləri Pərviz Məmmədrzayev, Qurban İsmayılov, Əməkdar artistlər Rasim Cəfər, Elşən Rüstəmov, Natəvan Hacıyeva da olmaqla geniş peşəkar aktyor heyəti filmdə tarixi personajları canlandırıb.

Tamaşadan sonra filmin baş rejissoru Zaur Qasımlı çəkilişlərə göstərilən dəstəkdə əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Xatırladaq ki, Azərbaycan tarixinin tanıdılması və milli dəyərlərimizin təbliğində vacib əhəmiyyət kəsb edən dördhissəli filmin ilk bölümü "Tağıyev: Neft" məhz böyük xeyriyyəçinin vəfatının 100 illiyinin qeyd olunduğu 2024-cü ildə təqdim olunub. Filmin ilk iki bölümü əlamətdar mədəniyyət hadisəsinə çevrilib və ölkə kinoteatrlarında yayımlanaraq geniş izləyici kütləsi toplaya bilib.

Azərbaycan Kinematoqrafçılar İttifaqının nəzdində fəaliyyət göstərən 98-ci Kino Akademiyası Mükafatları ("Oskar") üzrə Azərbaycan Film Seçim Komitəsi rəsmi olaraq "Tağıyev: Neft" filmini Azərbaycanın "Ən yaxşı beynəlxalq bədii film" kateqoriyasında 98-ci Kino Akademiyasının "Oskar" mükafatına namizəd təqdim edib. Bununla yanaşı, bədii filmin ilk bölümü dünyaca məşhur "Dehancer Colourist Awards 2024" festivalına qatılaraq keyfiyyətli rəng korreksiyalı tammetrajlı film nominasiyasında qalib gəlib.

Ekran əsərinin çəkilişləri öz miqyasına görə də Azərbaycan kinematoqrafiya tarixinə düşüb. 76 fərqli məkanda çəkilişləri baş tutan filmdəki kütləvi səhnələrdə 2500 nəfərə yaxın yaradıcı şəxs iştirak edib. Filmin tarixi səhnələri üçün 300-dən çox dekorasiya hazırlanıb. Tağıyevin yaşadığı tarixi dövrü tam əks etdirmək üçün xüsusi geyim emalatxanası yaradılıb, çoxlu sayda libas, aksesuar, zərgərlik nümunələri və xüsusi rekvizitlər düzəldilib.

# 2025–2026-cı tədris ilində Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası ali təhsil müəssisələrinin tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1** 2025–2026-cı tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abdıyeva Ayla Rəşad qızı
Abdullayeva Ayan Seymur qızı
Abdullayeva Məryəm İlqar qızı
Abdulsəmədli Orxan Fəxri oğlu
Abdurahmanova Guhat Məzahir qızı
Ağaməmmədova Zeynəb Zaur qızı
Ağayev Əliəkbər Xanağa oğlu
Alızadə Ziya Müşviq oğlu
Allahyarlı Fərid Zaur oğlu
Babarabov Nicat Rasim oğlu
Babaşlı Aysel Əlsaab qızı
Babayev Anar Qurban oğlu
Babayeva Cəmilə Şahin qızı
Bağırov Raul Salman oğlu
Baxşəliyeva Aytac Ənvər qızı
Bayramzadə Günay Rüfət qızı
Bəxtiyarova Röyalə Nemət qızı
Cəfərova Sehrin Mahmud qızı
Cənnətov Fuad Əlikram oğlu
Əfəndi Zəhra Fikrət qızı
Əhməd Aişə İlqar qızı
Əhmədzadə Ləman Vüqar qızı
Əkbərov Elcan Vüsal oğlu
Əkbərova Nigar Murad qızı
Əlili Müşfiq Aqil oğlu
Əliyeva Fidan Ayaz qızı
Əliyeva Nəzrin Şahin qızı
Əliyeva Tamella İlkin qızı
Əlizadə Sevinc Rizvan qızı
Əlizadə Sürəyya Münasib qızı
Ənsərli Gülər Akif qızı
Əsgər İlham Xəyyam oğlu
Əzizli Səma Zöhrab qızı
Fərəczadə Rəhim Dəyanət oğlu
Hacıyeva Nərmin Ramin qızı
Hacızadə Nihad Vüqar oğlu
Haqverdi İlham Məhəmməd oğlu
Həbibullazadə Gülay Vüsal qızı
Həlim Aydan Ülfət qızı
Həsənli Osman Rahim oğlu
Həsənov Fizuli İlqar oğlu
Həşimov Çingiz Seymur oğlu
Hümmətli Çiçək Hümmət qızı
Hüseynli Arif Pərviz oğlu
Hüseynli Enes Şikar oğlu
Hüseynova Aysu Elçin qızı
Xəlilova Aylin Rauf qızı
İbrahimli Gülay Calal qızı
İbrahimov Emin Anar oğlu
İbrahimov Əli Ruslan oğlu
İsmayılov Alı Vəfadar oğlu
İsmayılov Altay Xəyyam oğlu
İsmayılova Səma Firəddin qızı
İsmayılzadə Xədicə Xaliq qızı
Kərimov Rəcəb Ramin oğlu
Qarayev Rəfail Yusif oğlu
Qəribov Şükran Yalçın oğlu
Qoşqarov Müzəffər Qədir oğlu
Quluzadə Nəzrin Nail qızı
Qurbanlı Kəmaləddin Əmirəddin oğlu
Qurbanov Mürsəl Hacı oğlu
Mahmudova Səmra Xaqani qızı
Mansurov Eldar Ramiz oğlu
Məmmədli Mehri Rüfət qızı
Məmmədov Əbülhəsən Brilyant oğlu
Məmmədov İsmayıl Zahir oğlu
Məmmədov Şahin İmran oğlu
Məmmədova Fidan Əbülfəz qızı
Məmmədova Məryəm Emin qızı
Məmmədova Nəzrin Rahib qızı
Mirzəzadə Gündüz Fariz oğlu
Muradlı Adil Sübhi oğlu
Muradlı Nuray Balay qızı
Musayev Şahin Elçin oğlu
Musazadə Səməd Nail oğlu
Mustafayev İbrahim Ağa oğlu
Mustafayeva Emiliya Akif qızı
Mürşüdlü Ayxan Dilavər oğlu
Mürvətova Gülay Rəşad qızı
Nadirli Tunar Emin oğlu
Nəsirov Kamran Elnur oğlu
Nəzərzadə Zaur Ceyhun oğlu
Nurməmmədli Sona Məhəmməd qızı
Ömər Cabir Ceyhun oğlu
Ramizli Zəhra İlqar qızı
Rəhimli Oruc Coşqun oğlu
Rəhimova Xədicə Toğrul qızı
Rüstəmov Nicat Qabil oğlu
Sadıxov Nicat Seymur oğlu
Sarıyev Murad Fəxrəddin oğlu
Səfərov Yusif Vasif oğlu
Səfərova Aysel Eldəniz qızı
Səmədov Mətin Qorxmaz oğlu
Şabanova Rəyyan Zeynəddin qızı
Şamilova Vüsalə Anar qızı
Şərifli Fidan David qızı
Şirinov Röyal Şahbaz oğlu
Tahirli Zaman Zaur oğlu
Vəlizadə Aygün Tofiq qızı
Vəlizadə Babək Elçin oğlu
Yusifova Nəzrin Çingiz qızı
Zeynallı Nilufər Hidayət qızı.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 4 oktyabr 2025-ci il**

# Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin əməkhaqlarının artırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evinin işçilərinin Vahid Tarif Cədvəli ilə müəyyən olunmuş tarif (vəzifə) maaşlarına 1,5–3 dəfə artım əmsalları tətbiq edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə müəyyən edilən artım əmsallarının şamil olunacağı işçilərin əhatə dairəsini və görülən işin xüsusiyyətindən asılı olaraq miqdarını müəyyən etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3** Bu Sərəncamın 1-ci hissəsi 2025-ci il avqustun 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 4 oktyabr 2025-ci il**

# Cəbrayılda Şəhər Günü təntənəsi



**İşğaldan azad olunmuş Cəbrayıl şəhərində artıq ikinci ildir ki, sakinlər Şəhər Gününü öz doğma yurdlarında bayram əhvali-ruhiyyəsi ilə təntənəli şəkildə qeyd ediblər.**

Əvvəlcə Cəbrayıl Şəhəri Gününə həsr edilən "Qarabağ - obyektivdən tarixə" adlı sərgiyə baxış keçirilib. Fotosərgidə Qarabağa, Azərbaycan Silahlı Qüvvələrinə və Cəbrayıla həsr olunan fotolar yer alıb.



Sonra şəhərin balaca sakinləri üçün "face art" və interaktiv əyləncəli oyunlar təşkil edilib.

İncəsənət xadimləri konsert proqramı ilə şənliyə toplaşanlara xoş ovqat bəxş ediblər.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, mədəniyyət nazirinin müavini Murad Hüseynov, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Növrəs Cəfərov, şəhər ziyalıları, ictimaiyyət nümayəndələri Şəhər Gününə həsr olunmuş tədbirdə iştirak ediblər.

*XQ*

# TDT-nin Qəbələ Zirvəsi yeni zirvələrə yol açacaq

(əvvəli 1-ci səhifədə)

Bu əlamətdar tədbirin həm tarixi, həm də müasirliyi simvollaşdıran Qəbələdə təşkil olunması türk dövlətləri arasında dostluq, həmrəylik və tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi üzrə TDT-nin ümumi mövqeyini əks etdirir. Zirvə görüşü təşkilata üzv ölkələr üçün prioritet sahələrdə qabaqcıl layihələr müzakirə etməsinə imkan yaradacaq. Təşkilatın əvvəllər keçirilən toplantılarında üzv ölkələr arasında ticarət, nəqliyyat-logistika, enerji, kənd təsərrüfatı, müdafiə və təhlükəsizlik sahələrində əməkdaşlığın genişləndirilməsi, həmçinin mədəni və təhsil proqramlarının təşkili kimi məsələlər müzakirə edilib.

Keçən il noyabrında "Türk dünyasının gücləndirilməsi: İqtisadi inteqrasiya, davamlı inkişaf, rəqəmsal gələcək və hamı üçün təhlükəsizlik" mövzusunda Bişkekdə keçirilən TDT Dövlət Başçılarının XI Zirvə görüşündə iqtisadi inteqrasiya, rəqəmsallaşma və təhlükəsizlik yenilikləri kimi geniş spektrli mövzulara dair qərarlar qəbul olundu. Bu il ilk dəfə hökumət başçıları toplantısının təşkil olunması ticarət, enerji və texnologiya sahəsində birgə platformaların yaradılmasına təkan verib. Sentyabrın 18-də Bişkekdə baş tutan üzv dövlətlərin Hökumət başçılarının/Vitse-prezidentinin görüşü bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Qəbələ sammitində də oxşar dinamika gözlənilir. Burada yeni yol xəritələri, strateji sazişlər və əməkdaşlıq mexanizmlərinin imzalanması planlaşdırılır.

Hər il oktyabrın 3-ü Türk Dövlətləri Əməkdaşlıq Günü kimi qeyd edilir. Bu tarix türk dünyasının birliyinin ifadəsidir. Çünki məhz 2009-cu ilin həmin günündə Naxçıvan Sazişi imzalanaraq Türk Dövlətləri Təşkilatının (o zamankı adı Türk Şurası) əsası qoyuldu. Son 16 ildə TDT qlobal siyasi gündəliyin mühüm aktoruna çevrilib, Türk dövlətlərinin iqtisadi, mədəni, təhlükəsizlik və humanitar sahələrdə əməkdaşlığını daha geniş müstəviyə daşıyıb. Azərbaycan XİN bu münasibətlə paylaşımında ölkəmizin təşkilat çərçivəsində əməkdaşlığın möhkəmlənməsinə sadiq olduğunu qeyd edib: "Təşkilatımızın təməlinin qoyulduğu Naxçıvan Sazişinin imzalandığı bu əlamətdar gün ortaq tarix, dil və mədəniyyətə əsaslanan Türk dünyasının həmrəyliyinin və birliyinin təntənəsidir. Azərbaycan qardaş ölkələrlə birgə TDT çərçivəsində əməkdaşlığın möhkəmlənməsinə və ortaq gələcəyimizin qurulmasına sadiqdir. Türk birliyi – güc, sabitlik və rifah mənbəyidir!".

Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın tamhüquqlu üzv olduğu, Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC), Macarıstan və Türkmənistanın müşahidəçi statusunda yer aldığı, 16 yaşını qeyd edən təşkilatın əsas strateji məqsədi türk dövlətləri arasında hərtərəfli əməkdaşlığı gücləndirmək, ortaq mədəni irs və dəyərləri canlandırmaq və iqtisadi-ticari əlaqələri dərinləşdirməkdir. Üzv dövlətlər TDT-ni sadəcə mədəni birlik deyil, eyni zamanda regional güc qovşağı kimi formalaşdırmaq niyyətindədirlər. Türk dövlətlərinin "Türk Dünyası 2040 – Gələcək Vizyonu" sənədi isə uzunmüddətli məqsədləri müəyyənləşdirir. Burada siyasi həmrəylik, iqtisadi inteqrasiya və beynəlxalq nüfuzun artırılması kimi strateji hədəflər əks olunub.

TDT-nin fövqəladə vizyonu çərçivəsində 4.25 milyon kvadratkilometrə yaxın ərazidə 160 milyon insanı əhatə edən birgə potensialdan istifadə etmək planlaşdırılır. Təşkilatın 30-dan çox sahədə əməkdaşlıq mexanizmləri mövcuddur. Bunlar arasında siyasi dialoq, iqtisadi və ticarət ittifaqları, nəqliyyat və energetika infrastruktur layihələri, rəqəmsal texnologiyalar, elm və təhsil istiqamətləri yer alır. Bu strategiyada üzv dövlətlərin iqtisadi həcmi təqribən 1 trilyon dollardan 2.1 trilyon dollara qədər artmışdır.

***

Qarşıdakı illərdə TDT-nin əsas missiyalarından biri üzv dövlətlər arasında nəqliyyat-logistika xətlərini (məsələn, Bakı–Tbilisi–Qars dəmiryolu, Orta Dəhliz, yəni, Trans-Xəzər marşrutu) və energetika əlaqələrini inkişaf etdirmək, ortaq enerji layihələrinin icrasıdır. Həmçinin TDT daxilində elmi-tədqiqat, innovasiya və təhsil sahəsində birgə təşəbbüslər (məsələn, Türk Universitetlər Birliyi və Orxun Mübadilə Proqramı) həyata keçirilir. Strateji baxımdan Azərbaycan, Türkiyə, Qazaxıstan kimi üzv ölkələr özlərini türk dünyasının qovşağı hesab edirlər. Baş katibin müavini Ömər Kocaman qeyd edir ki, Azərbaycan nəqliyyat və ticarət baxımından türk regionunda körpü rolunu oynayır. Bütün bu amillər Qəbələ zirvəsinin əhəmiyyətini daha da artırır.

"Regional sülh və təhlükəsizlik" mövzusu çərçivəsində keçiriləcək zirvə görüşünün geosiyasi konteksti olduqca aktualdır. Azərbaycan–Ermənistan münasibətlərində əldə edilən sülh sazişinin paraflanması (Vaşinqton razılaşması) Cənubi Qafqazda vəziyyəti sakitləşdirmiş, Türkiyə–Ermənistan münasibətlərinin normallaşmasına yol açmışdır. TDT-yə üzv ölkələrin əksəriyyəti Cənubi Qafqaz, Mərkəzi Asiya və Avropa istiqamətində



coğrafi baxımdan Rusiya–Ukrayna münaqişəsinə yaxın olduğundan bu mövzu zirvənin müzakirə predmetlərindən biri olacaq. Xüsusilə Türkiyənin hər iki tərəflə münasibəti nisbətən xoşdur və bu mövqeyi vasitəçilikdə istifadə edir. TDT daxilində təhlükəsizlik əməkdaşlığını möhkəmlətmək məqsədilə hərbi-siyasi formatda yeni mexanizmlər yaratmaq fikri də formalaşır. Gələcəkdə TDT regional güc mərkəzinə çevrilə, hərbi-siyasi blok xüsusiyyətləri qazana bilər.

Azərbaycan Prezidenti İlham Əliyev ötən il fevralın 24-də andiçmə mərasimində çıxışı zamanı qətiyyətlə bildirdi ki, "Türk dövlətləri təşkilatı bizim ailəmizdir". Praktiki olaraq bu ideya həqiqətə çevrilməkdədir. Bu bəyanat strateji istiqaməti ifadə edən aydın mesaj idi. Çünki Azərbaycan türk dövlətləri arasında həm tarixi-mədəni bağların, həm də iqtisadi-strateji körpülərin ən mühüm həlqələrindən biri kimi çıxış edir. Azərbaycan liderinin bu sözləri TDT məkanında qarşılıqlı etimadın, ortaq dəyərlərin və birgə inkişaf yolunun təməl prinsiplərinə çevrilməkdədir. Bugünkü regional reallıqlar, iqtisadi əməkdaşlıq layihələri, nəqliyyat-logistika dəhlizləri, enerji təhlükəsizliyi təşəbbüsləri və mədəni-humanitar inteqrasiya prosesləri göstərir ki, İlham Əliyevin təsbit etdiyi bu konsepsiya artıq praktik məzmun qazanır və türk dövlətlərinin həmrəylik platformasına çevrilir.

TDT-nin ortaq dəyərlər üzərində qurulan mədəni inteqrasiya fəaliyyəti təşkilatın önəmli tərəfidir. Üzv dövlətlər ümumi dil, tarix və mədəni irsə əsaslanır ki, bu, TDT-nin regional əməkdaşlığını unikal edir. Türk dünyasının zəngin folkloru, ədəbiyyatı, milli ənənələri mədəni diplomatiya vasitəsilə qorunur və təbliğ olunur. Təşkilat çərçivəsində TDT Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA), Türk Akademiyası və Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türkiyə İnvestisiya Fondu, Türk Mədəniyyəti və İrsi Vəqfi kimi strukturlar yaradılıb və illik mədəniyyət proqramları həyata keçirilir. Hər il "Türk dünyası mədəniyyət paytaxtı", gənclər üçün "Türk dünyası gənclik paytaxtı" layihəsi həyata keçirilir, Novruz kimi ortaq bayramlar böyük tədbirlərlə qeyd olunur. Epik miras (məs. "Manas", "Koroğlu" kimi dastanlar) və sənət nümunələri (atüstü yarışlar, xalçaçılıq və s.) birlikdə yaşadılır və UNESCO-nun siyahısına salınır. Bu tədbirlər insanlar arasında bağları möhkəmləndirir, ortaq kimliyi inkişaf etdirir.

Türk dövlətləri arasında keçirilən tematik toplantılar yeni ideyaların müzakirə olunduğu mühüm platformalara çevrilib. Cari ilin iyununda Çolpon-Atada təşkil edilən görüş zamanı kənd təsərrüfatı nazirləri bir sıra strateji sənədlərə imza ataraq əməkdaşlığın gələcək xəritəsini müəyyənləşdirdilər. Qəbul olunan Strateji Yol Xəritəsi aqrar sahədə texnoloji yeniliklərin tətbiqi, ərzaq təhlükəsizliyinin təmin olunması və ortaq bazar imkanlarının genişləndirilməsi istiqamətində konkret addımları özündə ehtiva edir. Həmin məclisdə Çolpon-Ata şəhəri 2025–2026-cı illər üzrə "Türk Dünyasının Kənd Təsərrüfatı Paytaxtı" elan olundu. Paralel keçirilən Aqroforum isə dövlət rəsmiləri, iş adamları və investorları bir masa arxasında toplayaraq aqrar istehsalın modernləşdirilməsi, ixrac potensialının artırılması və birgə investisiya layihələrinin reallaşdırılması ilə bağlı geniş fikir mübadiləsinə şərait yaratdı.

Nəticə olaraq, Qəbələ Zirvə görüşü türk dünyasının bütün əsas sahələrdə müştərək əməkdaşlığın müzakirə olunduğu platformaya çevrilə bilər. TDT üzvü olan dövlətlər qarşıdakı illərdə siyasi dialoqu, iqtisadi əlaqələri, mədəni-təhsil inteqrasiyasını daha da dərinləşdirəcək ki, bu da öz növbəsində regional sülh, sabitlik və rifahı gücləndirəcək.

***Tacir SADIQOV***
***XQ***

# "Bir kəmər, bir yol" quruculuğunda Azərbaycan memarlığı

## *Ölkəmiz Avrasiyanın yeni nəqliyyat infrastrukturunu formalaşdıran aparıcı mərkəzdir*




(əvvəli 1-ci səhifədə)

Məhz bu tarixi transformasiya prosesinin episentrində dayanan Azərbaycan aydın milli maraqlarına, uzaqgörən liderlik fəlsəfəsinə və qətiyyətli siyasi iradəsinə söykənərək təşəbbüsün əsas seqmenti olan Orta Dəhlizin fəal memarı və strateji moderatoru kimi çıxış edir. Azərbaycanın "Bir kəmər, bir yol" layihəsindəki iştirakı iqtisadi səmərədən daha çox, ölkənin milli müstəqilliyini möhkəmləndirən, xarici siyasətinin çoxşaxəli təbiətini gücləndirən və Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqda aparıcı rolunu təsdiq edən şüurlu və suveren siyasi seçimdir. Ölkənin həmin qlobal layihəyə verdiyi töhfə, əslində, onun ənənəvi güc mərkəzlərindən asılılığını azaldan, alternativ əməkdaşlıq platformaları yaradan və nəticədə strateji muxtariyyətini sarsılmaz təməllər üzərində quran mühüm dövlətçilik strategiyasının təcəssümüdür.

Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsünə, xüsusilə Orta Dəhlizə verdiyi strateji önəmin siyasi köklərini anlamaq üçün ölkənin coğrafi və geosiyasi mövqeyinin yaratdığı tarixi çağırışları nəzərə almaq lazımdır. Dövlətimiz müstəqilliyini bərpa etdiyi ilk gündən etibarən Şimal və Cənubdakı böyük qonşularının (Rusiya və İran) hegemonluq cəhdləri ilə üzləşmiş, onların nəqliyyat-kommunikasiya xətləri üzərindəki inhisarçı mövqeyi ölkənin xarici dünya ilə sərbəst əlaqələrini məhdudlaşdıran amil olmuşdur. Həmin ölkələrdən keçən ənənəvi marşrutlar hər zaman siyasi təzyiq vasitəsi kimi istifadə edilmə potensialı daşımışdır. Məhz bu reallığı dərindən dərk edən ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə Şərq–Qərb istiqamətində alternativ nəqliyyat dəhlizlərinin yaradılmasını xarici siyasətinin təməl prioritetlərindən birinə çevirmişdir.

Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri ilə başlayan strategiya Bakı–Tbilisi–Qars dəmir yolunun inşası ilə özünün logistik zirvəsinə çatmışdır. Bu layihələr iqtisadi səmərə ilə yanaşı, ilk növbədə, Azərbaycanın Qərblə, Avropa institutları ilə birbaşa və hər hansı vasitəçidən asılı olmayan əlaqələrini təmin etmək məqsədi daşıyırdı. "Bir kəmər, bir yol" təşəbbüsü yarananda Azərbaycan artıq bu istiqamətdə addımlar atmış, müasir infrastruktura malik hazır platforma rolunu oynamağa başlamışdı. Beləliklə, Azərbaycanın Orta Dəhlizə qoşulması, sadəcə Çinin təklifinə reaktiv cavab deyildi, əksinə, ölkənin onilliklər boyunca apardığı suveren və müstəqil xarici siyasət xəttinin məntiqi davamı və kulminasiyası idi. Orta Dəhliz Azərbaycan üçün şimal və cənub marşrutlarına alternativ yaratmaqla ölkənin siyasi manevr imkanlarını genişləndirir, onun heç bir güc mərkəzinin təsir dairəsinə düşmədən balanslaşdırılmış və milli maraqlara söykənən siyasət yürütməsinə imkan verir.

Azərbaycanın "Bir kəmər, bir yol" strategiyasının digər mühüm siyasi aspekti ölkənin apardığı çoxvektorlu xarici siyasətin mükəmməl təcəssümü olmasıdır. Dövlətimiz Orta Dəhlizin mərkəzi liderinə çevrilməklə eyni anda bir neçə qlobal və regional güc mərkəzi üçün əvəzolunmaz tərəfdaş statusu qazanır. Bir tərəfdən, Azərbaycan layihənin təşəbbüskarı olan Çin üçün Avropaya ən qısa və təhlükəsiz çıxışı təmin edən etibarlı tərəfdaşdır. Bu, Pekinlə siyasi və iqtisadi əlaqələrin strateji səviyyəyə yüksəlməsinə zəmin yaradır.

Digər tərəfdən, həmin dəhlizin son nöqtəsi Avropa İttifaqı olduğu üçün Azərbaycan Avropanın təchizat zəncirinin təhlükəsizliyi və enerji şaxələndirilməsi siyasəti üçün həyati əhəmiyyət kəsb edir. Bu amil Azərbaycanın Avropa ilə münasibətlərində ona əlavə siyasi çəki və rıçaqlar qazandırır. Eyni zamanda, Orta Dəhliz Azərbaycanın strateji müttəfiqi olan Türkiyə ilə əlaqələri yeni, iqtisadi-siyasi inteqrasiya mərhələsinə keçirir və Türk dünyasının Mərkəzi Asiyadan Anadoluya qədər fasiləsiz quru əlaqəsinin onurğa sütununu formalaşdırır.

Nəhayət, dəhliz Mərkəzi Asiya respublikalarının okeana ən optimal çıxış marşrutu olduğu üçün, Azərbaycan həmin ölkələrə strateji qapı rolunu oynayır və Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya proseslərinin liderinə çevrilir. Beləliklə, Azərbaycan eyni layihə vasitəsilə Çin, Avropa İttifaqı, Türkiyə və Mərkəzi Asiya ilə münasibətlərini eyni vaxtda dərinləşdirir, onların maraqlarının kəsişdiyi və uzlaşdığı platforma yaradır. Bu, ölkənin potensial münaqişə meydanından əməkdaşlıq körpüsünə çevirən, onu beynəlxalq təcrid cəhdlərindən sığortalayan və xarici siyasətin dayanıqlılığını təmin edən müdrik diplomatik manevrdir.

Ölkəmizin "Bir kəmər, bir yol" təşəbbüsündəki iştirakı iqtisadi mülahizələri aşan, dərin və çoxşaxəli siyasi məna kəsb edən strateji dövlətçilik aktıdır. Bu siyasət dövlətin geosiyasi mövqeyinin yaratdığı çağırışları fürsətə çevirmək, milli suverenliyi xarici təsirlərdən qorumaq və beynəlxalq aləmdəki rolunu artırmaq məqsədi daşıyan düşünülmüş və ardıcıl strategiyanın məhsuludur. Orta Dəhlizin fəal memarına çevrilməklə ölkəmiz özünü Avrasiyanın siyasi dialoq və maraqların uzlaşdığı mərkəz kimi təsdiq edib. Bu strategiya ölkəyə həm Şərqlə, həm də Qərblə konstruktiv münasibətlər qurmağa, eyni zamanda, Türk dünyası daxilində inteqrasiyanın lokomotivi rolunu oynamağa imkan verir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Ali məktəblərimizin “yaşıl” təşəbbüsü

## *“İqlim Dəyişikliyi üzrə Azərbaycan Universitetləri Şəbəkəsi”nin qlobal hədəfi*

**ADA Universitetində “İqlim Dəyişikliyi üzrə Azərbaycan Universitetləri Şəbəkəsi”nin rəsmi açılışı ölkəmizin iqlim diplomatiyası üçün strateji bir dönüş nöqtəsidir. Təşəbbüs ölkədə ali təhsil müəssisələrinin, dövlət qurumlarının və beynəlxalq tərəfdaşların bir mərkəzdə toplanmasını təmin edir. Məsələ burasındadır ki, akademik institutların birləşməsi yalnız elmi potensialı artırmaqla kifayətlənmir, həm də siyasi qərarların sübut-dəlili hazırlanmasına imkan yaradır.**






Əslində, suallar çoxdur: belə bir şəbəkə həqiqətən də qlobal səviyyədə hansısa təsiri göstərə bilərmi? Azərbaycan bu təşəbbüsü regional və beynəlxalq siyasət müstəvisində bir alətə çevirməyi bacaracaqmı? Və ən əsası – akademik mərkəzli bir təşəbbüs dövlət siyasətinə necə inteqrasiya olunacaq? Cavabların axtarışı göstərir ki, şəbəkənin gücü yalnız təhsil və tədqiqatda deyil, həm də siyasətin formalaşdırılmasında və xarici əlaqələrin möhkəmlənməsindədir.

Universitet şəbəkələrinin əsas gücü onların yalnız təhsil verməklə kifayətlənməməsində, həm də siyasi prosesə sübut əsaslı bilik və analitik yanaşma gətirə bilməsindədir. “İqlim Dəyişikliyi üzrə Azərbaycan Universitetləri Şəbəkəsi”nin ADA Universitetində təşəkkül tapması Azərbaycanın iqlim gündəliyini daha qlobal və strateji müstəviyə daşıyır. Şəbəkə vasitəsilə universitetlər dövlət qurumlarının qərarvermə mexanizmlərinə birbaşa təsir göstərə bilən intellektual platforma funksiyasını yerinə yetirəcək.

Beynəlxalq təcrübəyə nəzər saldıqda görürük ki, Birləşmiş Krallıqda və Almaniyada ali məktəb şəbəkələri hökumətlər üçün əsas siyasət brifinqləri hazırlayır, araşdırma nəticələrini dövlətin iqlim proqramlarına yönləndirir, bununla da milli siyasətə strateji istiqamət verir. Bəs Azərbaycanda bu, necə tətbiq edilə bilər? Şəbəkəyə üzv universitetlər müntəzəm olaraq iqlim dəyişikliyi üzrə araşdırma nəticələrini birgə hesabatlar şəklində hazırlaya, siyasətçilərə təqdim edə və beynəlxalq tərəfdaşlarla paylaşa bilər.

Azərbaycan artıq alternativ enerji sahəsində strateji addımlar ataraq özünü yalnız neft və qaz ixracatçısı kimi deyil, həm də “yaşıl enerji mərkəzi” kimi təqdim etməyi bacarıb. Qarabağ və Şərqi Zəngəzur regionları bu kontekstdə xüsusi əhəmiyyət daşıyır. Burada həyata keçirilən günəş və külək enerji layihələri ölkənin enerji keçidinin lokomotivi olmaqla yanaşı, həm də siyasi mesaj xarakteri daşıyır.

“İqlim Dəyişikliyi üzrə Azərbaycan Universitetləri Şəbəkəsi”nin araşdırma və innovasiya proqramları ilə bu layihələrin sinxronlaşdırılması, Qarabağ və Şərqi Zəngəzuru yalnız enerji istehsalı bölgəsi deyil, həm də iqlim texnologiyaları və təcrübələrin sınaq meydanına çevirə bilər. Nəticədə Azərbaycanın həm daxili enerji təhlükəsizliyi möhkəmlənəcək, həm də beynəlxalq tərəfdaşlara sübut olunacaq ki, Bakı real “yaşıl keçid” siyasətini praktik olaraq həyata keçirir.

Niyə Qarabağ və Şərqi Zəngəzur xüsusi əhəmiyyət daşıyır? Çünki bu bölgələr tarixi və siyasi baxımdan yalnız suverenliyimizin simvolu deyil, həm də Azərbaycanın iqlim diplomatiyasının ən güclü dayağına çevrilə bilər. Qarabağın “yaşıl enerji zonası” elan olunması daxildə milli birliyi möhkəmləndirir, xaricdə isə Azərbaycanın modern inkişaf modelinə inamı artırır. Şərqi Zəngəzur tranzit və enerji dəhlizlərinin qovşağı olaraq, alternativ enerji layihələrinin regional və beynəlxalq bazarlara çıxış imkanlarını genişləndirir.

Xarici investorlar üçün ən önəmli şərtlərdən biri siyasi sabitlik, ikincisi isə beynəlxalq şəbəkələrə effektiv inteqrasiyadır. Azərbaycanın bu sahədə üstünlüyü odur ki, həm regional sabitlik proseslərində lider mövqe tutur, həm də qlobal iqlim diplomatiyasında aktiv iştirak edir. “İqlim Dəyişikliyi üzrə Azərbaycan Universitetləri Şəbəkəsi”nin yaradılması bu baxımdan strateji əhəmiyyət daşıyır.

Xarici investisiya mühitini necə daha da cazibədar etmək olar?

Əvvəla, universitetlər şəbəkəsi çərçivəsində hazırlanacaq elmi nəticələr və siyasət brifinqləri Azərbaycanın iqlim və enerji keçidindəki praktiki addımlarını sübutlarla dəstəkləyəcək. İkincisi, pilot layihələr – məsələn, Qarabağda və Şərqi Zəngəzurda alternativ enerji üzrə “yaşıl zonalar”– ölkəni xarici kapital üçün açıq sınaq meydanına çevirəcək. Üçüncüsü, beynəlxalq universitetlər və təşkilatlarla birgə fəaliyyət Azərbaycanın “etibarlı tərəfdaş” imicini gücləndirəcək.

Bu model region ölkələrinə və Avropaya da mesaj verir: Bakı yalnız enerji resurslarının tədarükçüsü deyil, həm də bilik və innovasiyalar mərkəzidir. Beləliklə, xarici investisiya mühiti həm də siyasi sabitlik üçün dayanıqlı zəmin yaradır.

“İqlim Dəyişikliyi üzrə Azərbaycan Universitetləri Şəbəkəsi”nin uğur qazanması üçün onun fəaliyyətini yalnız akademik müstəvi ilə məhdudlaşdırmaq olmaz. Əksinə, bu platforma dövlətin siyasət proseslərinə sistemli şəkildə inteqrasiya edilməlidir. Azərbaycan üçün əsas üstünlük ondan ibarətdir ki, iqlim dəyişikliyi artıq həm də milli təhlükəsizlik, iqtisadi sabitlik və beynəlxalq nüfuz məsələsidir. Universitetlərdən ibarət şəbəkənin siyasi mexanizmə çevrilməsi necə baş verəcək?

Birincisi, şəbəkə dövlətlə birgə siyasət tövsiyələri hazırlamaqla faktiki siyasi institut funksiyası daşıya bilər. İkincisi, beynəlxalq tərəfdaşlarla əməkdaşlıq vasitəsilə Azərbaycanın mövqelərini qlobal iqlim sammitlərində gücləndirər. Üçüncüsü, daxildə gənclərin, müəllimlərin və ekspertlərin birgə fəaliyyətini təşkil edərək vətəndaş cəmiyyətinin siyasətə təsirini artırar.

Bu təşəbbüs siyasət, elm və diplomatiyanın birləşdiyi yeni mərhələnin başlanğıcıdır. Azərbaycan özünü həm regionda, həm də beynəlxalq aləmdə iqlim həlləri istehsalçısı kimi təqdim edə bilər. Akademik şəbəkənin siyasətə inteqrasiyası və alternativ enerji layihələri ilə sinxronlaşdırılması ölkəni yalnız tranzit ölkəsi deyil, həm də qlobal iqlim gündəliyinin fəal oyunçusuna çevirir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Hayların seçki savaşı: sülhsevərlər, yoxsa revanşistlər?

**Ermənistanda demokratik yolla iqtidara gələ bilməyəcəklərini yaxşı anlayan radikal müxalifət nümayəndələri mənfur niyyətlərini zorakı yollarla – hakimiyyəti qəsb etməklə həyata keçirmək istəyirlər. Bu metod onlara çox doğmadır. Onlar uzun illər məhz bu üsullardan istifadə edərək, seçkiləri saxtalaşdıraraq, qan tökərək, zor işlədərək hakimiyyətdə qalıblar.**

Bu qüvvələrin başında dayanan Robert Koçaryanın 1998-ci ildə ölkənin ilk prezidenti Levon Ter-Petrosyanı istefaya məcbur etməsi, 2008-ci ildə Serj Sarkisyanla birgə İrəvanın mərkəzi meydanında qan tökməsi, 2018-ci ildə yenə Sarkisyanın baş nazir kimi hakimiyyətinin ömrünü uzatması üçün siyasi oyunlar qurması yaxşı xatirimizdədir. Onlar hakimiyyətdə olduqları müddətdə inzibati resurslarını öz maraqları naminə səfərbər edərək rəqiblərinə təzyiq göstəriblər. İctimai rəyin formalaşmasında əsas rola malik media üzərində nəzarəti vasitəyə çeviriblər.

Məhz bu səbəbdən demokratik institutlar zəifləyib, seçki prosesinə etimad azalıb. İndi isə eyni taktikanı zorakı etirazlar və təxribatlar vasitəsilə davam etdirməyə çalışırlar. Bu yanaşma onların ölkəni yenidən avtoritar idarəçiliyə qaytarmaq niyyətindən xəbər verir.

Bu il iyunun sonlarında Ermənistan İstintaq Komitəsinin əlinə “Müxalifətin çevriliş planı” adlandırıla biləcək bəzi sənədlər keçdi. Plan Nikol Paşinyan hökumətinin devrilməsi üçün mərhələli fəaliyyəti nəzərdə tuturdu. Əvvəlcə müxalifətin nəzarətində olan kütləvi informasiya vasitələri və ictimai rəyin formalaşdırılması ilə məşğul olan şəxslər bir neçə ay ərzində “emosional dalğa” yaratmalı idilər. Sonra etiraz aksiyalarına hərbi rəhbərlər, məşhur artistlər, monastır ordenlərinə sahib şəxslər və Erməni Apostol Kilsəsinə və digər kilsələrə etiqad edən xristian möminlər, Azərbaycana qarşı işğalçı müharibədə ölənlərin anaları və nəhayət, Ermənistanın keçmiş liderləri R.Koçaryan və S.Sarkisyan da qoşulacaqmış.

Plana görə, sentyabrın ortalarına qədər cəmiyyət Paşinyan və onun müttəfiqlərinin hakimiyyətdən uzaqlaşdırılmasını tələb etməli, çevrilişin özü isə sentyabrın 21-də – Ermənistanın müstəqillik günündə baş verməli imiş. Planda yüksək dövlət vəzifələri də bölünübmüş. 2001-ci ildə parlament seçkiləri ərəfəsində seçicilərə təzyiq göstərdiyinə görə şərti cəzaya məhkum edilmiş, tanınmış hakim və parlamentin keçmiş deputatı Armen Çarçyanın keçid dövrü hökumətinin baş naziri seçilməsi nəzərdə tutulubmuş.

Həmçinin odlu silahlar, döyüş sursatı, fəaliyyət planları, “verbovka” olunanların siyahıları, radioələqə avadanlıqları, pilotsuz uçuş aparatları və narkotik maddələrə bənzəyən preparatlar aşkar edildi. İstintaq habelə iddia edilən hakimiyyətin ələ keçirilməsindən sonra qanunsuz hərəkətlərin planlarını, iş qrafikini və vəzifələrə potensial təyinatların siyahısını əks etdirən sənədləri də ələ keçirdi. N.Paşinyan cəsarətli addım ataraq onları zərərsizləşdirdi.

Bununla belə məlum qüvvələr yenə də iş başındadırlar. Hakimiyyət hərisliyi, bu yolla kapital toplama, korrupsiya ilə məşğul olmaq bu şəxslərin gözünü elə örtüb ki, indi də kütləvi iğtişaşlar törətməyə, qan tökməyə hazırdırlar. Onlar cəmiyyətin narazı ovqatını süni şəkildə qızışdıraraq kortəbii, adda-budda etirazları kütləviləşdirməyə çalışır, xüsusilə sosial-iqtisadi problemlərdən istifadə edərək hökumət əleyhinə etimadsızlığı dərinləşdirməyə səy göstərirlər. Müxalifət liderləri revanşist şüarlarla həm seçiciləri, həm də müxtəlif silahlı qrupları hərəkətə gətirməyə cəhd edirlər. Bununla yanaşı, xarici havadarların dəstəyinə ümid edərək hakimiyyətin legitimliyini sarsıtmaq planı güdürlər. Bu qüvvələrin əsas məqsədi ölkədə sabitliyi pozaraq siyasi böhran yaratmaqdır. Nəticədə Ermənistanın daxili təhlükəsizliyi risk altına düşəcək, qonşu dövlətlərlə münasibətləri gərginləşəcək.

Amma Koçaryan və Sarkisyan bu qeyri-sivil mübarizədə tək deyillər. Ölkənin birinci prezidenti Levon Ter-Petrosyan da onlara qoşulub. Düşərgənin digər simaları da destruktiv davranışları ilə fərqlənir. İşxan Saqatelyan və Vahe Akopyan parlament tribunasını populist çağırışlarla hökumətə qarşı təzyiq meydanına çeviriblər. Saqatelyan son aylar küçə etirazlarını qızışdırmaq, sərhəd məsələsində gərginliyi artırmaq üçün açıq çağırışlar edir. Akopyan isə sosial-iqtisadi problemləri manipulyasiya edərək hökumətə etimadı sarsıtmaq xəttini davam etdirir.



Radikal müxalif düşərgədə mühüm rol oynayanlardan biri də Ayk Mamicanyandır. O, sərt ritorikası və kompromissiz çıxışları ilə seçilir. Parlamentdə hökumətə qarşı daim təxribatçı çağırışlar edən Mamicanyan destruktiv siyasətin yeni siması hesab olunur. Bu siyasətin köhnə dayaqlarından biri isə Erməni İnqilabi Federasiyası – “Daşnaksütyun” partiyasıdır. Partiyanın tanınmış fiquru Armen Rustamyan sərt revanşist mövqeyi ilə Ermənistanı yenidən militarist xəttə qaytarmaq istəyir.

Bu qüvvələr 2026-cı il parlament seçkilərinə vahid blok şəklində qatılmaq barədə gizli müzakirələr aparırlar. Məqsəd Paşinyan hökumətini zəifləmək, payız-qış aylarında sosial narazılığı dərinləşdirərək kütləvi etiraz aksiyaları təşkil etməkdir. Hətta müxalifət daxilində “keçid hökuməti” ideyası irəli sürülür ki, bu da ölkədə sabitliyin pozulmasına xidmət edir.

Revanşist müxalifət yalnız daxili siyasətdə deyil, regionla münasibətlərdə də destruktiv xətti davam etdirir. Onlar Azərbaycanla sülh müqaviləsinin imzalanmasına qarşı çıxır, sərhədlərin delimitasiya prosesini pozmağa çalışır, ölkəmizə və Türkiyəyə qarşı nifrət ritorikasını gücləndirirlər. Bu isə Ermənistanın beynəlxalq imicinə zərbə vurur və iqtisadi inkişaf perspektivlərini daraldır.

Radikal müxalifətin zorakı metodlara üstünlük verməsi, küçə təxribatlarını əsas siyasi alətə çevirməsi ölkəni ciddi təhlükə qarşısında qoyur. Bu cəhdlər cəmiyyətin demokratik dəyərlərə inamını sarsıdır, qanuni seçki prosesini kölgə altına alır. Koçaryan, Sarkisyan, Saqatelyan, Akopyan, Mamicanyan və Rustamyan kimi psevdosiyasətçilərin bir məqsədi var – Ermənistanı köhnə idarəçilik modelinə qaytarmaq. Cəmiyyət revanşist ritorikanın ölkəni inkişafdan geri saldığını, sülh və sabitlikdən başqa alternativ olmadığını dərk etməlidir. Əks halda, Ermənistan yenidən xaos və təcrid dövrünə sürüklənə bilər.

Onu da qeyd edək ki, Paşinyan öz kampaniyasını aydın mesajlar üzərində qurmağa çalışır. O, seçicilərə müraciət edərkən əsasən ölkəni gərginlikdən çıxarmaq, sülh sazişi imzalamaq və iqtisadi sabitlik yaratmaq kimi tezisləri önə çəkir. Paşinyan yaxşı anlayır ki, cəmiyyət uzun illər davam edən qarşıdurmalardan və qeyri-müəyyənlikdən yorulub. Buna görə də seçki kampaniyasının mərkəzində müharibədən uzaqlaşmaq və yeni inkişaf mərhələsinə keçid dayanır. Baş nazir, həmçinin radikal müxalifətin revanşist ritorikasını təhlükəli sayır və seçicilərə xəbərdarlıq edir ki, köhnə qüvvələrin hakimiyyətə qayıdışı ölkəni yeni müharibə riskinə sürükləyə bilər.

Son illər müxtəlif sahələrdə aparılan islahatların da Paşinyanın seçki proqramında mühüm yer tutacağı şübhəsizdir. O, bu sahədə əldə olunan irəliləyişləri vurğulayaraq bildirir ki, Ermənistanın gələcəyi yalnız demokratik islahatların davam etdirilməsi ilə təmin oluna bilər. Qarabağ müharibəsindən sonrakı reallıq da Paşinyanın lehinə işləyən amildir. Nikol iddia edir ki, münaqişə səhifəsinin bağlanması ölkənin beynəlxalq aləmdə mövqeyini gücləndirib, yeni investisiya və əməkdaşlıq imkanları yaradıb. Paşinyan indidən seçicilərə vəd edir ki, radikal müxalifətin yaratmaq istədiyi xaosdan fərqli olaraq, hökumət yalnız sabitlik və təhlükəsizlik yolunu seçir. Bütün bunlar hakimiyyətin mövqeyini gücləndirən amillərdir.

***Səxavət HƏMİD***
***XQ***

# Regional inteqrasiyanın strateji tərəfdaşları



**(əvvəli 1-ci səhifədə)**

Azərbaycanın son illər əldə etdiyi siyasi sabitlik, iqtisadi inkişaf və beynəlxalq müstəvidə artan nüfuzu Gürcüstanla münasibətlərin yeni mərhələyə qədəm qoymasına şərait yaradıb. Gürcüstan bu prosesdə həm regional təhlükəsizlik baxımından, həm də nəqliyyat-logistika və enerji layihələri kontekstində mühüm tərəfdaş rolunu oynayır. İki ölkənin dövlət başçıları və yüksək səviyyəli rəsmiləri arasında keçirilən mütəmadi görüşlər, imzalanan sənədlər və reallaşan layihələr münasibətlərin sıradan diplomatik əlaqələr deyil, məhz strateji əməkdaşlıq formatında qurulduğunu sübut edir.

Gürcüstan Prezidenti Mixeil Kavelaşvilinin inauqurasiyadan sonra ilk rəsmi səfərini Azərbaycana etməsi, ardınca Baş nazir İrakli Kobaxidzenin, xarici işlər naziri Maka Botçorişvili, digər yüksək səviyyəli rəsmilərin Bakıya səfərləri bu ölkənin Azərbaycanla münasibətlərə verdiyi əhəmiyyətin bariz nümunəsidir.

Siyasi müstəvidə Azərbaycan və Gürcüstan arasında yüksək etimad mühiti formalaşıb. Hər iki ölkə beynəlxalq təşkilatlar çərçivəsində bir-birinin ərazi bütövlüyünü dəstəkləyir, ortaq diplomatik mövqe sərgiləyir və qlobal məsələlərdə birgə addımlar atır. Xüsusilə 44 günlük Vətən müharibəsinin gedişində Gürcüstanın tutduğu mövqe bu etimadın konkret təzahürünə çevrildi. Ermənistanın hərbi yüklərinin qonşu Gürcüstan ərazisindən keçirilməsinə icazə verilməməsi, uzun illər formalaşmış dostluq və qarşılıqlı hörmətin nəticəsi kimi qiymətləndirilir. Gürcüstanın bu mövqeyi regionda sülh və sabitlik naminə atılan cəsarətli və prinsipial addım idi.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze Kopenhagendə verdiyi açıqlamasında Azərbaycanın regionda strateji tərəfdaş olduğunu açıq şəkildə bildirdi. O, münasibətlərin qorunub saxlanılmasının və inkişaf etdirilməsinin vacibliyini vurğulayaraq, bu tərəfdaşlığın həm ikitərəfli, həm də regional kontekstdə mühüm rol oynadığını vurğuladı. Onun sözlərinə görə, Cənubi Qafqazda sülhün təşviqi Gürcüstanın əsas hədəflərindən biridir və bu yolda Azərbaycanla birgə fəaliyyət böyük əhəmiyyət daşıyır.

***

**Gürcüstanın səhiyyə naziri Mixeil Sarcveladze** Ermənistanla Azərbaycan arasında əldə olunmuş sülh razılaşmasının ölkəsində böyük məmnunluqla qarşılandığını deyib. Onun sözlərinə görə, regiona sülhün gəlməsi bütün Cənubi Qafqaz xalqları üçün həyati dərəcədə vacibdir. Azərbaycan xalqının ərazi bütövlüyünə qovuşması və məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması Gürcüstanda böyük sevinc və məmnuniyyət hissi ilə izlənilib. Nazirin qeyd etdiyi kimi, bu uğurlar təkcə Azərbaycanın deyil, bütün regionun uğurudur və yeni imkanlar pəncərəsi açır.

Tarixən mövcud olmuş əməkdaşlıq hazırda təkcə dövlətlərarası münasibətlərlə məhdudlaşmır. İki ölkənin kommersiya qurumları, səhiyyə, nəqliyyat, energetika və digər sahələrdə qurduğu sıx əməkdaşlıq gələcəkdə daha məhsuldar nəticələrin əldə olunmasına zəmin yaradır. Gürcüstanlı nazirin vurğuladığı kimi, bu münasibətlərin intensivləşdirilməsi, daha məhsuldar əməkdaşlığın qurulması hər iki ölkənin inkişafına xidmət edəcək və regionun iqtisadi-siyasi sabitliyinə töhfə verəcək.



Hazırda iqtisadi və enerji əməkdaşlığı Azərbaycan–Gürcüstan münasibətlərinin dayaq sütunlarından birini təşkil edir. Beynəlxalq enerji kəmərləri, nəqliyyat dəhlizi regionun enerji təhlükəsizliyi və iqtisadi inteqrasiyası baxımından mühüm rol oynayır. Gürcüstan bu layihələrdə tranzit ölkə kimi çıxış etməklə yanaşı, Azərbaycanın qaz təchizatında iştirak edir və qarşılıqlı fayda əsasında əməkdaşlıq həyata keçirilir. Bu gün Azərbaycan Gürcüstan vasitəsilə Avropa ölkələrinə təbii qaz ixrac edir. Bu, Tbilisinin həm iqtisadi, həm də geosiyasi mövqeyini daha da möhkəmləndirir.



Xüsusilə Azərbaycan, Gürcüstan və Qazaxıstanın Orta Dəhliz üzrə vahid uzunmüddətli tariflərə dair razılaşması daşımaların səmərəliliyini artırmağa, logistikanın rəqabətədavamlılığını gücləndirməyə xidmət edir.

Müasir dövrün çağırışlarından biri olan "yaşıl enerji" sahəsində də Azərbaycan–Gürcüstan əməkdaşlığı sürətlə inkişaf edir. Azərbaycanın təşəbbüsü ilə irəli sürülən "Trans–Xəzər Yaşıl Enerji Dəhlizi", "Mərkəzi Asiya–Azərbaycan Yaşıl Enerji Dəhlizi" və digər layihələr, bərpaolunan enerji mənbələrinin regional miqyasda ötürülməsini təmin etməklə yanaşı, Gürcüstanın tranzit rolunu daha da artırır.

Azərbaycanın energetika naziri Pərviz Şahbazovun Qazaxıstanda keçirilən "Qazaxıstan Enerji Həftəsi" çərçivəsində iştirak etdiyi tədbirlərdə çıxışında Azərbaycanın "yaşıl enerji" gündəliyindəki hədəfləri və bu hədəflərin reallaşmasında Gürcüstan da daxil olmaqla regional tərəfdaşların rolunu vurğulayıb. Bildirib ki, Azərbaycan 2030-cu ilədək enerji balansında bərpaolunan mənbələrin payını 40 faizə çatdıracaq. Bununla paralel regional enerji şəbəkələrinin birləşdirilməsi Tbilisinin layihələrdəki iştirakını zəruri edir. Bu baxımdan, Gürcüstanın enerji infrastrukturunun modernləşdirilməsi, regional enerji bazarına inteqrasiya və şəbəkələrin uyğunlaşdırılması istiqamətində atacağı addımlar Azərbaycanla münasibətlərin keyfiyyətcə yeni mərhələyə keçməsinə səbəb olacaq.

Beləliklə, Azərbaycan–Gürcüstan münasibətləri regional sabitlik və inteqrasiyanın əsas dayaqlarından biri kimi çıxış edir. Bu münasibətlər qarşılıqlı etimad, ortaq maraqlar, tarixi dostluq və praqmatik siyasətə əsaslanır. Onların gələcək inkişafı isə təkcə Cənubi Qafqaz üçün deyil, bütün Avrasiya məkanı üçün strateji əhəmiyyət kəsb edir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azad Qarabağın dirçəliş sədaları III MDB Oyunları tribunasından ucalır

## *Birlik ölkələrinin idman yarışları yaxın keçmişin ənənələrini yaşadır*




**Yozef Blatter hələ FIFA-nın prezidenti olduğu dövrdə ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışarkən belə demişdi: "Azərbaycanlıları xoşbəxt xalq hesab edirəm!".**

Yaxın tariximizə nəzər salsaq, ölkəmizin təkcə idman meydançalarında, tatami üzərində deyil, diplomatiyada da saysız-hesabsız uğurlarının şahidi olarıq. Ərazi bütövlüyümüz və suverenliyimizin bərpasından tutmuş müxtəlif beynəlxalq tədbirlərə örnək ev sahibi kimi nüfuz qazanmağımız dövlətimizin imicinə müsbət təsirini göstərib. Bu cür uğurlu ölkənin vətəndaşı olmaq insana qürur verir. Hazırda beynəlxalq ictimaiyyətin diqqəti yenə Azərbaycana yönəlib. Çünki III MDB Oyunları kimi mötəbər idman yarışına ilk dəfə ölkəmiz ev sahibliyi edir. İdman tariximizdə mühüm dönüş nöqtəsinə çevrilən oyunlar dünyaya ötürdüyü mesaj, yaratdığı birlik və həmrəylik ruhu ilə seçilir.

Oxuculara xatırladaq ki, MDB Oyunları ilk dəfə 2021-ci ildə Rusiyanın Kazan şəhərində keçirilib, ikinci dəfə Belarusun paytaxtı Minskdə baş tutub. Olduqca qürurverici hadisədir ki, III MDB Oyunlarına məhz Azərbaycan ev sahibliyi edir. Respublikamızın müxtəlif şəhərlərində keçirilən oyunlar həm idmançılar, həm də tamaşaçılar üçün əsl bayrama çevrilib desək, yanılmarıq. Sentyabrın 28-dən başlayan və 8 oktyabra qədər davam edəcək, 23 müxtəlif idman növü üzrə təşkil olunan oyunların yaddaşımızda silinməz izlər buraxacağı şübhəsizdir. Gəncə şəhəri 8 idman növündə yarışan idmançılara ev sahibliyi edir. Mingəçevirdə su idmanının 4 növü üzrə yarışlar keçirilir. Qəbələ 4 növ üzrə maraqlı qarşılaşmalara şahidlik edir. Şəki, Göygöl, Yevlax və Xankəndidə də müxtəlif idman növləri üzrə oyunlar təşkil olunur.

Xankəndidə – zəfərin, milli iradənin, sarsılmaz qələbə ruhunun nümayişi olan torpaqlarda keçirilən yarışlar tarixi kontekstdə dərin məna kəsb edir. İllərlə işğal altında qalan Xankəndi indi azadlıq nəfəsi ilə dirçəlir, idman yarışlarına ev sahibliyi edir, Azərbaycanın gələcəyə inamını, sülhə və birliyə çağırışını göstərir. III MDB Oyunları bölgənin sosial-iqtisadi inkişafına təkan verir, gələcəkdə daha böyük beynəlxalq layihələrin həyata keçirilməsi üçün zəmin hazırlayır.

MDB ölkələrinin idman heyətləri ilə yanaşı, Azərbaycan hökumətinin dəvəti əsasında digər dövlətlərin idmançıları da yarışlara qatılıblar. Bu, oyunlara beynəlxalq miqyas, nüfuz qazandırır və onu MDB ölkələri çərçivəsindən çıxararaq daha geniş coğrafiyada tanınan idman hadisəsinə çevirir. Azərbaycanın qonaqpərvərliyi, oyunların təşkilatçılığı və idmançılara göstərilən şərait yüksək qiymətləndirilir. Sadaladığımız faktlar ölkəmizin böyük idman tədbirlərinə ev sahibliyi etmək bacarığını bir daha isbatlayır.

III MDB Oyunlarının rəmzləri də xüsusi diqqət çəkir. Yarışın maskotları – "Bəbir" və "Leyla" simvolik məna daşıyır. Bəbir Azərbaycanın gücünü, çevikliyini və qətiyyətini, Leyla isə özündə sülhü, xoş məramı, zərifliyi və qonaqpərvərliyi ifadə edir. Maskotlar uşaqlardan böyüklərə hər kəsin rəğbətini qazanır və oyunların ruhunu daha da cazibədar edir. Yarışların "Hər qəlbdə bir qələbə" şüarı da dərin mənaya malikdir. Bu şüar iştirakçılara və tamaşaçılara xatırladır ki, qələbə təkcə medal qazanmaqla deyil, həm də dostluq qurmaq, birlik yaratmaq və insan ruhunu zənginləşdirməklə ölçülür.



Azərbaycanın ev sahibliyi etdiyi oyunlarda əldə olunan qalibiyyətlər ölkəmiz üçün xüsusi önəm daşıyır. İdmançılarımız xalça və su üzərində, tatamidə, müxtəlif arenalarda öz bacarıqlarını nümayiş etdirərək medallar qazanırlar. Bu, gənc nəslin gücünü və potensialını göstərir. Oyunlar boyunca Azərbaycan idmançıları uğurlar əldə edir, üçrəngli bayrağımızı yüksəklərə qaldırır. Uğurlarımız həm bizə qürur bəxş edir, həm də ölkəmizin idman tarixində yeni səhifələr açır.

III MDB Oyunları dünyaya göstərir ki, Azərbaycan beynəlxalq idman ailəsinin güclü və etibarlı üzvüdür. Buraya gələn hər bir qonaq Azərbaycanın qədim şəhərlərinin gözəlliyini görür, insanların mehribanlığının və qonaqpərvərliyinin şahidi olur, ölkəmizin inkişafına heyran qalır.

Oyunlar informasiya və ictimai diplomatiya müstəvisində mühüm hadisələrə yol açır. Bu çərçivədə təşkil edilən mediaturlar xüsusi əhəmiyyət daşıyır. Oktyabrın 2-də mediatur çərçivəsində 60-dan çox yerli və xarici media nümayəndəsinin Şuşa və Xankəndiyə səfəri baş tutub. Mediaturun ilk ünvanı Şuşa şəhəri, Azərbaycanın mədəniyyət paytaxtı idi. Jurnalistlər Mərkəzi meydan, Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı, Qala qapıları, Yuxarı Gövhər Ağa məscidi və Cıdır düzü kimi tarixi məkanları ziyarət ediblər. Burada onlara şəhərin əsrlər boyu daşıdığı mədəni dəyərlər barədə məlumat verilib. İkinci səfər Xankəndiyə olub. Media nümayəndələri burada oyunların keçirildiyi Xankəndi şəhər stadionuna baş çəkərək kamandan oxatma yarışlarını izləyiblər.

Beləliklə, mediatur həm Qarabağın bərpasının, həm də Azərbaycanın bölgədə yaratdığı yeni təhlükəsizlik və inkişaf mühitinin nümayişi oldu. Xarici jurnalistlərin gördükləri mənzərə onların oxucu, tamaşaçı, dinləyici və izləyicilərinə ötürdükləri materiallarda daha geniş şəkildə əksini tapacaq. İdman vasitəsilə qurulan körpülərin gələcəkdə daha böyük əməkdaşlıqlara zəmin yaradacağı şübhəsizdir.

Beləliklə, III MDB Oyunlarının Azərbaycanda keçirilməsi özü bir tarixdir, deyə bilərik. Bu tarix Gəncənin idman arenalarında, Mingəçevirin suda yarış meydanlarında, Qəbələnin dağ ətəklərində, Şəkinin qədim küçələrində, Göygölün mavi sularında, Yevlaxın meydanlarında və Qarabağın ürəyi Xankəndidə yazılır. Azərbaycan bütün dünyaya göstərir ki, idman siyasət qədər gücə malikdir, insanları bir araya gətirir, qəlbləri birləşdirir. Bu oyunlar hər birimizə bir daha xatırladır ki, qələbə həmrəylikdə, bir-birinə olan dəstəkdədir.

Azərbaycanın ilk dəfə ev sahibliyi etdiyi III MDB Oyunları həm idman, həm də milli mənəviyyat baxımından misilsiz hadisə kimi yaddaşlarda birdəfəlik qalacaq və gələcəkdə daha böyük uğurlara vəsilə olacaq.

***Nəzrin ELDARQIZI***
***XQ***



# Naxçıvan sinerjisi: müstəqil dövlətçilik və Türk birliyi

## Müasir tariximizin önəmli səhifəsi

Azərbaycanın müstəqil dövlətçiliyini düşünən hər kəs üçün 2009-cu il məlum Naxçıvan Bəyannaməsinin özəl yeri vardır. O tarix həm yaşantıdır, həm də düşünmək üçün qaynaqdır. Azərbaycan Respublikası 2009-cu il Bəyannaməsinə qədər möhtəşəm ideya və dövlət quruculuğu transformasiyasını yaşadı. “Dövlətçiliyin Naxçıvan sinerjisi” adlandırdığımız quruculuqda enerji fokuslanması adi hadisə deyildir. Onun nəzəri-politoloji dərki hələ davam etməlidir. Müstəqil dövlətçilik üçün bu, çox vacibdir. Onun üç cəhətini qısa vurğulamağa ehtiyac vardır.

Birincisi, keçən əsrin 90-cı illərində həm ideya, həm də reallaşma kontekstlərində Naxçıvan mühitinin rolu çox əhəmiyyətli idi. Sərhəd dirəkləri orada söküldü və Azərbaycanın siyasi, ideya və məqsəd birliyi mesajı verildi. Ulu öndər Naxçıvana getməklə müstəqil Azərbaycanın müasir şərtlər daxilində quruculuq prosesini birbaşa praktikada başlatdı. Təbii ki, həmin dönəmdə Azərbaycanın bütün bölgələrində olan coşqunu kimsə gözardı edə bilməz. Lakin siyasi hadisə olaraq müstəqil dövləti qurmağın ideya və ideoloji nəbzi məhz Naxçıvanda Heydər Əliyevin və demokratik qüvvələrin fəaliyyəti ilə vururdu.

İkincisi, həmin dönəmdə qlobal və regional miqyaslarda özünü göstərən geosiyasi dinamika və son 200 ildə Azərbaycana qarşı olan təxribatların fonunda aydın idi ki, müstəqillik davasının davamlı olması və konkret müsbət nəticə verməsi üçün dövlət quruculuğunda hansısa yeni ideya transformasiyası olmalı, bu istiqamətdə strateji hədəf dəyişməlidir. Bizim XXI əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin acı taleyi kimi təcrübəmiz vardı. Ondan məntiqi və praktiki faydası olan ideya nəticəsini, quruculuq strategiyası kursunun müəyyən olunması qənaətini almalı idik. Məhz bu aspektdə Ulu öndərin Naxçıvanda yeni müstəqil dövlət quruculuğu strategiyasının sinerjisini yaratmasını anlamaq gərəkdir!

Üçüncüsü, təcrübə göstərdi ki, Heydər Əliyevin həmin xaotik dönəmdə məharətlə türk birliyi ideyasını müstəqil dövlət quruculuğu strategiyasına daxil etmək istiqamətində fəaliyyəti möhtəşəm uğur imiş! Ümumiyyətlə, türk dövlətçiliyi tarixində başqa kimsə türk birliyi məsələsini müstəqilliklə qardaşlığın ideya sintezi kimi qoya bilməmişdir. Gözəl ideyalar, niyyətlər, yanaşmalar, təbii ki, türk dövlətçilik tarixində mövcud olmuşdur. Ancaq ilk dəfə idi ki, demək olar, külə dönmüş və ərazisi parçalanmış bir türk ölkəsinin lideri strateji faydası möhtəşəm olacaq və reallaşa biləcək konsepsiya irəli sürürdü.

Onun yığcam mənası belə idi: azərbaycanlılar azərbaycançı, türkiyəlilər türkiyəçi, Mərkəzi Asiyadakı qardaşlarımızın hər biri özdövlətçi olmaq əsasında türk birliyini yarada bilərlər. Elə bir birlik ki, müstəqil dövləti gücləndirmək bazasında bütövlükdə türk dünyasını bir araya gətirmək mümkün olardı. Elə bir birlik ki, təməlində türk etnik-mədəni identikliyi dayanmaqla məhdud etnik-mədəni sərhədlərə qapılmasın – ideyanı qəbul edən hər kəsə qapısı açıq olsun.

Elə bir siyasi təşkilat qurmaq ki, Naxçıvanda formalaşmış güclü müstəqil türk dövləti qurmağı hər bir türk dövlətinə proyeksiya etmək mümkün olsun. Bunun üçün həmin dövlət quruculuğu sinerjisi milli, sosial, hüquqi, mədəni, siyasi, geosiyasi, təhlükəsizlik və digər sərhədləri aşaraq öncə türk dünyasında və sonrakı mərhələdə qlobal miqyasda birləşdirici funksiyasını yerinə yetirə bilsin!

Nəticəsi nələr oldu? İndi hər kəs bu prosesin içində yaşayır. Lakin onun şüuri dərk edilməsi çox vacibdir!

## 2009-cu ilin motivasiya və qurucu gücü

Heydər Əliyev türk dünyası istiqamətində prosesləri real güclü dövlət qurmaq kursu çərçivəsində səbir və yüksək qətiyyətlə aparırdı. Bunu qarşılaşdığı hər bir əngəli (süni və ya təbii) böyük ustalıqla aşması təsdiq edir. Heç bir maneə Heydər Əliyevə ən azı iki istiqamətdə ideyasını reallaşdırmaqda əngəl ola bilmədi.

Birincisi, Azərbaycanda güclü, demokratik və multikultural mahiyyətli hüquqi türk dövləti qurmaq. Prezident İlham Əliyev bu məqamı diplomatik məharətlə belə ifadə etmişdir: biz çox şeyləri gördük, hərə bir tərəfə çəkməyə çalışdı, müxtəlif təkliflər və təzyiqlər oldu. Ancaq biz əmin olduq ki, bizim bir ailəmiz vardır – türk ailəsi! Bizim bundan başqa ailəmiz yoxdur! Bizi heç yerdə gözləmirlər!

Yəni siyasi-diplomatik manevrlər öz yerində, şirin və aldadıcı vədlərə də Azərbaycan dövlətçilik tarixinin “gözü doymuşdur”. Heydər Əliyev “bir millət, iki dövlət” kəlamı ilə hər şeyi müəyyən etmişdi. 1993-2003-cü illər müddətində Azərbaycan Respublikası həm güclü müstəqil dövlət quruculuğu prosesini kəsintisiz apardı, həm də türk dünyasının siyasi və geosiyasi birliyinin baza “sahəsini” səbir və zəka ilə formalaşdırdı.

Bu proseslərin qarşılıqlı münasibətlərində vurğulaya biləcəyimiz çox məqamlar vardır – “Əsrin müqaviləsi”, sui-qəsdlərin neytrallaşdırılması, enerji strategiyasının dönmədən həyata keçirilməsi, ərazi bütövlüyünün bərpasının milli ideya səviyyəsində müəyyən edilməsi, mehriban qonşuluq siyasətinin Azərbaycan nümunəsinin hazırlanması, balanslı xarici siyasətin məzmunlaşdırılması, yeni Konstitusiyanın qəbul edilməsi, islahatların sistemli aparılması, ordunun gücləndirilməsi, müdafiə sisteminin yeniləşməsi, diplomatik fəallığın yeni səviyyəyə yüksəldilməsi, yeni əməkdaşlıq platformaları və layihələrin həyata keçirilməsi...

Bu proseslər 2009-cu il Naxçıvan Bəyannaməsinin tarixi və siyasi olay kimi meydana gəlməsinə çox güclü təkanlar verdi. Türk dövlətlərinin birliyinin məhz Naxçıvanda yeni siyasi-hüquqi forma alması bütün bunlara görə təsadüfi deyildi. Əksinə, qanunauyğunluq idi! Və həm də böyük siyasi qətiyyət, cəsarət və seçilən yoldan zərrə qədər də yayınmamağın nümayişi idi!

Naxçıvan sinerjisi bu kimi fundamental və əhatəli enerji qaynağına malikdir! Enerjilərin mükəmməl akkumulyasiyası, toparlanması və bir strateji məqsəd istiqamətində reallaşma əzminin təsdiqi idi! Burada bir rəmzi vurğulamaq gərəkdir.

## Üfüqdəki “Azərbaycan hilalı”!

“Hilal” ərəbcədə “yeni doğulmuş Ay” deməkdir. Bu anlamı bir az improvizasiya edirik – Azərbaycan müasir türk dövlətçilik tarixində üfüqdə doğulmuş, bədirlənmiş Ay və ya Günəşdir! 2009-cu il Naxçıvan Bəyannaməsi bu “hilal”ın şəfəqləridir! İndi onun mehində Türk Dövlətləri Təşkilatının (TDT) bayrağı nazlı-nazlı dalğalanır, istisində milyonlarla türk insanı gələcəyi qurur və bütün dünyaya şəfqət yayır! Əməkdaşlığın, təhlükəsizliyin və mehriban qonşuluğun şəfqətini paylaşır!

Müasir dünyada “Azərbaycan Hilalı” artıq milli miqyasdan regional səviyyəyə və oradan da regionlararası miqyasa özünün birləşdirici enerjisini yaymaqdadır. Onun rəmzi əlaməti kimi Azərbaycan Prezidentinin çox müxtəlif səfərlərində qarşılanması, təkliflərin edilməsi və yüksək hörmət nümayişini göstərmək olar. Prezident İlham Əliyevin hər çıxışı üfüqdəki Azərbaycan hilalının güclü enerjisi və quruculuq potensialının təmsilidir. Bu prizmada ayrıca türk dünyası birliyi məsələsinə də baxmaq olar.

## Naxçıvan meydanından Qəbələ Zirvəsinə

Türk dövlətləri yenə də bir araya gəlirlər. TDT-nin indi XII Zirvə toplantısı baş tutur. Bu tarixdən də Naxçıvan Zirvəsi möhtəşəm görünür. Bu yolun Azərbaycandakı “marşrutu” - Naxçıvan – Bakı – Şuşa- Qəbələ! Yəni Naxçıvan sinerjisi bütün Azərbaycanda türk birliyinin ruhunu, ideyasını və quruculuq gücünü “əsdirir”! Bu dalğada Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Macarıstan, Şimali Kipr Türk Cümhuriyyəti bir ailənin mehriban üzvləri kimi görünürlər. Azərbaycanın Qəbələ şəhəri indi həmin sinerjinin yeni toparlanma məkanı olur! Bu anlamda Azərbaycanın hər bir şəhəri “Azərbaycan Hilalı”nın şəfəqləridir! Azərbaycan birlik və qardaşlıq ideyası ilə nurlanmış və onu bütün türk dünyasına yaymışdır!

Doğrudan da, indi türk dövlətləri milli, regional və qlobal məsələləri müzakirə edib, konkret fəaliyyət yolu müəyyən edirlər. Kimsə buna əngəl ola bilmir. Kimsə bunu kiçik hadisə saymır. Əksinə, müşahidələr göstərir ki, türklər bir araya gələn kimi çoxlarını psixoloji titrətmə tutur. Müxtəlif xəstə epileptik reaksiyalar verir, türk toplumlarını bir-birinə qarşı qoymağa çalışırlar.

Hətta alternativ ideyalarla türk dövlətlərini çaşdırmağa çalışırlar. Xüsusilə, Azərbaycan-Türkiyə strateji müttəfiqliyinə zərər vurmağa cəhdlər edirlər. Azərbaycana münasibətdə hansısa dövləti Türkiyədən daha əhəmiyyətli kimi qələmə verməyə çalışırlar. Azərbaycanlılar demişkən: “Dəyirman öz işindədir, çax-çax baş ağrıdır”!

Anlayırıq ki, hələ uzun müddət türk dövlətlərinin birliyinə qarşı təxribatlar çox olacaq. Zatən Azərbaycan Prezidenti bunun anonsunu Andiçmə mərasimindəki nitqi zamanı vermişdi. Azərbaycan Respublikasının “tərpətdiyi çox daşlar” var. Lakin hər bir halda TDT getdikcə daha da güclənəcək və geniş geosiyasi məkanda qarşılıqlı faydalar verən siyasətini davam etdirəcək.

Türk dünyası ilahi ədalətdən yaranmışdır və nizamı planetə yaymaq kimi tarixi missiyası vardır. Naxçıvan-Bakı-Şuşa-Qəbələ marşrutu bu yolda artıq tarixi dəyəri olan məkanlardır! Ümumiyyətlə, harda azərbaycanlı, türkiyəli, qazax, özbək, qırğız, türkmən, macar varsa, ora Türk dünyasının qəlbidir!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Mirzoyanın iki “əmma”sı

*Erməni XİN rəhbəri yaxşı danışsa da, düz demir*

**Prezident İlham Əliyev dəfələrlə Zəngəzur dəhlizi kontekstində regional kommunikasiyaların açılmasının faydaları barədə söz açıb və geniş izahlar verib. Amma Ermənistan illərlə bununla razılaşmayıb. Əsas bu olub ki, ölkənin ərazi bütövlüyü və suverenliyi toxunulmazdır.**

İndi Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan “TVP World” telekanalına müsahibəsində Azərbaycan dövlətinin regional kommunikasiyaların açılmasının faydalarına dair baxışını təkrarlayır və məsələni avqustun 8-də Vaşinqtonda əldə edilmiş razılaşmanın əhəmiyyəti kimi vurğulayır. Ona görə diplomatın “Tramp marşrutu” kontekstində dilə gətirdiyi fikirləri müsbət qiymətləndiririk. Ancaq sualımız var: Erməni tərəfi nə üçün reallığı anlamaqda gecikib? Əlbəttə, təəccüblənmirik, çünki ölkə otuz ildən çoxdur gecikir. Son 7 ilin gecikməsi isə indiki iqtidarın “fərasətidir”. Elə Mirzoyanın “fərasətinin” də. Hərçənd, erməni iqtidarının Rusiya adlı başağrısından da xəbərdarıq…

Mirzoyanın müsahibəsində başqa məqamlar da var ki, onları prinsipcə mənfi hal kimi qələmə vermək istəməzdik. Amma bəzi məsələlərə diqqət yetirməliyik. Diqqət yetirməli və bildirməliyik ki, Ermənistan bir otuz il də gecikməsin. İstəyirik ki, rəsmi İrəvan tutduğu yoldan uzaq düşməsin. O yol ki, Mirzoyan onu bütövlükdə regiona fayda gətirəcək sülh yolu kimi qiymətləndirdi.

Əlqərəz, ilk “əmma” budur ki, A.Mirzoyan paraflanmış sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyümüz konstitusiya dəyişikliyi məsələsini ön şərt kimi qiymətləndirir. Nəticədə Azərbaycanın, bir növ, sülhdə maraqlı olmayan tərəf obrazı formalaşır. Elə təsəvvür yaranır ki, sanki rəsmi Bakı Ermənistanın əsas qanununun ölkənin işğalçı mahiyyət daşıyan İstiqlaliyyət Bəyannaməsinə istinadının aradan qalxması tələbini Vaşinqton paraflanmasından sonra irəli sürüb. Halbuki, bu, əvvəlki mərhələnin söhbətidir. Yeri gəlmişkən, Azərbaycanın digər şərti ATƏT-in özündə Qarabağ münaqişəsi məntiqini saxlayan Minsk qrupunun ləğvi idi ki, buna da erməni tərəfi zaman-zaman qarşı çıxırdı, amma ABŞ-da durumla razılaşdı. Rəsmi Bakı eyni pozitiv münasibəti konstitusiya dəyişikliyi məsələsində də gözləyir.

Mirzoyan isə müsahibəsində gözləntimizi heçə endirir və deyir ki, “biz bu gündəliyi bölüşmürük”. Üstəlik, onun daha sonra dedikləri də müəyyən qədər ön şərt təsiri bağışlayır. Erməni XİN rəhbəri sülh müqaviləsinin imzalanmasından əvvəl bəzi proseslərin getməsinin vacibliyindən danışır. Məsələn, o, tərəflərin bir-birilərinə daha tolerant yanaşmalarından və beynəlxalq platformalarda əməkdaşlıq perspektivlərinin müzakirəsindən danışır.

Əlbəttə, XİN rəhbərinin qeyd etdikləri tərəflər arasında fikir mübadiləsi predmeti ola bilər. Amma diplomat sırf sülh müqaviləsi kontekstində onların müzakirəsinin daha əvvəl aparılmalı olduğunu deməklə, mahiyyətdən yayınırmış kimi görünür. Mahiyyəti isə vurğuladıq.

Yaxşı, hər ehtimala Mirzoyan ilə razılaşaq və mövzunu onun dediklərinin müstəvisində görək. O zaman obyektiv və prinsipial sual yaranır: bir ölkənin konstitusiyasının söykəndiyi sənəddə Azərbaycana qarşı ərazi iddiası motivi varsa, tolerantlığı necə öyrənək, nə cür beynəlxalq əməkdaşlıq həyata keçirək?

Aydındır ki, addımı Ermənistan atmalıdır. Prezident İlham Əliyevin təbirincə desək, ev tapşırığını yerinə yetirməlidir. Hər halda, qəsbkarlıq edən, işğalı otuz ilədək sürdürən biz yox, Ermənistan olub. Üstəlik, 44 günlük müharibədən sonra rəsmi İrəvanın Qarabağ avantürasını saxlamaq istiqamətindəki gedişlərini də görmüşük. Deməli, Ermənistan addımını etimad qazanmaq üçün atmalıdır.

Bəli, indilik etimad qazanmağın ən başlıca yolu konstitusiya dəyişikliyidir. Bu, sülh müqaviləsinin fundamentallığı üçündür. Ölkəmiz sənəddə hansısa risk təmayülünün saxlanmasını istəmir. Nəzərə alaq ki, riskli, təminatsız sülh Cənubi Qafqazda böyük siyasi və iqtisadi maraqları olan beynəlxalq aləmə də lazım deyil.



Güman edirik, durumu anlamaq çətinlik törətməməlidir. Amma…

Keçək Mirzoyanın müsahibəsindəki ikinci “əmma”ya. Sülhün artıq təmin olunduğunu deyən erməni XİN rəhbəri onun qorunması üçün hər iki tərəfdən daimi qayğı və gündəlik səylərin tələb oluduğunu vurğulamaqda haqlıdır. Nazirin, hətta, mövcud kontekstdə ölkələrin aqressiv ritorikasının prosesə heç bir şəkildə töhfə vermədiyini bildirməsində də hansısa problem görmürük. Hərçənd, Mirzoyan müqayisə apara bilər - Azərbaycanda Ermənistana qarşı aqressiv ritorika çoxdur, yoxsa Ermənistanda Azərbaycana qarşı?



Məsələ ondadır ki, Ermənistanda bütöv bir revanşist və şovinist kəsim var. O kəsim ki, rəsmi İrəvan zaman-zaman onun siyasi mükaliмələrini, dolayısıyla, özünün xarici siyasət prioritetinə çevirib. Ən başlıcası, həmin radikal cinah indi də aktivliyini saxlayır və Paşinyan administrasiyası buna qarşılıq heç nə etmir və ya edə bilmir. Habelə, günü bu gün də Ermənistanda müxtəlif səviyyələrdə Azərbaycana qarşı ərazi iddiaları səslənir.

Digər tərəfdən, Mirzoyanın haqqında söz açdığı aqressiv ritorikanın qorunmasında bilavasitə onun təmsil olunduğu hakimiyyət komandasının rolu az deyil. Hər halda, 2018-ci ildə iqtidara gəlib bir il sonra Azərbaycan ərazisi Xankəndidə “Qarabağ Ermənistandır, nöqtə” bəyanatını səsləndirən baş nazir Nikol Paşinyan olmuşdu. Yəni aqressiv ritorikaya ən böyük “töhfəni” məhz hazırkı erməni iqtidarı vermişdi. Nəticədə qanlı müharibə olmuş, insan tələfatı və faciələr yaşanmışdı. Vacib məqam həm də budur: 2020-ci ilədək, müəyyən mənada, yumşalmış ziddiyyətlər savaşdan sonra yeni məcraya qədəm qoydu və özündə keçmişin ağrılarını da birləşdirdi. Ona görə Mirzoyanın şəxsində rəsmi İrəvan prinsipial məqamları əsas götürməlidir.

Ən böyük prinsipial məqam sülh müqaviləsinin imzalanmasıdır. Aqressiv ritorikanın aradan qalxmasını gözləmək vaxt itkisidir. Bu ritorika tərəflərin, yəni xalqların müştərək iş görəcəkləri, eyni iqtisadi məkanda və sistemdə təmsil olunacaqları, gəlir götürüb rifah içində yaşayacaqları təqdirdə yumşalacaq və tədricən sıradan çıxacaq. Sadəcə zaman lazımdır. Zaman lazım olsa da, amma vaxt yoxdur. Obrazlı desək, sülh dəmirini isti-isti döymək lazımdır ki, bərkiməsin.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsi artır

## *TAP "qoca qitə"yə 50 milyard kubmetrdən çox qaz çatdırıb*

**Trans-Adriatik boru kəməri Avropanın qaz təchizatında strateji rol oynayır. 878 kilometr uzunluğunda olan TAP 2020-ci ilin noyabrında istifadəyə verilib və Xəzər regionundan gələn təbii qazı TANAP-la birləşdirərək Yunanıstan, Albaniya və Adriatik dənizi üzərindən İtaliyanın enerji şəbəkəsinə daşıyır. Son 5 ildə bu magistral vasitəsilə Avropaya 50 milyard kubmetrdən çox təbii qaz çatdırılıb. Bu isə Avropanın ənənəvi qaz təchizatçılarından asılılığını azaltmaq və enerji təhlükəsizliyini gücləndirmək baxımından mühüm nailiyyətdir.**

Xüsusilə, Azərbaycan – İtaliya iqtisadi tərəfdaşlığının müsbət dinamikası nəzərə alınaraq hazırda TAP çərçivəsində əhəmiyyətli inkişaf mövcuddur. Belə ki, Trans-Adriatik Qaz Kəmərinin (TAP) operatoru olan "TAP AG" şirkəti kəmərin ötürmə qabiliyyətinin genişləndirilməsi üçün 2023-cü il üzrə məcburi bazar testinə başlayıb. "TAP AG"nin idarəedici direktoru Luka Skiepatti İtaliya Enerji Sammitində çıxışı zamanı bildirib ki, 2023-cü il üzrə məcburi bazar testi mərhələsi başlayır, eyni zamanda, 2025-ci il üzrə məcburi olmayan bazar testi mərhələsi də açıqdır. Proseslər bazara əlavə güc tələb etməyə imkan verir ki, bu da qaz kəmərinin daha da genişləndirilməsinə yol aça bilər. Qeyd edək ki, 5 ildən az müddətdə TAP proaktiv kommersiya təklifi, etibarlı infrastruktur və əməliyyatlar, həmçinin Xəzər dənizindən sabit qaz tədarükü sayəsində Avropaya 50 milyard kubmetrdən çox qaz çatdırıb. Hazırda TAP-a 46 qeydiyyatdan keçmiş istifadəçi etibar edir.

Xatırladaq ki, bu yaxınlarda İtaliya Prezidenti Sercio Mattarella ölkəmizə səfəri çərçivəsində dövlət başçımız İlham Əliyevlə keçirilən mətbuata birgə bəyanat zamanı önəmli mesajlar verdi. Məlumdur ki, Azərbaycan iqtisadi sahədə İtaliya ilə əsas tərəfdaşdır. Bununla yanaşı, TAP-ın əsas seqmenti kimi İtaliyanın Avropadakı tərəfdaşlarımız arasında xüsusi rolu var.

TAP-ın istismara verildiyi 2020-ci il dekabrın 31-də Azərbaycan qazının Avropa bazarına daxil olması ölkəmizin enerji tarixində yeni bir mərhələnin başlanğıcı kimi yadda qaldı. Hazırda isə TAP layihəsində növbəti mühüm mərhələnin yekunlaşması gözlənilir. Genişləndirmənin birinci mərhələsi çərçivəsində kəmərin ötürmə qabiliyyəti 2026-cı ildən etibarən ildə əlavə 1,2 milyard kubmetr artırılacaq. Bu artımın 1 milyard kubmetri İtaliyaya, 200 milyon kubmetri isə Albaniyaya yönəldiləcək. Layihənin dəyəri, təxminən, 132 milyon avro təşkil edir və bu mərhələ tamamilə TAP-ın öz vəsaiti hesabına həyata keçirilir. Əsas işlər Kipoydakı kompressor stansiyasında aparılır – burada yeni aqreqatların quraşdırılması və avadanlıqların modernləşdirilməsi nəzərdə tutulur. Bu yeniliklər təkcə texniki gücü artırmaqla qalmır, həm də Avropanın enerji təchizatında dayanıqlılıq və çeviklik yaradır.

Layihənin strateji hədəfi yalnız qazın nəqli ilə məhdudlaşmır. Şirkət orta və uzunmüddətli perspektivdə əməliyyatların səmərəliliyini artırmaq, bazar üçün yeni enerji məhsulları hazırlamaq və innovativ texnologiyalar tətbiq etməklə enerji keçidini dəstəkləmək niyyətindədir. Bu yanaşma TAP-ı təkcə bu günün deyil, həm də gələcəyin enerji arteriyasına çevirir.

Azərbaycan və Avropa İttifaqı arasında əldə olunmuş razılaşmaya əsasən, 2027-ci ilə qədər ölkəmiz Avropaya qaz ixracını ildə ən azı 16 milyard kubmetrə çatdırmağı planlaşdırır. Bu hədəf Azərbaycanın enerji diplomatiyasının uğurlu nəticəsi, həm də regionda enerji balansının sabitliyinə yönəlmiş strateji addımdır. Bu gün TAP vasitəsilə Avropaya axan hər kubmetr qaz təkcə Azərbaycan iqtisadiyyatına gəlir gətirmir, eyni zamanda, Avropa qitəsinin enerji sabitliyini təmin edən, qitələrarası əməkdaşlığın simvoluna çevrilən bir körpü rolunu oynayır.

TAP layihəsi göstərdi ki, enerji siyasəti yalnız resursların ixracı deyil, həm də etimadın ixracıdır. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən bu nəhəng infrastruktur layihəsi Xəzərin sahilindən Avropanın mərkəzinə uzanan dayanıqlılıq, əməkdaşlıq və inkişaf körpüsüdür.

Avropa üçün bu, enerji sabitliyinin, Azərbaycan üçün isə milli gücün təntənəsidir. TAP – sadəcə boru kəməri deyil, Azərbaycanın imzasını daşıyan strateji bir mesajdır: biz enerji ilə bərabər sabitlik ixrac edirik.

**Ekspert rəyi**



**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**

**İtaliya Azərbaycanın vacib tərəfdaşlarından hesab olunur. Ötən il iki ölkə arasında ticarət dövriyyəsi 11 milyard 390 milyon dollar olub. Azərbaycan və İtaliya arasında ən böyük ticarət dövriyyəsi isə 2022-ci ildə qeydə alınıb: 18 milyard 122 milyon dollar.**

2024-cü ildə Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin 24 faizi İtaliyanın payına düşüb. Azərbaycan xüsusən də enerji məhsullarını Avropa bazarına İtaliya vasitəsilə ixrac edir. Bu baxımdan təbii ki, Azərbaycanla Avropa İttifaqı arasındakı ticarət dövriyyəsinin əhəmiyyətli hissəsi İtaliyanın payına düşür. Cənub Qaz Dəhlizi çərçivəsində Azərbaycanın İtaliya bazarına mavi qaz nəql etməsi ticarət dövriyyəsinin həcminə birbaşa təsir göstərib. Belə ki, Azərbaycanın Avropaya qaz ixracatı 2024-cü ildə 8,6 faiz artaraq 12,9 milyard kubmetrə çatıb. İkinci mərhələdə isə bu göstərici 20 milyard kubmetr olacaq. Nəql ediləcək mavi qazın əhəmiyyətli hissəsi məhz İtaliya bazarına ixrac edilir ki, bu da təbii ki, ölkələr arasındakı iqtisadi münasibətlərin növbəti dövrdə də inkişaf edəcəyindən xəbər verir.

İtaliya investisiyasının Azərbaycanın qeyri-neft sektoruna və eləcə də işğaldan azad olunan ərazilərimizə cəlb edilməsi də prioritet olaraq qalmaqdadır.

***Nurlan ABDALOV***
***XQ***



# "Şəfəq–Asiman" ölkəmizə milyardlar qazandıracaq

## *Yatağın təbii qaz potensialı 500 milyard kubmetr, kondensatı isə 65 milyon tondur*

**Türkiyənin TPAO şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şəfəq-Asiman" dəniz blokuna dair hasilatın pay bölgüsü sazişinə çox böyük ümidlər bəsləyir. Bunu şirkətin idarə heyətinin sədri və baş icraçı direktoru Ahmet Türkoğlu bildirib.**

Rəhbərlik etdiyi qurumun Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə çox yaxşı əməkdaşlıq etdiyini diqqətə çatdıran Ahmet Türkoğlu Xəzər dənizindəki "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun və "Şahdəniz" yatağında uğurlu işlərin görüldüyünü vurğulayıb. O, bu ilin iyun ayında Bakı Enerji Həftəsi çərçivəsində BP, SOCAR və TPAO arasında rəhbəri olduğu şirkətin Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şəfəq-Asiman" dəniz blokuna dair hasilatın pay bölgüsü sazişini xatırladaraq bunun əməkdaşlığın möhkəmləndirilməsi baxımından faydalı olacağını bildirib.

A.Türkoğlu, həmçinin SOCAR və TPAO arasında Azərbaycan və Türkiyədə, eləcə də digər ölkələrdə birgə layihələrdə işlər görmək üçün görüşlər keçirdiklərini bildirib. TPAO-nun Ceyhanda inşa etmək istədiyi neft emalı zavodu məsələsinə toxunan şirkət rəhbəri bildirib ki, bu liman bir çox qaz və neft boru kəmərlərinin bir araya gəldiyi strateji bir nöqtədir: "Bizim orada neft emalı zavodu inşa etmək üçün torpaq sahəmiz var. Ancaq neft emalı zavodunun inşası uzunmüddətli bir məsələdir. Təbii ki, bu çox böyük zaman və yatırım aparır. İnanırıq ki, bu məsələ də zaman yetişdikdə gerçəkləşəcək".

Xatırladaq ki, bu ilin iyun ayında Bakı Enerji Həftəsi çərçivəsində BP, SOCAR və TPAO arasında Türkiyə şirkətinin Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şəfəq-Asiman" dəniz blokuna dair hasilatın pay bölgüsü sazişinə qoşulmasına imkan verən bir neçə saziş imzalanıb. Həmin razılaşma layihənin daha da inkişaf etdirilməsi ilə bağlı ən uyğun variantın müəyyənləşdirilməsi üçün blokun bundan sonrakı qiymətləndirilməsini sürətləndirməyə kömək edəcək. Bu məqsədlə "Aşağı Suraxanı" layına bir quyunun qazılması da daxil olmaqla əlavə qiymətləndirmə işləri həyata keçiriləcək. Bu fəaliyyətlərə imkan yaratmaq üçün hasilatın pay bölgüsü sazişinin kəşfiyyat dövrü uzadılacaq. Razılaşma üzrə işlərin 2025-ci ilin üçüncü rübünün sonunadək başa çatacağı gözlənilir.

Razılaşma yekunlaşdıqdan sonra TPAO "Şəfəq-Asiman" dəniz blokuna dair hasilatın pay bölgüsü sazişində, ümumilikdə, 30 faiz iştirak payına sahib olacaq. Bunun da 15 faizi BP-dən, 15 faizi isə SOCAR-dan alınacaq. Hazırda isə BP və SOCAR-ın hər biri hasilatın pay bölgüsü sazişində 50 faiz iştirak payına malikdir. "Şəfəq-Asiman" dəniz blokuna dair sazişin kəşfiyyat dövrü üçün operatoru isə BP olacaq.

Qeyd edək ki, "Şəfəq-Asiman" bloku Bakıdan, təxminən, 125 kilometr cənub-şərqdə, 1100 kvadratkilometr ərazidə yerləşir. Burada dənizin dərinliyi 650–800 metr, karbohidrogen laylarının dərinliyi isə 7 min metrə çatır. Bu göstəricilər isə layihəni Xəzərdəki ən mürəkkəb və dərin qazma əməliyyatlarından biri kimi fərqləndirir. Azərbaycanın enerji xəritəsində strateji önəm daşıyan "Şəfəq-Asiman" Xəzərin dərin sularında yerləşən ən perspektivli qaz-kondensat yataqlarından biridir. Dərin dəniz texnologiyalarının tətbiqi, beynəlxalq əməkdaşlıq və zəngin ehtiyatlar bu yatağı ölkənin enerji gələcəyinin əsas sütunlarından birinə çevirib.

Yeri gəlmişkən, qaz-kondensat ehtiyatlarının zənginliyi ilə seçilən "Şəfəq-Asiman" dəniz blokunun işlənməsi üzrə hasilatın pay bölgüsü sazişi 2010-cu ildə SOCAR və BP arasında imzalanıb. Hər iki tərəf layihədə 50 faizlik iştirak payına malikdir. Saziş çərçivəsində ilk kəşfiyyat quyusunun qazılmasına 2020-ci ilin yanvarında başlanılıb və 7 min 189 metr dərinlikdə "Fasilə" layına çatmaqla uğurla tamamlanıb. Bu əməliyyat Azərbaycanın dərin dəniz qazma təcrübəsində yeni mərhələ açıb.

"Şəfəq-Asiman" dəniz blokunun işlənməyə cəlb edilməsi milli iqtisadiyyatımıza böyük töhfələr verəcək. Belə ki, BP və SOCAR mütəxəssislərinin qiymətləndirməsinə əsasən, yataqda 500 milyard kubmetr təbii qaz və 65 milyon ton kondensat ehtiyatları mövcuddur. Bu göstəricilər isə layihəni regionun ən iri qaz kəşflərindən birinə çevirir.

Hazırda yataqda növbəti tədqiqat və qiymətləndirmə işləri aparılır. Bununla yanaşı, layihə çərçivəsində yüzlərlə yerli mütəxəssis beynəlxalq standartlara uyğun təlimlərə cəlb olunub. Bu, yerli kadr potensialının artmasına, xidmət və logistika sektorlarında isə yeni iş yerlərinin açılmasına səbəb olub.

Gələcəkdə hasilatın başlanması ilə Azərbaycan daha dayanıqlı enerji balansına sahib olacaq. Belə ki, yatağın tam işlənməsi nəticəsində ölkəmiz təkcə daxili enerji təminatını möhkəmləndirməyəcək, həm də Avropaya qaz ixracının sabitliyini təmin edən əsas oyunçulardan biri kimi mövqeyini gücləndirəcək. Uzunmüddətli perspektivdə isə "Şəfəq-Asiman" ölkənin ÜDM-də enerji sektorunun payını artıracaq, dövlət büdcəsinə milyardlarla dollar gəlir gətirəcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# İqtisadi qüdrətimiz "Fitch" ekranında

**Yaxın illərdə qeyri-xammal sektoru və Orta Dəhliz Azərbaycanda ümumi daxili məhsul istehsalının artımında əsas hərəkətverici qüvvə kimi çıxış edəcək. Bu barədə beynəlxalq reytinq agentliyi "Fitch Rating"in "Sovereigns and Supranationals" bölməsinin direktoru Arvind Ramakşrinan məlumat verib.**




O deyib ki, "Fitch" 2026-cı ildə Azərbaycanda real ÜDM artımını 2,5 faiz səviyyəsində proqnozlaşdırır ki, bu da ölkənin orta müddətli artım potensialına yaxındır. Artımın, ilk növbədə, qeyri-xammal sektorunun inkişafı və dövlət investisiyaları hesabına baş verəcəyini vurğulayan bölmə direktorunun sözlərinə görə, bu zaman neft hasilatının azalmağa davam etməsinə baxmayaraq, təbii qaz istehsalı dəstəkləyici rol oynayacaq.

Azərbaycanın informasiya-kommunikasiya texnologiyaları və nəqliyyat sektorunda da yaxşı artım perspektivlərinə malik olduğunu vurğulayan qurum rəsmisi daha sonra bildirib: "Nəqliyyat sahəsində əsas dəstək amilləri genişmiqyaslı dövlət investisiyaları və Orta Dəhliz çərçivəsində tranzit əməliyyatlarıdır. Son illərdə qeyri-xammal sektorunun artımı, həmçinin Qarabağda bərpa işləri hesabına əhəmiyyətli təkan alıb. Lakin kapital xərcləri pik həddə çatdıqca onların artıma təsiri azalacaq".

Azərbaycanın "BBB-" səviyyəsində sabit proqnozla investisiya reytinqini qoruyub saxladığını diqqətə çatdıran bölmə direktoru bunu davamlı xarici balans və dövlət borcunun aşağı səviyyəsi ilə əlaqələndirib. O, həmçinin bildirib ki, Azərbaycanın dövlət maliyyəsi Dövlət Neft Fondunun və dövlət depozitlərinin əhəmiyyətli aktivləri hesabına maliyyələşmə çevikliyi və ödəmə qabiliyyəti ilə dəstəklənir.

***XQ***

# Kəlbəcərin külək elektrik stansiyası da olacaq



**Kəlbəcərdə yüksək hündürlükdə ilkin gücü 240 meqavat olacaq külək elektrik stansiyasının (KES) təməli qoyulub. Bununla da, rayonun külək potensialının ölçülməsi prosesi başlayıb.**

Hazırda burada iki küləkölçmə dirəyi işləyir və məlumat toplayır. Qısa zamanda onlara sahənin potensialını daha dəqiq qiymətləndirməyə imkan verəcək lidar sistemi də əlavə olunacaq. Layihə "Kalbajar Energy" MMC birgə müəssisəsi tərəfindən həyata keçirilir.

Xatırladaq ki, ötən il noyabrın 20-də COP29 çərçivəsində Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, "Clean Energy Invest" MMC və "Baltech Green" MMC arasında Kəlbəcər KES-in inkişafı ilə bağlı Anlaşma Memorandumu imzalanıb. Bu unikal layihə dəniz səviyyəsindən 3 min 100 metr yüksəklikdə həyata keçiriləcək və ən hündür külək elektrik stansiyası olacağı gözlənilir. "Clean Energy Invest" və "Baltech Green" layihə üçün birgə müəssisə yaradıblar. İlkin gücü 240 meqavat olacaq KES-in 2028-ci ilin əvvəlində kommersiya fəaliyyətinə başlayacağı gözlənilir. Layihə gələcəkdə 600 meqavat gücə çatmaq potensialına malikdir.

Azərbaycanın gözləntilərinə görə, 2027-ci ilə qədər ölkədə ümumi gücü təxminən 2 qiqavat olan 8 sənaye günəş və külək elektrik stansiyası tikiləcək. Layihələrə ümumi investisiyanın həcmi 2,8 milyard ABŞ dolları qiymətləndirilir və onlar xarici və yerli investisiyalar hesabına maliyyələşdiriləcək.

Bu planların həyata keçirilməsi hər il 5,3 milyard kilovat-saat "yaşıl" enerji istehsalına, elektrik şəbəkəsində bərpaolunan enerjinin payının 32,6 faizə çatdırılmasına, ildə 1,2 milyard kubmetr qaza qənaət edilməsinə, istixana qazlarının tullantılarının 2,5 milyon ton azaldılmasına imkan verəcək. 2030-cu ilə qədər ölkəmiz bərpaolunan enerjinin quraşdırılmış gücünü 6 qiqavata çatdırmaq niyyətindədir ki, bunun da 4 qiqavatının ixraca yönəldilməsi planlaşdırılır.

***XQ***

# Kulevi terminalı genişləndirilir

**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Qara dəniz sahilində yerləşən Kulevi terminalının genişləndirilməsi ilə bağlı layihə sənədlərini Gürcüstanın Ətraf Mühit və Kənd Təsərrüfatı Nazirliyinin Ekoloji Nəzarət Departamentinə təqdim edib.**



Layihədə hər birinin tutumu 20 min kubmetr olan 4 yeni silindrik polad çənin inşası nəzərdə tutulub ki, bu da terminalın yanacaq və neft məhsullarının yükləmə-boşaltma gücünü, ümumilikdə, 80 min kubmetrədək artırmağa imkan verəcək. Bundan əlavə, neft məhsullarının sistern tipli vaqonlardan effektiv boşaldılmasını təmin edən ikitərəfli dəmir yolu estakadası tikiləcək.

SOCAR Gürcüstan qanunvericiliyinə müvafiq olaraq layihə ilə yanaşı, ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında hesabat da təqdim edib. Ekoloji nəzarət departamenti sənədə baxacaq və daha sonra terminala yeni obyektlərin inşasına başlamaq üçün müvafiq icazə verəcək. Kulevi terminalının 6 rezervuar parkı var və genişləndirilmə şirkətin inkişaf strategiyasının bir hissəsidir.

Xatırladaq ki, Kulevi neft terminalı 2008-ci ildən fəaliyyət göstərir. Onun genişləndirilməsi ilə bağlı planlar bu ilin aprelində elan olunub.

***XQ***

# Vətən müharibəsi “TRT Haber” ekranında

## *Azərbaycan lideri dünyaya müqəddəs savaşımızın ədalətli və ləyaqətli olduğunu anlatdı*



**2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi ölkəmizin müasir tarixində dönüş nöqtəsi oldu. 30 ilə yaxın işğal altında saxlanılan ərazilərin azad edilməsi uğrunda aparılan bu mübarizə Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyinin qətiyyətli ifadəsi idi. Elə bu baxımdan Prezident İlham Əliyevin 2020-ci il oktyabrın 5-də Türkiyənin “TRT Haber” kanalına verdiyi müsahibə həm respublika ictimaiyyəti, həm də beynəlxalq auditoriya üçün mühüm siyasi bəyanat kimi yadda qaldı.**

Müsahibə Azərbaycanın haqq savaşının mahiyyətini, müharibənin məqsədlərini, Ermənistanın təxribatlarını, beynəlxalq güclərin yanaşmasını və Türkiyənin qardaş dəstəyini bir daha açıq göstərdi. Analitik baxışla həmin müsahibə Azərbaycanın siyasi kursu və regiondakı geosiyasi düzən haqqında aydın təsəvvür yaratdı.

Prezident İlham Əliyev “TRT Haber”ə müsahibəsində, ilk növbədə, müharibənin səbəblərinə toxundu. Dövlətimizin başçısı açıq şəkildə bildirdi ki, Ermənistanın hərbi təxribatları, Tovuz istiqamətində hücumları və diplomatik danışıqlar prosesini iflic etməsi Azərbaycanın səbir kasasını daşırmışdı. Bu, təsadüfi deyildi: Ermənistan rəhbərliyi illər boyu işğalı möhkəmləndirmək üçün təxribatçı siyasət yürüdür, yeni torpaqlar iddiası ilə çıxış edirdi. Azərbaycan isə uzun müddət idi ki, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin icrasını gözləyirdi. Prezident İlham Əliyevin “TRT Haber”ə müsahibəsində də vurğuladığı kimi, nəhayət, 2020-ci il sentyabrın 27-də Ermənistanın torpaqlarımıza yenidən müdaxiləsi ilə başlanan Vətən müharibəsində Azərbaycan beynəlxalq hüquqa əsaslanaraq ərazilərimizi azad etmək hüququnu həyata keçirirdi. Beləliklə, savaşın məqsədi işğala son qoymaq və ədaləti bərpa etmək idi.

**Müsahibədə əsas məqamlardan biri Vətən müharibəsində Türkiyənin rolu ilə bağlı idi. Prezident, Ali Baş Komandan İlham Əliyev müsahibədə bununla bağlı dedi:** “Türkiyə ilə qardaşlığımız əbədidir və bizim qardaşlığımız bütün sınaqlardan keçib. Bilirsiniz ki, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər dünya ölkələri üçün örnəkdir. Mən dəfələrlə bu mövzu ilə bağlı öz sözlərimi demişdim. Əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla təşkil olunan birgə mətbuat konfranslarında dəfələrlə demişəm ki, bu gün dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ikinci ölkə yoxdur və bu, sadəcə olaraq, söz deyil. Bu, ürəkdən gələn duyğulardır. Bizim birliyimiz bizim tariximizə əsaslanır, ortaq etnik köklərə, dilimizə, dinimizə, qardaşlığımıza əsaslanır.

Əziz qardaşım Tayyib bəylə tarixi xidmətimiz odur ki, biz çox güclü bir təməl üzərində müasir Türkiyə – Azərbaycan birliyini yaratdıq. Türkiyə bayraqları onsuz da Azərbaycanda hər yerdə var, Azərbaycan bayraqları da Türkiyədə. Biz bir-birimizi bir-birimizdən ayırmırıq, birlikdəyik. Bu hadisələr bir daha onu göstərdi ki, bizi ən çox dəstəkləyən, birinci dəstəkləyən Türkiyə olmuşdur, birmənalı şəkildə, qəti şəkildə. Türkiyə Prezidentinin çox cəsarətli və qəti açıqlamaları bir çox ölkələrə xəbərdarlıq oldu – kənarda durun, qarışmayın, Azərbaycan tək deyil, Türkiyə yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır!”.

**Dövlətimizin başçısı müsahibədə Azərbaycan Ordusunun güc-qüdrətindən bəhs edərkən, bu məsələdə Türkiyənin rolunu yüksək dəyərləndirdi və qardaş ölkədən alınan silahlı uçuş aparatlarının haqq savaşının gedişinə müsbət təsir göstərdiyini bildirdi:** “Bu silahlı uçuş aparatları dünyanın ən yüksək səviyyəsində olan aparatlardır və onların Azərbaycan Ordusunda olması bizim ordumuzu böyük dərəcədə gücləndirmişdir. Bu aparatlar bizə böyük imkanlar yaratdı və eyni zamanda, canlı qüvvə itkisinin çox da böyük olmamasına gətirib çıxardı. Çünki əgər bu imkanlar bizdə olmasaydı, Ermənistanın Dağlıq Qarabağda və işğal edilmiş torpaqlarda 30 il ərzində qurduğu istehkamları, tankları, topları, yaylım atəş qurğularını məhv etmək daha çətin ola bilərdi. Daha çox insan həlak ola bilərdi. Ona görə bu mükəmməl texnoloji intellektual məhsul Türkiyə xalqının potensialını göstərir. Biz o ölkəyik ki, bizim Türkiyə kimi müttəfiqimiz var. Biz çox xoşbəxt ölkəyik ki, bizim Türkiyə kimi müttəfiqimiz, qardaşımız var. Əlbəttə ki, Türkiyənin bizə göstərdiyi mənəvi dəstək, eyni zamanda, Türkiyə müdafiə sənayesinin məhsullarının bizdə olması bizi gücləndirir və bunu bütün dünya görür”.

Prezident İlham Əliyev daha sonra Azərbaycanın bu müharibədə özünü, öz vətəndaşlarını müdafiə etdiyini, öz ərazi bütövlüyünü saxlamaq istədiyini vurğuladı. Eyni zamanda, Azərbaycanın başqa ölkənin torpağında gözünün olmadığını, Ermənistanın 30 ildir ki, qədim torpağımızı istismar etdiyini, məcburi köçkünlərin o torpaqlara qayıtmasına icazə vermədiyini, beynəlxalq vasitəçilərin isə bütün bunlara biganə qaldığını, məhəl qoymadığını bildirdi.

**Prezident İlham Əliyev müsahibədə qardaş ölkənin siyasi dəstəyini yüksək qiymətləndirdi, Türkiyənin mövqeyinin Azərbaycana güc verməsi, bununla da ölkəmizin tək olmaması barədə bütün dünyaya mesaj göndərdi.** Xatırladaq ki, bu, yalnız diplomatik bəyanat deyildi, həm də Türkiyə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın açıq şəkildə Azərbaycanın yanında olduğunu elan etməsi ilə bölgədəki güc balansının dəyişdirməsi demək idi.

Xatırladaq ki, o zaman müsahibədə vurğulanan Türkiyə amili iki strateji mesajı özündə ehtiva edirdi. Birincisi, qardaş ölkənin psixoloji və mənəvi dəstəyi ilə Azərbaycan xalqı Türkiyənin həmrəyliyini hiss etdi, bu isə respublikamızda mübarizə ruhunu daha da gücləndirdi. İkincisi, geosiyasi təsir nəticəsində Ermənistan və onun havadarları başa düşdülər ki, artıq regionda balans dəyişib və Türkiyəsiz heç bir siyasi ssenari mümkün deyil. Bütün bunlar isə Azərbaycan – Türkiyə birliyinin yalnız hərbi deyil, həm də siyasi və mənəvi güc olduğunu bir daha təsdiqlədi.

Müsahibədə diqqəti cəlb edən digər mühüm məqam isə Ermənistanın siyasətinin ifşası idi. Prezident İlham Əliyev Paşinyan hökumətinin “Qarabağ Ermənistandır” kimi məsuliyyətsiz bəyanatlarının sülh prosesini tamamilə pozduğunu qeyd etdi. Ermənistan rəhbərliyi danışıqlardan boyun qaçıraraq müharibəni qaçılmaz etmişdi. Üstəlik, müharibənin ilk günlərində Ermənistanın mülki şəhərlərə raket zərbələri endirməsi – Gəncə, Bərdə, Tərtər faciələri onların hərbi cinayətlərini açıq şəkildə göstərdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin sözügedən müsahibəsi vasitəsilə beynəlxalq auditoriya Ermənistanın bu təxribatçı mahiyyətini daha aydın gördü.

**Dövlətimizin başçısı müsahibədə dəfələrlə beynəlxalq hüquqa istinad etdi, Azərbaycanın mövqeyinin sadə olduğunu – əraziləri geri almaq, məcburi köçkünləri öz yurdlarına qaytarmaq, beynəlxalq təşkilatları qərarlarına hörmətlə yanaşmağa dəvət etmək və bunu gerçəkləşdirmək kimi məqsədləri diqqətə çatdırdı. Bununla yanaşı, Prezident İlham Əliyev bəzi dövlətlərin ikili standartlarını da açıq şəkildə tənqid etdi. Dövlətimizin başçısı haqlı olaraq beynəlxalq hüquq prinsiplərinin tətbiqinin də zəruriliyini vurğuladı. Bu mövqe Azərbaycanın beynəlxalq nüfuzunu daha da gücləndirdi, çünki ədalət və hüquqa əsaslanırdı.**

Onu da deyək ki, 44 günlük Vətən müharibəsi informasiya məkanında aparılırdı. Azərbaycan liderinin “TRT Haber”ə müsahibəsi də ölkəmizin dünyaya açıq mesajlarından biri idi. Prezident İlham Əliyev bu platforma vasitəsilə həm region, həm də qlobal auditoriyaya müraciət etdi. Burada iki mühüm mesaj diqqət çəkdi. Birincisi, Azərbaycanın mübarizəsi haqq savaşı idi, başqa sözlə, bu, işğala qarşı beynəlxalq hüququn bərpası idi. İkincisi, sülh istəyinə xüsusi önəm verilirdi, Azərbaycan müharibəni deyil, ədalətli sülhü seçirdi. Lakin sülh yalnız işğalın aradan qalxması ilə mümkün idi.

Prezident, Ali Baş Komandan İlham Əliyev müsahibənin son hissələrində gələcəyə dair baxışını bölüşdü. Dövlətimizin başçısı müharibədən sonra regionda sülh və əməkdaşlıq üçün yeni imkanlar yaranacağını, xüsusilə Azərbaycan və Türkiyənin təşəbbüslərinin regional sabitliyin bərqərar olmasında həlledici rol oynayacağını bildirdi. Əminliklə ifadə olunan bu baxış sonrakı illərdə özünü doğrultdu: 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanat yeni reallıq yaratdı, Azərbaycan iqtisadi və nəqliyyat layihələrində regional mərkəzə çevrildi.

**Beləliklə, Prezident İlham Əliyevin 2020-ci il oktyabrın 5-də “TRT Haber” kanalına verdiyi müsahibə Azərbaycanın haqq işini dünyaya çatdıran mühüm siyasi sənəd kimi tarixə düşdü.** Bu müsahibə ilə Azərbaycan rəhbərliyi müharibənin səbəblərini göstərdi, respublikamızın beynəlxalq hüquqa əsaslanan mövqeyini nümayiş etdirdi, Ermənistanın işğalçı siyasətinin mahiyyətini dünyaya çatdırdı. Ölkə rəhbəri, eyni zamanda, Türkiyə ilə strateji birliyi önə çəkdi, gələcəyə dair sülh və əməkdaşlıq vizyonunu təqdim etdi.

Sonda qeyd edək ki, Ermənistanın baş naziri Nikol Paşinyanın “inqilabi hökumət”inin Azərbaycana qarşı həyata keçirdiyi siyasi və hərbi təxribatlar onilliklər ərzində əldə olunmuş razılaşmalar və prinsipləri rədd etdi, ATƏT-in Minsk Qrupunun apardığı danışıqlar prosesini dalana dirədi. Bunun nəticəsində daha da artan gərginlik və ədavət Azərbaycanın tarixə 44 günlük müharibə kimi düşən genişmiqyaslı hərbi əks hücum əməliyyatlarına başlaması ilə nəticələndi. Beləliklə, 30 ilə yaxın sürən Ermənistan – Azərbaycan münaqişəsi, nəhayət, 2020-ci il noyabrın 10-da başa çatdı. Bununla da Cənubi Qafqaz bölgəsinin regional təhlükəsizlik arxitekturası kökündən dəyişdi.

***Vaqif BAYRAMOV***
***XQ***

# Vətən müharibəsinin xronikası: 5 oktyabr

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

## Zəfər marafonunun 9-cu günü

• Azərbaycan Ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad edib. Prezident İlham Əliyev bununla bağlı rəsmi “Twitter” səhifəsində paylaşım edib: “Bu gün Azərbaycan ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad etmişdir. Qəhrəman ordumuzun uğurlu əməliyyatı davam edir. Qarabağ Azərbaycandır!”.

• Prezident İlham Əliyev Türkiyənin “TRT Haber” televiziya kanalına müsahibə verib. Dövlətimizin başçısı müsahibədə Azərbaycan Ordusunun öz missiyasını uğurla icra etdiyini və ölkəmizin ərazi bütövlüyünün bərpa olunacağına əminliyini diqqətə çatdırıb: “Bizim əsas məqsədimiz bundan ibarətdir. Bu məqsəd tarixi ədaləti təmin edəcək. Eyni zamanda, bu beynəlxalq qanunlara da hörmət əlaməti kimi qəbul edilməlidir. Çünki Qarabağ və işğal edilmiş digər torpaqlar Azərbaycanın tarixi torpaqlarıdır. Beynəlxalq hüquq baxımından da bu torpaqlar Azərbaycan dövlətinə məxsusdur”.

Ali Baş Komandan daha sonra Ermənistanın əldə edilmiş prinsipləri pozaraq Azərbaycana qarşı yeni hücuma başladığını, ölkəmizin isə əks-hücum əməliyyatına keçib öz torpaqlarını Azərbaycan əsgərinin gücü ilə azad etdiyini bildirib. Qeyd edib ki, buna görə, sadəcə indiki şəraitdə atəşkəsin bərpa edilməsi məsələsi müzakirə mövzusu ola bilməz: “Bizim tələblərimiz var. Mən bunu artıq rəsmən bəyan etmişəm. Bizə çox ciddi zəmanətlər verilməlidir. Beynəlxalq vasitəçilər bizə bu zəmanətləri təsdiq etməlidirlər. Eyni zamanda, Ermənistanın işğal edilmiş torpaqlardan çıxmaq qrafiki, yəni cədvəli bizə verilməlidir, hansı gün hansı bölgədən çıxacaq. Təbii ki, o zaman müharibə dayanacaq. Çünki biz istəyirik ki, bu məsələ sülh yolu ilə həll olunsun. Bəzi vasitəçilər istəyirlər ki, sadəcə atəşkəs olsun. Atəşkəs isə 1994-cü ildən qüvvədədir. Bu illər ərzində niyə bu məsələ həll olunmadı? Birləşmiş Millətlər Təşkilatının qərarları niyə icra edilmədi? Təcavüzkar dövlətə sanksiyalar niyə tətbiq edilmədi? Bütün bu suallar havada qalır. Bu suallara cavab yoxdur. Bu gün Azərbaycanın şanlı ordusu öz uğurlu əməliyyatlarını keçirərkən, bizim dədə-baba torpaqlarımızı azad edərkən bu çağırışlar gəlir ki, nəbadə irəliyə getməyin, ara verin. Müharibənin öz qaydaları, öz qanunları var. Hər günün öz əhəmiyyəti var, önəmi var”.

Prezident İlham Əliyev müsahibədə bildirib ki, Ermənistanın cəbhə bölgəsindən uzaqda yerləşən yaşayış məntəqələrimizi, dinc sakinləri atəşə tutması onun terrorçu ölkə olmasını bir daha göstərir. Yəni bu, Cenevrə Konvensiyasına daban-dabana zidd olan bir hərəkətdir. Mülki əhalini, şəhərləri vurmaq qəbuledilməzdir: “Gəncə şəhəri döyüş bölgəsi deyil. Gəncə şəhərinin içərisində hər hansı bir top, tank yoxdur. Niyə bunu vurursan? Yəni nifrətə görə. Azərbaycana, Türkiyəyə qarşı nifrət onların qanındadır. Əfsuslar olsun ki, Ermənistanın gənc nəsli də bu nifrət əsasında tərbiyə edilir. Ancaq bu, bizi yolumuzdan döndərə bilməz. Bilirsiniz, Tərtər şəhərini demək olar ki, dağıdıblar. Tərtər şəhərində bizim vətəndaşlar kişi kimi, mərd-mərdanə durublar. Deyiblər ki, öldü var, döndü yoxdur, torpağımızdan heç yerə getməyəcəyik. Nə qədər mərmi düşüb? Gün var idi ki, təkcə Tərtər şəhərinə iki min mərmi düşdü. O da balaca bir şəhərdir, böyük şəhər deyil”.

• Qoşunlarımızın zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin cəbhənin Ağdərə istiqamətində 62-ci artilleriya alayının 2, 41-ci artilleriya alayının 2 BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 63-cü tank taborunun daha 3 tankı məhv edilib. Müdafiə Nazirliyi döyüşlərdə Ermənistan ordusunun atıb qaçdığı və bölmələrimizin məhv etdiyi düşmənin silah və texnikalarının fotoşəkillərini yayıb.

• Aprel döyüşlərində düşmənin 6 tankını məhv etdiyinə görə “Azərbaycan Bayrağı” ordeninə layiq görülmüş gizir Tahir Misirxanov Vətən müharibəsinin başlanmasından bəri Ermənistan ordusunun daha 11 zirehli texnikasını sıradan çıxarıb.

2016-cı ilin Aprel döyüşlərində 6 tank məhv edərək “Azərbaycan Bayrağı” ordeninə layiq görülmüş gizir Tahir Misirxanov düşmən texnikasını bu gün də məhv etməkdə davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatında igidliklə vuruşan gizir



T.Misirxanov şəxsi rəşadət göstərərək bu günədək düşmənin daha 11 zirehli texnikasını sıradan çıxarıb.

Azərbaycan Ordusunun qələbələrində payı olan, ümumilikdə, 17 düşmən texnikasını məhv edən igid döyüşçümüz bundan qürur duyduğunu və ölkəmizin ərazi bütövlüyünün təmin olunması naminə sonadək döyüşəcəyini fəxrlə deyir.

• Səhər saatlarında Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinin radiolokasiya sistemlərinin texniki vasitələri Ermənistanın Cermuk, Qafan və Berd rayonları ərazisində yerləşən start mövqelərindən Azərbaycan ərazisinə raket buraxılışını qeydə alıb.

Oktyabrın 5-də səhər saatlarında Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinin radiolokasiya sistemlərinin texniki vasitələri Ermənistanın Cermuk, Qafan və Berd rayonları ərazisində yerləşən start mövqelərindən Azərbaycan ərazisinə atılan raket buraxılışını qeydə alıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bütün cəbhəboyu sıxışdırılan düşmən artıq bir neçə gündür Ermənistan ərazisindən Azərbaycan əhalisinin kompakt yaşadığı məntəqələrə, mülki infrastruktura sistemli şəkildə raket zərbələri endirir.

Eyni zamanda, Ermənistanın müdafiə nazirliyi Azərbaycan ərazisinin Ermənistandan atəşə tutulması faktını inkar edir və bunun işğal olunmuş ərazilərimizdən həyata keçirildiyini bildirir. Ermənistanın bu cür məsuliyyətsiz və cinayətkar hərəkəti məqsədyönlü şəkildə Azərbaycanı cavab tədbirləri görməyə təhrik edir.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən intensiv atəşə tutması nəticəsində oktyabrın 5-də saat 16:00-a olan məlumata görə, həlak olmuş mülki şəxslərin sayı 25-ə, xəsarət alanların sayı isə 127-yə çatıb. Bundan başqa, 316 evə və 56 mülki obyektə ciddi ziyan dəyib.

Azərbaycan Respublikasının Baş Prokurorluğu beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirən təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyinin bilavasitə göstərişi ilə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrini atəşə tutması nəticəsində həlak olan və xəsarət alan mülki şəxslərin, eləcə də infrastruktura dəyən ziyanla bağlı yeni statistika açıqlayıb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən respublikamızın şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

***Mustafa KAMAL***
***XQ***

*Vətən müharibəsi qəhrəmanları*

# Şöhrəti dillərdə dolaşan igid

**Onunla mən bir neçə il fərqi ilə eyni məktəbdə oxumuşuq – Sumqayıtdakı 17 nömrəli tam orta məktəbdə. Bəlkə də haçansa üz-üzə gəlmişik, bilmirəm. Amma onun hərbi libasda Ali Baş Komandanla görüşdüyü anın əbədiləşdirildiyi şəkilə baxanda üz cizgiləri mənə çox tanış gəldi, ən azından, munis duyğular yaratdı. Sandım ki, Ramizi çoxdan tanıyıram.**





Tərcümeyi-halından sətirlər: Əslən Masallıdan olan Ramiz Cəfərov 10 dekabr 1974-cü ildə Donetsk vilayətinin Makeyevka şəhərində anadan olub. Sonradan Sumqayıta köçüblər. Bakıda Cəmşid Naxçıvanski adına hərbi liseyi və Ryazan Qvardiya Ali Hava-Desant Komandanlığı Məktəbini bitirib. Nümunəvi zabit kimi Vətənə xidmət edib. XTQ-də komandir müavini olub. Məlum Aprel döyüşlərində fərqlənib. Vətən müharibəsində əsl zabit dəyanəti göstərib. 2020-ci il noyabrın 6-da Şuşa yaxınlığında qəhrəmancasına həlak olub. Paytaxtdakı İkinci Şəhidlər xiyabanında (Hərbi Memorial Məzarlıqda) torpağa tapşırılıb.

"Zəfər Yürüşü"ndə Cəbrayıl, Füzuli, Xocavənd, Şuşa uğrunda şanlı savaşları ilə tarix yazan Ramiz Cəfərov mənsub olduğu xüsusi təyinatlılar arasında "Qara Qartal" ləqəbi ilə tanınırdı. Qıy vurub düşmən üzərinə şığıması silahdaşlarını ruhlandırır, qəfil hücumları ilə işğalçılara, sözün əsl mənasında, qan uddururdu. Ən böyük arzusu Şuşaya qalxmaq, Cıdır düzündə gəzmək, qoşa minarəli məscidi ziyarət etmək idi. Özü o yolu qət edə bilməsə də, Milli Ordumuza yol açan öncüllərdən oldu Ramiz.

Bakıdakı Azadlıq Meydanında ilk Qələbə paradı keçirilən gün şəhid polkovnik-leytenant Ramiz Cəfərovun 46 yaşı tamam olurdu. Bu ərəfədə – 1 gün öncə o, ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüşdü. Bir ay əvvəl isə Şuşaya Qələbə bayrağımız sancılmış, Müzəffər Ali Baş Komandanımız qürurla: "Əziz Şuşa, sən azadsan!" demişdi.

İnişil isə Zəfər Günü ərəfəsində "İRƏLİ" İctimai Birliyinin təşəbbüsü və Nizami Kino Mərkəzinin təşkilati dəstəyi ilə qəhrəman Ramiz Cəfərovun döyüş yolundan və şücaətindən bəhs edən "Ömür vəfa etsəydi" filminin nümayişi keçirilirdi. Hər kəs gözünü ekrandan çəkmədən Ramizin hünər hekayəsini hədsiz maraqla izləyirdi. Bir vaxtlar AzTV-də çiyin-çiyinə çalışdığım istedadlı rejissor Taleh İsmayılovun müəllifi olduğu filmdə onun silahdaşları ilə birgə düşmən texnikasını sıradan çıxarması və erməni quldurlarını amansızcasına məhv etməsi səhnələrinə həyəcansız baxmaq olmurdu... Budur, bədxah ermənilər ağır məğlubiyyətdən sonra sovet texnikası ilə "revanş" hücumuna keçirlər. Amma Ramizin döyüş yoldaşları ilə birgə qurduğu plan onlar üçün çox gözlənilməz olur. İki qumbara partlayışından sonra düşmən yaraqlıları silahlarını hansı tərəfə tuşlayacaqlarını müəyyənləşdirənədək Ramizgil bütöv bir quldur dəstəsini məhv edirlər...

Ölməz qəhrəmanın həyat yoldaşı Sitarə Vaqif qızı deyir:

– Ramiz düz 28 il hərbi geyimdə Vətənə qulluq etdi. Elə ona çox yaraşan həmin libasda da şəhadətə ucaldı. Mən bunu gözləyirdim, odur ki, acı xəbəri təmkinlə qarşıladım. Bilirdim ki, daim irəliyə can atan, kəşfiyyata hər gedəndə ölümü göz önünə alan Ramiz bir gün cənnət quşuna dönərək uçub gedə bilər. Elə də oldu. "Şəhidlər ölmür, ölməyənə ağlamazlar" – deyiblər. Mən də ağlamıram, Ramizin yadigarları olan 5 övladımı – Rəbiqə, Nigar, Nərgiz, Nurlana adında 4 qızımızı, Nurlan adında oğlumuzu böyüdə-böyüdə, həyatda inamla addımlamağa hazırlayaraq, şəhid ömür-gün dostuma dualar edir, onun adı ilə qürur duyuram.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Oğul düşmən çəpəridir

**Ağstafa rayonunun Qırılı kəndində dünyaya göz açan Elvin İmaməliyev Azərbaycan Dillər Universitetini bitirdikdən sonra doğulduğu Ağstafa rayonunun Qırılı kənd tam orta məktəbində əvvəlcə müəllim, daha sonra direktor kimi fəaliyyət göstərib. Eyni zamanda, Yeni Azərbaycan Partiyasının Ağstafa rayon şöbəsi Gənclər Birliyinin sədri olub.**



Vətən müharibəsinin ilk günlərindən könüllü torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə könüllü iştirak edib. "2020-ci il noyabrın 9-da isə Şuşa şəhəri yaxınlığında, Qırmızı bazar qəsəbəsində ağır yaralanaraq şəhid olub. Doğma Qırılı kənd qəbiristanlığında dəfn edilib.

Prezident İlham Əliyevin sərəncamlarına əsasən, ölümündən sonra Elvin Elsevər oğlu İmaməliyev "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın işğaldan azad olunmasına görə" medalları ilə təltif olunub. 2 oğul övladı yadigar qalıb.

Elvin atası Elsevər İmaməliyevə noyabrın 8-dən 9-na keçən gecə zəng edərək "ata, mən yaxşıyam, narahat olmayın", – deyib. Bu, bir cümlə Elsevər kişi ilə oğlu arasında son danışıq olub. Ata söyləyir ki, Elvin bəlkə də o vaxt yaralanıbmış, tezliklə şəhid olacağını hiss etdiyi üçün bütün ağrılarına güc gələrək beləcə xudahafizləşib.

Vaxtilə şagirdi olmuş İsgəndər Yaqublu şəhid direktorları ilə bağlı xatirəsini bölüşür: – Elvin müəllim həmişə deyirdi ki, dərslərinizi yaxşı oxuyun, savadlı, bilikli olun. Döyüş təkcə səngərdə aparılmır. Biz müharibə şəraitində yaşayırıq. Sizin təhsilli, bilikli olmağınız da ölkəmizin gücünü artırır.

Torpaq uğrunda gözünü qırpmadan ölümün gözünə dik baxan Vətən övladlarını yad etmək, xatirələrini əziz tutmaq hər birimizin ən müqəddəs borcudur. Bu gün şəhidlər həm nisgilimiz, kədərimiz, ürək ağrımız, həm də qürur yerimiz, fəxrimizdir. Gənc şəhidlərimizi tanıtmaq, onları vətənpərvərlik ruhunda böyütmək, torpağa, xalqa bağlı tərbiyə etmək isə hər bir ölkə vətəndaşının ən ümdə vəzifəsidir.

***M.MİRZƏ***
***XQ***

# ...Əsgərini xilas etdi

**Özü isə şəhid olan Vidadi Əhmədov 1979-cu il iyulun 12-də Salyanda dünyaya göz açıb. Şəhərdəki 1 saylı orta məktəbi bitirdikdən sonra təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirib. Murovdağda hərbi xidmət keçib.**





Gənc zabit müxtəlif vaxtlarda İraqda sülhməramlı qüvvələrin sıralarında, Müdafiə Nazirliyinin Təlim – Tədris Mərkəzində bölük komandiri kimi qulluq edib. 2011-2014-cü illərdə Ali Hərbi Məktəbdə müəllim işləyib. 2014-2016-cı illərdə isə Tərtərdəki hərbi hissələrin birində komandirin şəxsi heyətlə iş üzrə müavini olub. Aprel döyüşlərində iştirak etdikdən sonra 20 il qüsursuz xidmətinə görə ehtiyata buraxılıb.

Vətən müharibəsi başlayandan sonra könüllü döyüşlərə qatılıb. Füzuli istiqamətində gedən ağır savaşların iştirakçısı olub. Belə döyüşlərin birində top mərmisinin partlayışı nəticəsində şəhadətə yüksəlib.

Vidadi Əhmədovun həyat yoldaşı Zəhra xanım deyir: - Vidadi vətənpərvər, Vətəni canından artıq istəyən hərbçi idi. Uşaqları da vətənpərvərlik ruhunda tərbiyə edirdi. Ətrafda baş verənlərə çox soyuqqanlı görünməyə çalışsa da, bir dəfə evə gəlib hönkür-hönkür ağlamışdı. Dostu general Polad Həşimov şəhid olmuşdu o gün. Oktyabr ayının 5-də zəng vurub dedi ki, sizinlə bir müddət əlaqə saxlaya bilməyəcəyəm, narahat olmayın – irəliyə gedirik...

Həmişə deyirdi ki, qorxma, düşmən məni nə üzbəüz, nə də snayperlə vura bilməz. Yalnız göydən yanıma nəsə atılsa, o an həlak ola bilərəm. Elə belə də oldu... Vidadi düşmənin top atəşi nəticəsində oktyabr ayının 8-də şəhid oldu.

Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Vidadi Əhmədov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda", "İgidliyə görə" medalları ilə təltif edilib.

***Müşfiq CƏFƏROV***
***XQ***

# "Terminator" Mehrab Niftəliyev

**O, dünyaya göz açanda adını Mehrab qoyan valideynləri bilmirdilər ki, vaxt gələcək, Şuşa adlı müqəddəs məkanda namaza dayanan ziyarətçilər üzlərini həm də orada şəhid olmuş bu igidin mehrab timsallı xəyali surətinə tutacaq, ruhuna dualar edəcəklər. Amma taleyində bu, varmış. Artıq 5 ildir ki, Şuşanı azad etmək savabını qazanmış Vətən Müharibəsi Qəhrəmanı Mehrab Niftəliyevin ruhu bu şərəfə qovuşub.**



Xüsusi təyinatlı baş gizir Mehrab Niftəliyev hələ məlum Aprel döyüşlərində igidliklə savaşmışdı. Haqq işimiz uğrunda savaşın sonadək davam etməsini istəsə də, o zaman atəşkəs elan olundu. Lakin Lələtəpə məğlubiyyətindən ibrət götürməyən ermənilər növbəti dəfə hərbi təxribat törədəndə ordumuzun genişmiqyaslı əks-hücum əməliyyatları ilə Zəfər yürüşü başlandı və Mehrab "Axır ki, qisas vaxtı çatdı", – deyərək qəlbinin dərinliklərində buna hədsiz sevindi. Elə müqəddəs savaşın ilk günlərindən də səngərlərdə hünər göstərdi.

Döyüş yolu Füzuli, Cəbrayıl, Hadrut və Şuşadan keçən qəhrəman Vətən oğlunun cismani ömür kitabı orada tamamlanıb. Döyüşlərə silahından əlavə, 60 kiloqrama yaxın çəkisi olan müxtəlif sursatlarla girirmiş. Yaralı olsa belə, yoluna davam edir, düşmənin artilleriyası belə onu dayandıra bilmirdi. Buna görə döyüş yoldaşları Mehraba "Terminator" deyirlərmiş.

Düz 15 il onunla birgə xidmət etmiş dostunun (hazırda da xidmətdə olduğuna görə adını yazmağı məsləhət bilmədi) dediyinə görə, Mehrab əsl cəngavər idi. Heç kimi çıxılmaz vəziyyətdə qoyub getməzdi. Yaralılara əlindən gələn köməyi edərdi. Onun döyüşlərdə göstərdiyi qəhrəmanlıqlar heç bir bəyana, dastana sığmaz.

"Qırmızı bazar deyilən tərəfə hərəkət edirdik. Füzulidən Şuşaya doğru istiqamət almışdıq. Ermənilər səngəri, əşyalarını qoyub qaçmışdılar. Biz həmin səngərə çatdıq. Mehrab da arxadan gəlirdi. Qəfildən başqa bir yerdən erməni minomyotları bizə atəş açdı. Atış başlayanda yarı hissə səngəri tərk edə bildi, digər hissə oradan çıxmağa imkan tapmadı. Növbəti atışda düşmən səngərin içini vurdu. Onda Mehrab da daxil olmaqla, bir neçə döyüş yoldaşımız yaralandı, bir nəfər şəhid oldu. Mehrab özü zədəli olmasına baxmayaraq, diz nahiyəsindən yaralanan yoldaşımıza ilkin tibbi yardım göstərdi, ağrıkəsici vurdu və qanaxmanın qarşısını aldı. O, digər yaralılarla birgə hospitala aparılmışdı. Orada bir neçə gün qaldıqdan sonra həkimlərin təkidinə baxmayaraq, demişdi ki, mən gedirəm, döyüş yoldaşlarım oradadır. Şuşaya hücum istiqamətində gəlib özünü bizə çatdırmışdı.

Səhər tezdən Şuşada alacağımız yüksəkliyə çatanda mən yaralandım. Mehrabgil arxadan gəlib dikə çıxmağa, əşyalarımı qaldırmağa kömək etdilər. Daha sonra onlar şəhərə hücum etmək üçün aşağı düşdülər, mən yaralı idim deyə, Mehrab dedi ki, sən gəlmə, bu ayaqla gedə bilməyəcəksən. Sonra mən təxliyə edildim, bir də eşitdim ki, Mehrab şəhid olub. Sıldırım qayalarda ikən vurulub, yarası dərin olduğuna görə xilas etmək mümkün olmayıb".

Şəhadətinin 3-cü günü onun nəşi Sumqayıtdakı Şəhidlər xiyabanında torpağa tapşırılıb. Oradakı izdiham indi də gözlərim qarşısında canlanır. Ruhuna ehtiram əlaməti olaraq hərbçilər havaya yaylım atəşləri açdılar. Çıxış edənlər onun igidliyinin gənclər üçün örnək olduğunu bildirdilər. Ailə üzvləri gözüyaşlı olsalar da, başlarını dik tutmuşdular.

Ölkə başçısının sərəncamları ilə Mehrab Niftəliyev ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, o cümlədən "Vətən uğrunda", Şuşanın, Cəbrayılın və Füzulinin azad olunmasına görə medallarla təltif olunub.

...Ötən il 8 Mart Qadınlar Günündə şəhid qəhrəmanın xanımı, onun itkisindən sonra mərdanə dayanan Vüsalə Niftəliyeva ilə görüşüb söhbət etmək üçün Sumqayıtın 13-cü mikrorayonundakı evlərinə getmişdik. Vüsalə xanım bizi səmimi qarşıladı, çay süfrəsi arxasında xatirə cığırı ilə Mehrablı günlərinə güzar elədi: "Mehrab 1985-ci il mayın 13-də Quba rayonunun Qamqam kəndində anadan olub. 2002-ci ildə Mübariz Abdullayev adına orta məktəbi bitirib və hərbi xidmətə yollanıb. Qulluq dövründə xüsusi təyinatlılara seçilib və orada qalıb. 17 il idi ki, xidmət edirdi. Aprel döyüşlərində də bir neçə ağır əməliyyatda iştirak etmişdi. Uğurlu döyüşçü kimi təltif olunmuşdu. Həmişə müharibədən, şəhidlikdən danışırdı. Özü də sanki tələsirdi. Deyirdi, müharibə başlansın, torpaqlarımızı azad edək. Qarabağın işğalda olması ona pis təsir edirdi. 2020-ci ilin payızında arzusuna çatdı, amma həmin payız onun üçün sonuncu oldu. "Qismətdə varsa, qayıdacağam" – deyən Mehrabın ruhunun qisməti göylər oldu...

***Ə.DOSTƏLİ***
***XQ***

*Yeni kitab*

# "Suverenlik yolçuları" tarixləşir

**Çağdaş tariximizin qızıl hərflərlə yazılan Böyük Zəfər səhifəsi artıq 5 ildir ki, duyğu və düşüncələrimizə parlaq işıq saçır. Vəfaddin İbayev və Mirhüseyn Nəbiyevin "Suverenlik yolçuları" adlı kitabının çapı da bu amala xidmət edir. "2025 – Konstitusiya və Suverenlik İli" ilə əlaqədar tədbirlər seriyasından olan bu yeni toplu ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsi salnaməsinə aiddir.**




"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC-də buraxılan, ölməz şəhidlərimizin ruhuna bağışlanan kitab haqq işimiz, işğala məruz qalmış torpaqlarımızın azadlığı, Qarabağ münaqişəsinin "anatomiyası", səbəb, nəticə və yekunları kontekstində qələmə alınıb. Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin münaqişəni sülh yolu ilə nizama salmaq sahəsindəki ardıcıl səyləri real misallar, konkret istinadlarla əsaslandırılıb.

Kitabı oxuduqca bir daha görürük ki, dövlətimiz həmişə şəhidliyi Vətənin müqəddəsliyi ilə bir tutur: "İlham Əliyev Vətən övladının hərbi xidmət, Vətən torpaqlarının müdafiəsi zamanı şəhid olmasına bir faciə kimi yanaşsa da, Azərbaycan torpaqlarının işğal altında olduğu bir vəziyyətdə bu cür qurbanların qaçılmazlığını qəbul edir, burada yeganə təsəllini qurbanın torpaqlarımızın azadlığı uğrunda mübarizədə verilməsində tapırdı".

Mülahizələrə aid sitat və iqtibaslar da yerinə düşür. Məsələn, bu fikir dövlət başçısının bir çıxışından götürülüb: "Hər bir ailə üçün öz övladını itirmək böyük dərddir, böyük faciədir. Amma bu, müharibədir və müharibədə də hər şey ola bilər. Onlara təsəlli arzulayıram. Onlar səbirli olsunlar. Onların övladları Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olublar".

Topluda şəhidliyin alilik dərəcəsi, müqəddəslik zirvəsi müxtəlif müdriklərin fikirləri, "Qurani-Kərim"in ayələri, "Kitabi-Dədə Qorqud" və digər əsərlərin timsalında diqqətə çatdırılıb. Məsələn, kitabda da göstərildiyi kimi, "İstiqlal" ordenli Xalq şairi Məmməd Araz hələ münaqişə qızışan vaxt – Birinci Qarabağ savaşı dövründə yazırdı:

*Bu torpağın son qurbanı mən olsam,*<br>*Öz odumda yanıb külə tən olsam,*<br>*Eldən ötən güllələrə dən olsam,*<br>*Ata millət, oğul, deyib ağlama,*<br>*Ağlamağın yeri deyil, ağlama!*

Kitab özündə bu mənanı birbaşa ehtiva edir ki, şəhidlikdə həm itki, qurbanlıq, kədər, həm də igidlik, qəhrəmanlıq, fəxarət anlamları vəhdət təşkil edir.

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununa ətraflı şərh kitabı hüquqi cəhətdən zənginləşdirir, ondan faydalana biləcək şəxslərin dairəsini genişləndirir.

Kitab Vətən sevgisini, dövlət suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olanların xatirəsini əziz tutan geniş oxucu kütləsi, hüquqşünaslar, eləcə də şəhid ailəsi üzvləri üçün faydalı nəşrdir.

***Ə.ƏLİYEV***
***XQ***

*5 Oktyabr Beynəlxalq Müəllimlər Günüdür*

# Bilik dünyasının bələdçiləri

**5 oktyabr hər birimizin həyatında ömürlük iz qoymuş, bizə bilik öyrətmiş, tərbiyə vermiş müəllimlərin günüdür. Uşaqlığın çətin imtahanlarından gəncliyin mürəkkəb sınaqlarına qədər hər addımda arxamızda dayanan, bəzən sərt bir xəbərdarlıq, həlim bir gülümsəmə, bəzən də, sadəcə, "sən bacararsan" kəlməsi ilə bizə düz yol göstərən əziz müəllimlərin bayramıdır. Müəllim insan, vətəndaş yetişdirir, bizə bilik verməklə yanaşı, ağıllı, dürüst, mübariz olmağı da öyrədir. İnsan həyatının hansı mərhələsində olursa-olsun, bu cümlə həmişə yadında qalır: "Müəllimim belə demişdi..."**

## " Yetirmələrim qəlbimi nurlandırır"



**Zabit Zamanov 33 ildir tarix müəllimidir. 18 il Mingəçevirdəki 9 saylı orta məktəbdə çalışıb. Onun dərs otağı şəhidlərin rəsmləri ilə bəzədilib, hər şəkil fərqli hekayə danışır. Müəllim buranı yaddaş məbədinə çevirib. Dərsə başlamazdan əvvəl baxışlarını şəhidlərin portretlərinə yönəldir, sonra şagirdlərinə deyir: "Uşaqlar, tarix bizim kimliyimizdir. Keçmişini bilən gələcəyini daha aydın görəcək".**

**Zabit müəllimin baxışlarında illərin təcrübəsi, səbrin və fədakarlığın izləri var. Hər cümləsində vətənə məhəbbət, insana dəyər və həyata minnətdarlıq duyulur. Onu dinləyəndə insan anlayır ki, bu sözlərin arxasında bir ömürlük xidmət dayanır – təhsilə, millətə, tarixə. Xatirələri və həyatdan aldığı dərslərin özü də bir tarixdir.**

– Özüm haqqında danışmaq bir az çətindir. Müəllimlik isə ilahi sevgidir. Uşaqlıqdan tarixə böyük marağım olub. Şagirdlərimə deyirəm ki, oxumaq sizin birinci vəzifənizdir, bədii kitablardan uzaq düşməyin. Biz orta məktəb illərində çox kitab oxuyurduq, hətta daha böyük mövzuları əhatə edən kitablara müraciət edirdik. Uşaqlıqdan tarixi dərindən öyrənmək və öyrətmək həvəsi məndə çox güclü idi.

Mən Xankəndinin son tələbələrindən biri olmuşam. Amma təəssüf ki, təhsilimi Xankəndidə davam etdirə bilməmişdim. Çünki məlum hadisələr nəticəsində 1988-ci ildən etibarən erməni vandalları bizi universitetdən qovdular. İkinci kursu Gəncədə oxumağa məcbur olduq. Həmin illər Milli Oyanış dövrünə təsadüf etdi. Üçüncü kursdan isə biz Şuşaya gəldik. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Şuşa filialı fəaliyyət göstərirdi, müəllimlərimiz də oraya köçdü və biz təhsilimizi davam etdirdik. O illərdə baş verən hadisələrin də birbaşa şahidi olduq. Həyatımız çox çətin idi: bəzən vertolyotlarla, bəzən hərbi maşın karvanları ilə gedib-gəlirdik. Axırıncı imtahanlarımızı da Ağcabədidə verdik və müəllim adını qazandıq. Tarixi Zəfərimizdən sonra həmin universitetə daxil olan ilk tələbələrin bir qismini də məhz mən hazırlamışam. Şagirdlərim ali məktəbə qədəm qoyanda onlarla birlikdə doğma yurdumuza getdim, həmin binanın pilləkənlərindən bir daha qalxdım, o günlərin xatirəsini yaşadım.

Baş verən hadisələrin çoxunu şagirdlərimlə bölüşməmişəm, çünki o günlərdən danışmaq mənim üçün həmişə ağır olub. Jurnalist Salatın Əsgərova şəhid olanda cənazəni Şuşa məscidindən biz yola saldıq.

Keçirdiyim əzablı həyat, həyəcanlar təsirsiz ötüşmədi. 18 il müəllim işlədim tələbə vaxtı. Gözlərimdəki problem artdı və məktəbə gedib-gəlmək çətinləşdi. Uşaqlar qolumdan yapışırdılar ki, rahat hərəkət edə bilim. Həmişə özümü o sevginin mərkəzində görmüşəm. Mənim üçün böyük xoşbəxtlikdir ki, keçmişdə dərs dediyim şagirdlər indi də yolda–izdə qarşıma çıxanda, üzlərini görə bilməsəm də səslərindən gözlərindəki sevinci hiss edirəm və onlar "müəllim, biz sizinlə fəxr edirik, qürur duyuruq" sözünü deməkdən heç vaxt yorulmurlar.

Keçmiş şagirdlərimdən biri Vüsalə Məmmədova bu yaxınlarda qızı ilə yanıma gəlmişdi. Deyirdi ki, Mingəçevirə gələn kimi ilk siz yadıma düşdünüz. Müəllim üçün bundan böyük xoşbəxtlik ola bilərmi? Şagirdlərim müxtəlif ölkələrə gedəndə, gördüklərini mənə danışanda, elə bilirəm, özüm də həmin yerləri gəzirəm, o məkanlarda oluram. İnsan üçün ən gözəl hisslərdən biri öz fəaliyyətindən zövq almaqdır. Hər birimizin daxilində görünməz tərəzi var. O tərəzi insanı öz vicdanı ilə ölçür. Bəzən təvazökarlıqla özünə baxırsan, bəzən də işlərinin yükünü, dəyərini sorğulayırsan. Əgər o tərəzi sənə pıçıldayırsa ki, gördüyün işlər faydalıdır, insanların həyatına işıq salır – deməli, sən doğru yoldasan, həyatın da, ömrün də hədər getmir. Mingəçevirin hansı küçəsində addım atsam, məni tanıyırlar. Hər idarədə, hər müəssisədə şagirdim çalışır. Keçmiş şagirdlərim indi öz övladlarını yanıma göndərirlər. Bu, müəllim ömrünün ən böyük bəhrəsidir. Ailəm də mənə sevinc bəxş edir. Oğlum həkimdir, çalışır, qızım musiqi müəllimidir, hər biri artıq ailəlidir.

Xoşbəxtlik budur ki, evə gedəndə iş üçün darıxırsan, işə gedəndə isə ev üçün. Mən də məhz belə bir həyatı yaşayıram. İş mənim üçün arzuolunan dünyadır. Şagirdlərimlə görüşlərim, qaynar həyat, mübarizə, mübahisə, iş, ən əsası isə öyrənmək. Həyatımızın devizi də budur – latınların dediyi kimi: "Öyrədərək öyrənmək". Mən indi də öyrənirəm, öyrənməkdən də, öyrətməkdən də zövq alıram.



## "Ən böyük mükafatım şagirdlərimin uğurudur!"

**Natavan Nəsirova ötən əsrin 80-ci illərində Qərbi Azərbaycanda ibtidai sinif müəllimi olub, yüzlərlə şagirdə oxuyub-yazmağı öyrədib. Bakının Nərimanov rayonundakı məktəb–liseydə çalışan qocaman müəllim bu gün də cəmiyyətə faydalı, vətənpərvər gənclər yetişdirir. Müəllimlərin peşə bayramı ərəfəsində həmsöhbət olduğumuz Nərimanov rayon Məktəb liseyində çalışan Natavan müəllim çoxillik fəaliyyəti ilə bağlı xatirələrini bizimlə bölüşdü:**

– 80-ci illərin əvvəlləri idi, ilk dəfə sinfə daxil olanda həm inamlı, həm də həyəcanlı idim. Uşaqlar çöhrələrində sevinc, gözlərində maraqla mənə baxırdılar. Həmin gün bir şagirdim dərs boyu qələmini "itirir", mən də hər dəfə ona yenisini verirdim. Sonradan bildim ki, sadəcə diqqət çəkmək üçün belə edirmiş. Belə xatirələrim həddindən çoxdur. Məsələn, sinifdə yan-yana oturan iki şagirdim həmişə bir-biri ilə məktublaşırdılar. Onlara heç vaxt sərt reaksiya vermirdim, uşaq olsalar da hisslərinə hörmətlə yanaşırdım. İllər sonra ailə qurdular və bir gün kiçik qızları ilə birlikdə mənim yanıma gəldilər. O an mən çox kövrəldim – bax bu, müəllim üçün sözlə ifadə olunmayan xoşbəxtlikdir.

Bir şagirdim də çox utancaq idi, dərs danışmağa belə çəkinirdi. Mən ona daha çox diqqət göstərir, sıx ünsiyyət qururdum. Universitetə qəbul olanda məni görməyə gəlmişdi, müəllim olacağını dedi. Müəllim üçün bundan böyük xoşbəxtlik ola bilərmi?

Dövr, tələblər, şərait daimi dəyişsə də, müəllim hər zaman nümunə olub. O vaxtlar uşaqlar və müəllimlər üçün imkanlar məhdud idi, amma şagirdlərin diqqəti dərsə daha çox yönəlirdi. İndi isə texnologiya inkişaf edib, uşaqlar internet vasitəsilə çox məlumat əldə edə bilirlər. Amma bu, həm üstünlük, həm də problemlər yaradır. Çünki indi onların diqqətini dərsə cəlb etmək daha çətindir. Bu günün müəllimi yalnız bilik verən deyil, həm də psixoloq, motivator, dost olmalıdır.

Mənim üçün ən böyük mükafat şagirdlərimin uğurudur. Onların həkim, mühəndis, hüquqşünas, müəllim kimi peşələrə yiyələndiklərini görəndə qürurlanıram. İllər sonra rastlaşanda "müəllim, məni tanıdınızmı?" deyə soruşuanda ürəyim dağa dönür. Hətta övladlarını da mənim sinfimə yazdıranlar olub. Bu, mənim həyatda aldığım ən böyük mükafatdır.

Bir dəfə məktəbdə təşkil etdiyimiz yeni il tədbirində uşaqlardan biri evdən atasının köhnə qol saatını gətirmişdi. "Müəllimə, Şaxta baba bunu sizə hədiyyə edir" - dedi. O sadə hədiyyə mənim üçün ən qiymətli xatirədir. Çünki uşaqların o saf və təmiz sevgisi heç nə ilə müqayisə olunmur.

Gənc müəllimlər bilməlidirlər ki, bu peşə sadəcə iş deyil, missiyadır. Səbirli olmaq, hər uşağı fərdi şəkildə tanımaq lazımdır. Müəllim uşağın qəlbinə yol tapsa, dərs də, tərbiyə də uğurlu olar. Müəllimin ən böyük uğuru odur ki, o, yalnız riyaziyyatı, yazını öyrətmir, həm də həyat dərsi verir.

Mən özümü xoşbəxt hesab edirəm. Çünki hər gün balaca uşaqlarla birlikdə olmaq, onların böyüməsinə şahidlik etmək həyatımın ən gözəl anlarıdır. İbtidai sinif müəllimi olmaq bağbanlığa bənzəyir – balaca toxumları torpağa əkir, onları sevgi ilə böyüdürsən və illər sonra bar verdiyini görürsən. Mənim xoşbəxtliyim də elə budur.



## "Mən dünyaya müəllim olmaq üçün gəlmişəm"

**Ali təhsili jurnalistika ixtisası üzrə olan, 22 yaşından pedaqoji fəaliyyətə başlayan, Azərbaycan Dillər Universitetinin jurnalistika fakültəsində dərs deyən Günel İlqar isə bildirdi ki, müəllim yalnız bilik vermir, həm də gələcəyə yol göstərir:**

– Yeni nəslə bilik və təcrübəmi ötürmək, onların peşəkar inkişafına dəstək olmaq arzusu məni müəllimliyə gətirdi. Müəllimlik uşaqlıqdan mənim nəzərimdə ən üstün peşə olub. Kiçik yaşlardan anamın, babamın bu peşə haqda necə hörmətlə, sevərək danışdıqlarının şahidi olmuşam. Jurnalistika ixtisasını öz istəyimlə seçsəm də, müxtəlif media qurumlarında çalışsam da müəllimliyə olan sevgim məni sinif otaqlarına dərs deməyə çəkib gətirdi.

Mark Tven deyib ki, insan həyatında iki vacib gün var. Biri dünyaya gəldiyi, digəri isə dünyaya nə üçün gəldiyini anladığı gün. Mən də bir gün anladım ki, dünyaya müəllim olmaq üçün gəlmişəm.

Mən Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin məzunu olmuşam. Magistraturanı da Dan Masonun Azərbaycanda yaratdığı proqramla öz ixtisasım üzrə bitirmişəm. Orta məktəbə 5 yaşında başladığım üçün 16 yaşında universitetə daxil olmuşam və 17 yaşından artıq çalışmağa başlamışam.

Tələbələrimlə yaş fərqi çox az olduğu üçün onlarla münasibət qurmaq, həm dost, həm də müəllim rolunu balanslaşdırmaq asan və gözəl idi. Amma 22 yaşında müəllim olmağın başqa çətinlikləri də var idi.

Artıq ölkəmizdə gənc müəllimlərin də sayı gündən-günə artır, dövlətimizin gənc kadrlara yaratdığı şərait, imkanlar, onlara olan etibar çox sevindirici haldır. Cəmiyyətin gənc müəllimlərin istedadına, savadına inamının artması da onları ruhlandırır və daha uğurlu fəaliyyətlərinə zəmin yaradır.

Müəllimlik məsuliyyəti və şərəfi məni daim yenilikçi olmağa, dərslərimi maraqlı və faydalı etməyə həvəsləndirir. Onların uğurları mənim üçün şəxsi nailiyyətə bərabərdir. Dərs dediyim tələbələri sabah hansısa media qurumunun peşəkar jurnalisti kimi görmək əlbəttə ki, bir müəllim kimi məni çox qürurlandırır. Müəllimliyin ən sevdiyim tərəflərindən biri də budur.

Jurnalistika mənə məsuliyyətli, diqqətli və empatik olmağı öyrətdi. Müəllimlik isə göstərdi ki, həyat boyu öyrənmək və inkişaf etmək heç vaxt bitmir. Mövlanənin bir sözü var: Nə dediyin yox, necə dediyin vacibdir. Amma təhsildən söhbət gedirsə, nə dediyin də, necə dediyin də vacibdir. Çünki nəyi necə demək müəllimin pedaqoji proqramıdır. İlk növbədə tələbələrimə dost kimi yanaşıram. Bildiklərimi onlara öyrətdikcə, gerçəkliyinə bir daha əmin olur və daha inamlı, güclü oluram.



## "Müəllim uşaqları sevməli, fənnini sevdirməlidir"

**Hazırda təqaüddə olan Rəna İbadova 1974-cü ildən tarix fənnini tədris edib. Rəna xanım deyir ki, müəllim ailəsində böyüməmişəm, amma uşaqlıqdan müəllim haqqında deyilən dəyərli sözlər onda bu peşəyə xüsusi maraq oyadıb:**

– Məktəb illərində unudulmaz müəllimlərim olub. Onların fədakarlığı, bizə verdikləri tərbiyə və bilik peşə seçimimə təsir göstərdi, qərar verdim ki, mən də mütləq müəllim olmalıyam. Bu sevgidən doğan arzu məni tarix müəllimliyinə gətirdi. Mənim üçün müəllimlik bütün peşələrdən üstündür. Müəllim olmaq istəyən insan unutmamalıdır ki, onun qarşısında sadəcə şagird yox, gələcəyin qurucusu oturur. Millətini , vətənini sevən hər bir müəllim öz işinin məsuliyyətini dərindən dərk etməlidir. Müəllim uşaqları sevməli, dərs dediyi fənni sevdirməli və hər bir şagirdi vətənpərvər, məsuliyyətli vətəndaş kimi yetişdirməlidir.

Şagirdlər müxtəlif ailələrdən gəlirlər, hər birinin qavrama qabiliyyəti fərqlidir. Bəzən sinifdə sağlamlıq imkanları məhdud olan uşaqlar da olur. Onlarla işləmək, onların diqqətlərini dərsə yönəltmək çox çətindir. Müəllim yalnız dərs kitabı ilə kifayətlənməməli, uşağın maraq dairəsinə uyğun digər mənbələr də tapmalıdır. Mən dərsə başlamazdan əvvəl mövzuya aid müxtəlif suallar verir, sinifdə müzakirələr aparıram, oyunlardan, qrup işlərindən istifadə edirəm. Bu zaman uşaqlar fəallaşır, dərs daha maraqlı keçir və yadda qalır.

Bir dəfə imtahan keçirirdim. Şagirdlərin hamısı suallara diqqətlə cavab yazırdı, mən də sinifdə gəzib onlara nəzarət edirdim. Birdən gördüm ki, yaxşı oxuyan, lakin bir o qədər də həyəcanlı olan şagirdim vərəqinə heç nə yaza bilmir. Sualı yaxşı bildiyinə əmin idim, çünki dərsdə bu mövzuya həmişə həvəs göstərirdi. İmtahanın sonunda kağızı götürəndə isə gördüm ki, cavab yerinə belə yazmışdı: "Müəllim, mən bu mövzunu yaxşı bilirəm, amma həyəcanlandım. Siz məni yaxşı tanıyırsınız, cavabıma 5 yazın".

O kağızı oxuyanda istər-istəməz gülümsədim. Çünki bir tərəfdən uşağın səmimiyyəti məni təsirləndirdi, o biri yandan onun məndən necə insaf istədiyini gördüm. Onu yanıma çağırıb dedim: – sən dərslərdə, həqiqətən, çalışqan olmusan, amma imtahanda da biliklərini göstərmək vacibdir. Gəl, indi sənə bir şans verirəm, mövzunu şifahi olaraq danış. Əvvəlcə yenə həyəcanlandı, amma sonra mövzunu o qədər yaxşı danışdı ki, mən ona "5" yazdım. O şagird illər sonra universitetə qəbul olundu və mənimlə görüşəndə həmin hadisəni xatırlayaraq dedi: "Müəllim, yazdığınız "5" məni çox həvəsləndirdi və daha güclü kömək elədi!".

Valideynlərlə münasibətlər isə bəzən çətin olur. Çünki onlar çox zaman övladlarının çatışmayan xüsusiyyətlərini qəbul etmək istəmirlər, axı, hər kəs üçün öz uşağı ən ağıllı, ən yaxşıdır. Lakin müəllim kimi biz həm onların güclü, həm də zəif tərəflərini görürük. Mən çalışıram valideynlərlə açıq danışım, hər şeyi səmimi şəkildə izah edim. Çünki müəllim və valideyn əməkdaşlıq etməsə, uşağın inkişafı da tam olmayacaq. Elə buna görə də müəllimlik sadə iş deyil, böyük məsuliyyət tələb edir. Amma hər bir şagirdin uğuru və minnətdarlığı illərin yorğunluğunu unutdurur.

***Fidan ƏLİYEVA,***
***Ləman TƏHMƏZ***
***XQ***

# Hamıdan ucadır müəllimin yeri



**Ümummilli lider Heydər Əliyev Naxçıvanda təhsil aldığı illəri xatırlayaraq bildirmişdi ki, o illər yaddaşından heç vaxt silinmir. Müəllimlərinin də hamısı yadındadır. Hətta hansı binada, hansı sinif otağında dərs keçməklərini, hansı parta arxasında oturduğunu da yaxşı xatırlayır.**

Müəllimlərinə həmişə böyük hörmət və ehtiram bəsləyən Ulu öndər onları minnətdarlıqla yad edərək bildirmişdi ki, həyatda qazandığı uğurlar müəllimlərin verdiyi biliklər, ona və digər gənclərə göstərdikləri qayğı ilə bağlı olub. Həmin tələbələr də müəllimə böyük hörmət və ehtiramla yanaşıblar: "Mənim üçün müəllim adı həmişə ən ülvi, ən şərəfli bir məfhum olmuşdur. Mən bu gün də müəllim qarşısında baş əyirəm, müəllimə hörmət və ehtiramımı bildirirəm, bütün Azərbaycan müəllimlərinə öz işlərində uğurlar arzulayıb, cansağlığı və səadət diləyirəm".

Doğrudan da, xalqımızın böyük oğlu ona həyatda uca mərtəbələrə yüksəlməkdə önəmli yardımçı olmuş, biliklər vermiş müəllimlərini unutmur, onlara yüksək diqqət və qayğı göstərirdi. Prezident Heydər Əliyev Əməkdar müəllim Lətif Hüseynzadənin 100 illik yubileyini təntənə ilə qeyd edilməsi barədə sərəncam vermiş, onu ali "İstiqlal" ordeni ilə təltif etmişdi. Bu qədirbilənlik və alicənablıq hər bir ziyalı üçün yüksək bir örnək, parlaq bir timsaldır. Böyük Nizami isə mənası elmli adam olan müəllimləri nəzərdə tutaraq deyirdi: "Hamıdan ucadır alimin yeri". Bəli bizə elmlərin qapısını açan müəllimin cəmiyyətdəki yeri hamıdan üstündür.




Mən də orta və ali təhsil illərimin müəllimlərini, elmi rəhbərlərimi, özümə ustad saydığım pedaqoq alimləri sevgi-sayğı ilə yad edirəm. İndi bir çoxu həyatda olmasa da əziz xatirələri həmişə qəlbimdə canlanır, mənə xoş duyğular bəxş edir. Onlar verdikləri bilik və öyüd-nəsihətləri ilə yada düşür, mənəvi ziya saçırlar. Bakı Dövlət Universistetinin fizika fakültəsində təhsil aldığım illərdə başda kvant mexanikasından mühazirələrini dinlədiyim, AMEA-nın müxbir üzvü, mərhum professor Abdulla Muxtarov olmaqla, bütün müəllimlərimi 5 Oktyabr – Beynəlxalq Müəllimlər Günündə ehtiramla xatırlayıb ruhları qarşısında baş əyirəm.

Sonralar, doktorantura illərində, elmi-tədqiqat zamanı daha sıx təmasda olduğum Abdulla müəllimin yetirməsi, AMEA-nın müxbir üzvü, mərhum professor Sabir Hacıyevin unudulmaz müəllim obrazı mənə daim müəllim ucalığını xatırladır. Rusiya Elmlər Akademiyasının Fizika İnstitutunda Nobel mükafatçısı, akademik A. Saxarovun elementar zərrəciklər fizikası laboratoriyasında sıx təmasda olduğum, elm dərsi aldığım mərhum akademik Vladimir Faynberqin fotosu isə BDU Fizika Problemləri İnstitutunun nəzəri fizika şöbəsində lövhədən asılıb, həmişə gözümün önündədir. Burada digər elmi məktəb müəllimlərimdən Rusiyanın görkəmli fizikləri V.Baqrovun, İ.Tyütinin, D.Gitmanın, V.Roçevin də şəkilləri sıralanıb. Elmin vətəni olmadığı kimi, alimin də vətəni olmadığından mən elmi karyeramda rolu olmuş, özümə müəllim saydığım o insanları özümə doğma sayıram.

Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının son yubiley mərasimində bildirmişdi ki, alimlərin məqalə çap etdirmək xatirinə işləməsi deyil, elmi–tədqiqatları ilə ölkənin iqtisadiyyatına, hərbi qüdrətinə və digər sahələrə fayda verməsi lazımdır. Mənim elmi müəllimlərim də bizi bu ruhda tərbiyələndirirdi. Doğrudan da elm həyatda yüksəliş, yenilik yaratmalıdır. Azərbaycan dövləti elmi qurumları daim buna təşviq edir, qayğı və diqqətini də artırır.

Son vaxtlar dövlət qürumları ilə yanaşı, bəzi özəl müəssisələr də elmlə istehsalatın birgə əməkdaşlığına qoşulublar. Əsas heyəti təhsil işçiləri olan, mənim də təmsil olunduğum" "İSAAC GROUP ACADEMY MMC" qeyd edilən yöndə yeni layihələr işləyib həyata keçirir. Bu elmi qurum Ulu öndər Heydər Əliyevin 80 illik yubileyinə həsr olunmuş "Nəzəri və riyazi fizikanın tərs məsələləri" beynəlxalq konfransının, Bakı Dövlət Universitetində keçirilən "Modern Trends in Physics" requlyar Beynəlxalq konfransın 1 – 12-ci sessiyalarının əsas təşkilatçılarından biri, "FRÇ – Fizika və Riyaziyyatda Çalışmalar" Beynəlxalq İşçi Seminarının, Fövqəladə Hallar Nazirliyinin Akademiyası ilə birlikdə keçirilən "IPM:Təbiətdə fövqəladə hadisələr və onların elmi təsviri" mövzusunda I Beynəlxalq İşçi Seminarın əsas təşkilatçısı olmuşdur.

Təşkilat Komitəsinin fəxri sədri fövqəladə hallar naziri, general–polkovnik Kəmaləddin Heydərov olan sonuncu seminarda ölkəmizin təhsil və elmi müəssisələrinin aparıcı mütəxəssisləri ilə yanaşı, Türkiyə, Pakistan, Rusiya və Gürcüstanın da mütəxəssisləri iştirak edirdilər. Elmi məclisdə Xəzər dənizinin səviyyəsinin dəyişməsi amilləri, ölkə ərazisində yağıntıların lokal nizamlanması problemləri, Cənubi Qafqazda təbii fəlakətlər, radiasiya materialşünaslığı və monitorinqi, alternativ enerji mənbələri, riyazi modelləşdirmə, pilotsuz uçuş aparatları, iqtisadi fizika, tibbi fizika və peşə xəstəlikləri, təhsilin və təlimin fəlsəfi-tarixi aspektləri mövzularında OFFLINE və ONLINE rejimlərdə maraqlı məruzələr edildi, ölkə Prezidentinin yuxarıda qeyd etdiyi çağırışı layiqincə cavablandırıldı.

Ölkəmizdə də ümumxalq təntənələri ilə qeyd edilən bu əziz bayram günündə ölkə müəllimlərini elmi ictimaiyyət adından səmimi təbrik edir, onların müstəqil dövlətimizdə sivil inkişaf və ümumi tərəqqiyə verdikləri töhfəni minnətdarlıqla qeyd edir və xoş arzularımı çatdırıram.

***Rauf CƏFƏROV,***
***Bakı Dövlət Universitetinin professoru,***
***"İSAAC GROUP ACADEMY"***
***Elmi Cəmiyyətinin rəhbəri***

# AHİK-in sağlamlıq mərkəzlərində




**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) "Buzovna" fizioterapiya, "Bilgəh" kardioloji və "Abşeron" mədə-bağırsaq təyinatlı sağlamlıq mərkəzlərinə baxış keçirilib. AHİK-dən bildirilib ki, səhiyyə naziri Teymur Musayevin də iştirak etdiyi mərasimdə qonaqlar konfederasiya tərəfindən sağlamlıq-istirahət mərkəzlərində yaradılan müasir və rahat şəraitlə tanış olublar. Qeyd olunub ki, son dövrlər "Buzovna", "Bilgəh" və "Abşeron" sağlamlıq mərkəzlərində də şərait yaxşılaşdırılıb, obyektlər ən müasir tibbi avadanlıqlarla təchiz edilib.**

Eyni zamanda, mərkəzlərdəki tibbi laboratoriyalar, müalicə və istirahət sahələri, tibbi xidmətlərin təşkili, istifadə edilən müasir avadanlıqlar yenilənib, reabilitasiya prosedurları zamanı müasir tibbi texnologiyalar tətbiq edilir.

Yollayışların verilməsi prosesi e-ahik elektron rezervasiya sistemi vasitəsilə həyata keçirilir. Sistem insan təması olmadan, sürətli və şəffaf şəkildə müraciət və qeydiyyat imkanı yaradır ki, bu da xidmətlərin əlçatanlığını və vətəndaş məmnuniyyətini əhəmiyyətli dərəcədə artırır.

Səhiyyə naziri Teymur Musayev konfederasiyanın sağlamlıq mərkəzlərində yaradılmış şəraiti, müasir tibbi avadanlıqlarla təchizatı, tibbi heyətin peşəkarlığını və göstərilən xidmətlərin keyfiyyətini yüksək dəyərləndirib. Nazir, həmçinin kadr hazırlığı və birgə layihələrin icrası istiqamətində konfederasiya ilə əməkdaşlığın genişləndirilməsi barədə fikirlərini bölüşüb.

***Q.YUSİFOĞLU***
***XQ***

*Əziz Ələkbərli – 65*

# Vətən daşı olan vətəndaş ziyalı

**Ağrı dağından, Şahdağdan, Kəpəzdən, Arazdan, Qarqardan, Batabatdan, Qızılağacdan, Topxanadan, Cıdır düzündən... başqa məmləkətlərdə də var. Sadəcə, adları fərqlidir. Bizə özgələrdən nə?! Bizə özümüzünkü daha şirin, daha əzizdir. Zaman-zaman "peşkəş" etdiyimiz, deportasiya edildiyimiz, qovulduğumuz Vətən torpağı bizlər üçün uca Tanrının könlünün xoş məqamında yaratdığı bir cənnətməkandır.**



Ədəbiyyatşünas, ictimai xadim Əziz Ələkbərli də dövlət sərhəd mərzləri ilə ayrılmış həmin Vətəndən Bakıya ali təhsil almaq üçün gələndə ağlına gəlməzdi ki, bir də haçansa doğma yerləri yalnız yuxularında görəcək, rəngləri zamanın rüzgarlarında yavaş-yavaş sozalan xatirələrində yad edəcək. Əzizlə dostluğa çevrilmiş tanışlığımızın haradasa yarım əsrə yaxın, daha dəqiq ifadə etsək, 46 ilə dayanan bir tarixçəsi var. İlk dəfə 1979-cu il sentyabrın 1-də Azərbaycan Dövlət Universitetinin 2 saylı binasının qapısından keçib 209 saylı auditoriyada toplaşanda 75 nəfər idik.

Həyat qəribədir... ruhən, mənən yaxın insanları arada yaş fərqi qoymadan, sosial status tanımadan, bioloji bağlara baxmadan haçansa çəkib bir araya gətirir. Və düz deyirlər ki, dostluq nazı çəkiləsi, "səhhəti" qorunası bir nemətdir... Bu mənada Əziz də Qəzənfər, Əflatun, Rafiq, haqq dünyasına qovuşmuş İlham, Fəxrəddin, Həbib və başqaları ilə bir sırada heç də asan sayılmayacaq illərin sınağından dostluğa dəyər verməyi və qorumağı bacaran vəfalı və dəyanətli adam kimi çıxmağı bacardı. Etiraf edirəm: diqqəti, səmimiyyəti, qədirkeşliyi ilə fərqlənib həmişə... özü də istisnasız olaraq hamımıza – bütün tələbə yoldaşlarına qarşı.

5 il auditoriyalarda hamımız üçün eyni, universitet binasından kənarda isə fərqli keçdi. Amma illərin imtahanında azalmayan, tükənməyən, əksinə, varlığına dəyər qatan, daha da möhkəmlənən bir duyğu qalmışdı aramızda – dostluq! Universiteti bitirib hərə göndərişlə respublikanın bir guşəsinə səpələndi. Mən İsmayıllının Xənəyə kəndində 1 il, dərs dedim, Əziz isə Qaxın Qum kəndində 3 il müəllimlik elədi. Sonradan doğma el-obasına – Vedibasarın Qaralar kəndinə qayıtsa da, 1988-ci ildə Ermənistanda növbəti dəfə baş qaldıran və az sonra az qala yeni bir soyqırımı dalğasına çevrilən anti-azərbaycan siyasəti nəticəsində yüz minlərlə soydaşımız kimi dədə-baba yurdunu tərk etməli oldu.

...Və Əziz Ələkbərlinin həyatının həm əziyyətli, qayğılı, həm də ən məhsuldar, elmi, yaradıcı, ictimai potensialını ortaya qoyan Bakı dövrü başladı. Əziz 1988-ci ildə Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunda fəaliyyətə başladı, az sonra dissertasiya müdafiə edərək tələbə yoldaşlarımız arasında ilk alimlik dərəcəsi alanlardan biri kimi həmin elm müəssisəsində bölmə müdiri vəzifəsində çalışdı. Sonralar fəaliyyətini Folklor İnstitutunda "Qərbi Azərbaycan folkloru" şöbəsinin müdiri kimi davam etdirdi. O həm də 1997-ci ildən fəaliyyət göstərən müstəqil "Ağrıdağ" nəşriyyatının yaradıcısıdır.

Ə.Ələkbərli ölkə üçün kifayət qədər mürəkkəb 90-cı illərdə mətbuat sahəsində çalışmış, "Ana Vətən", "Ağrıdağ" qəzetlərinin baş redaktoru, "Xalq qəzeti"nin şöbə müdiri vəzifəsində işləmiş, siyasi mübarizələrdə bişib püxtələşmiş, ortaya ictimai mövqe, əqidə və prinsipiallıq nümunəsi qoymuşdur. Onun həyatının ən məhsuldar dövrü yeni minilliyə təsadüf edir – nəşr olunmuş 500-dən artıq elmi və publisistik məqalənin, 47 kitabın, o cümlədən "Qərbi Azərbaycan" adlı 10 cildlik ensiklopedik nəşrin, Azərbaycanda və xaricdə Azərbaycan, ingilis, rus, alman və fransız dillərində nəşr olunmuş "Qərbi Azərbaycan abidələri" adlı kitabın müəllifi, 100-dən çox kitabın redaktoru, ön sözünün müəllifi və naşiridir. Bir neçə il əvvəl tamamladığı "Folklorda tarixilik (Qərbi Azərbaycan folklor materialında)" mövzusunda doktorluq işi belə ədəbi materialını Qərbi Azərbaycandan götürmüşdür.

Əziz Ələkbərlinin müəllifi olduğu kitabların siyahısına baxmaq – Qədim Türk-Oğuz yurdu "Ermənistan", "Qərbi Azərbaycan, I cild, Vedibasar mahalı", "Qərbi Azərbaycan, II cild (Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları)", "Qərbi Azərbaycan abidələri (Azərbaycan, ingilis, rus, alman, fransız dillərində)", "Azərbaycanlıların 1988-ci il soyqırımı: Sənədlərin dili ilə", "Qərbi Azərbaycanın dialektoloji lüğəti", "Türk mənşəli erməni soyadları", "1988–1992-ci illər deportasiyası zamanı Qərbi Azərbaycan qaçqınlarına dəyən maddi və mənəvi ziyan (3 kitab)", "Stepan Orbelian - Sünik tarixi", "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz", "Qərbi Azərbaycan şəhidləri" və nəhayət, beş kitabdan ibarət nəzərdə tutulmuş "Qərbi Azərbaycan irsi" kitabının 1-ci cildi (Azərbaycan, rus və ingilis dillərində) kifayətdir ki, bir adamın öz doğma el-obası ilə bağlı ortaya necə bir vətəndaş-alim-tədqiqatçı şücaəti qoyduğunun şahidi olasan.

Əziz həyatını, yaradıcılığını, ictimai fəaliyyətini qədim Oğuz-türk yurdu sayılan Qərbi Azərbaycan probleminə həsr etmiş azsaylı insanlardan biri, həmin məsələlərə kompleks-elmi, sistemli şəkildə yanaşan nadir alim-tədqiqatçıdır, vətəndaş-ictimai xadimdir. Onun fəaliyyəti, Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızdan yana yaşadığı iztirablar, çəkdiyi zəhmət həmişə göz önündə olub, arxivlərdə apardığı tədqiqatlar müxtəlif nəşrlər şəklində bəhrəsini verib.

Ə.Ələkbərli 2012-2014-cü illərdə Azərbaycan Qaçqınlar Cəmiyyəti sədrinin müavini, sonrakı səkkiz ildə isə həmin cəmiyyətin sədri olmuşdur. 2019-cu il martın 3-də Azərbaycan Qaçqınlar Cəmiyyətinin tərkibində Qərbi Azərbaycan İcmasını yaratmış və onun ilk sədri olmuşdur. 2022-ci il avqustun 3-də Azərbaycan Qaçqınlar Cəmiyyəti Qərbi Azərbaycan İcması adı ilə yenidən təşkil edilmiş və Ə. Ələkbərli İcmanın sədri seçilmişdir.

2020-ci ilin 44 günlük Vətən müharibəsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə qalibiyyətlə nəticələndi, tarixi ədalət bərpa edildi. 2023-cü il sentyabrın 19-20-də cəmi 23 saat davam edən lokal antiterror tədbirləri nəticəsində "Qarabağ münaqişəsi" mövzusu tamamilə qapandı. Lakin üzü Nüvədidən İrəvanadək ana südü tək haqqımız olan dədə-baba torpaqlarımız hələ də yadelli tapdağı altında inləyir. Azərbaycan Prezidenti İlham Əliyev Qərbi Azərbaycandan zorla köçürülmüş azərbaycanlıların hüquqlarının bərpası məsələsini yeni geosiyasi reallıqda cəmiyyətin əsas milli ideyasına çevirməyi, bu məqsədlə sistemli və ardıcıl tədbirlər həyata keçirməyi zəruri hesab edir. 1989-cu ildə "Azərbaycan Qaçqınlar Cəmiyyəti" kimi təsis edilmiş qurumun dövlət başçısının himayəsi ilə 2022-ci ilin avqustunda "Qərbi Azərbaycan İcması" adı ilə yenidən formalaşması, təşkilatlanaraq fəaliyyətə başlaması tarixi torpaqlarından qovulmuş azərbaycanlıların hüquqlarının müdafiəsi baxımından yeni imkanlar açdı.

Ötən dövr ərzində İcma Əziz Ələkbərlinin rəhbərliyi və ölkənin əslən Qərbi Azərbaycandan olan ən tanınmış ziyalı-alimlərinin, müxtəlif peşə sahiblərinin yaxından iştirakı və dəstəyi ilə çox böyük işlər görmüş, beynəlxalq əhəmiyyətli layihələr həyata keçirmişdir. İcma Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriqayıtma hüququna əsaslanaraq, indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz evlərinə təhlükəsiz, ləyaqətli şəkildə qayıtmasını, sonrakı mərhələdə onların fərdi və kollektiv hüquqlarının təmin olunmasını əsas məqsədləri kimi müəyyənləşdirmişdir.

Qısa bir vaxtda İcma öz fəaliyyətinin əsas məramı və prinsipial əhəmiyyət kəsb edən prioritet istiqamətlərin beynəlxalq platformalarda təbliği, cəmiyyətin mövcud potensialının yeni milli ideya ətrafında səfərbər edilməsi yönündə sistemli və ardıcıl fəaliyyət göstərir. Təşkilatın BMT-yə göndərdiyi 8 sənədin təşkilatın rəsmi sənədi kimi yayılması Ermənistanın müharibə cinayətlərinin ifşası, Qərbi azərbaycanlıların pozulmuş hüquqlarının bərpası baxımından son dərəcə əhəmiyyətli sayıla bilər. Bu gün Əziz Ələkbərli həm də V və VI çağırış Milli Məclisin deputatı kimi ictimai-siyasi fəaliyyətini davam etdirir.

Əzizin 65 yaşı tamam olur. Az deyil! Nə etmək istədiyini, həyatda məqsəd və məramının nədən ibarət olduğunu bilən adam üçün çox da deyil.

Yubiley münasibətilə dostları adından Əzizi ürəkdən təbrik edir, məsul və şərəfli fəaliyyətində ona möhkəm can sağlığı, uğurlar arzulayıram.

Prezident İlham Əliyev əzəli-əbədi yurd yerlərindən perik düşmüş soydaşlarımızın böyük qayıdışına inamını belə ifadə etmişdi: "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar". Biz də inanırıq ki, lap yaxın gələcəkdə Əziz növbəti doğum gününü Vedibasarda, Göyçədə, Dərələyəzdə, Qarakilsədə ... qeyd edəcək.

***Xalid NİYAZOV,***
***Əməkdar jurnalist,***
***siyasi elmlər doktoru***

# Mingəçevir müəllimlərilə görüş

**5 Oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə Mingəçevir Şəhər İcra Hakimiyyətində pedaqoji kollektivlərin təmsilçiləri ilə görüş keçirilib.**



İcra hakimiyyətinin başçısı İlham İsmayılov bayram münasibətilə təbrik edərək bildirib ki, müəllimlik şərəfli, müqəddəs və məsuliyyətli peşədir. Cəmiyyətin inkişafında, onun düzgün formalaşmasında və gələcəyimizin uğurlu olmasında müəllim əməyi, müəllim zəhməti əvəzsizdir. Ulu öndər Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirmişdir.

Bildirilib ki, əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş təhsil islahatları ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Ötən müddətdə Mingəçevirin təhsil ocaqlarının da maddi-texniki bazası möhkəmləndirilib. Şəhərdə 2 min 351 şagird yerlik 4 ümumtəhsil məktəb binası inşa olunub, 12 min 408 şagird yerlik 13 məktəb binası əsaslı təmir edilib.

Görüşdə Mingəçevir Şəhər Təhsil Sektorunun müdiri Sevinc Həsənova, veteran müəllim Mirzə Cavadov, YAP şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev, Əməkdar müəllim Mayıl İsmayılov, təqaüddə olan dövlət qulluqçusu Rizvan Mikayıllı müəllimlərə xoş arzularını çatdırıblar.

Sonra bir qrup fəal müəllimə Fəxri fərmanlar təqdim olunub.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

*XI Bakı Beynəlxalq Kitab Sərgisi*

# Kitabların dostluq və qardaşlıq dünyası



**XI Bakı Beynəlxalq Kitab Sərgisində "Bəxtiyar Vahabzadə təqdimat zonası"nda Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin "Apostrof-A" nəşriyyatında işıq üzü görən, Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunan "Fəxri xiyaban", 2 dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovdan bəhs edən "Nəsillərə nümunə" kitablarının təqdimatı keçirilib.**

"Apostrof-A" nəşriyyatının direktoru Akif Dənzizadə diqqətə çatdırıb ki, Abdulla Qurbani 200-dən çox kitabın, hərbi marş və vətənpərvərlik mahnılarının, opera, aratoriya, simfonik poema, librettolarının və dram əsərlərinin müəllifidir. General-mayorlar Altay Mehdiyev, Elçin Xəlilov, Vətən müharibəsi iştirakçıları polkovnik Elvin Əzizov, Rüfət Məmmədov, Elşad Əbilov və başqaları Qurbaninin əsərlərinin Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsində mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar.



**Sərgidə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin məşhur "Sirlər Xəzinəsi" və "İskəndərnamə" poemalarının türk dilinə tərcüməsinin yer aldığı kitabın da təqdimatı olub.**

"Xəmsə"nin türk dilinə tərcüməsini Azərbaycanın Türkiyədəki səfirliyində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin əməkdaşı, Ərzurumdakı Atatürk Universitetinin professoru Nimet Yıldırım həyata keçirib.

Mərasimdə Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov və Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, professor Mahirə Hüseynova çıxış ediblər. Filologiya üzrə fəlsəfə doktoru, AMEA Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzinin direktoru Əlimuxtar Muxtarov dahi şairin əsərlərindən parçalar təqdim edib, şeirlərini səsləndirib.



**Sərgi çərçivəsində keçirilən Xalq yazıçıları İlyas Əfəndiyev və Elçin Əfəndiyevin xatirəsinə həsr olunmuş "Əfəndiyevlərin unudulmaz irsi" adlı mərasimdə iki görkəmli qələm ustasının zəngin ədəbi irsini əks etdirən "Elçin və kino", "İlyas Əfəndiyev: Geriyə baxarkən", "Elçin. Biblioqrafiya" kitabları təqdim edilib.**

Nəşrin ideya müəllifi Milli Məclisin deputatı, Mədəniyyət Komitəsinin sədr müavini Günay Əfəndiyeva, kitabın elmi məsləhətçiləri isə Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov və "Şərq-Qərb" nəşriyyatının baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Nərgiz Cabbarlıdır.

Təqdimatda AMEA prezidenti, akademik İsa Həbibbəyli İlyas və Elçin Əfəndiyevlərin Azərbaycan ədəbiyyatı tarixində xüsusi yerə malik olduqlarını, milli dramaturgiya və nəsrin inkişafına mühüm töhfələr verdiklərini vurğulayıb. Milli Məclisin deputatı Günay Əfəndiyeva Əfəndiyevlər ailəsinin ədəbi irsinin qorunub saxlanılması və təbliğini dəstəkləyən hər kəsə səmimi təşəkkürünü bildirib.



**Beynəlxalq sərgidə "Masal, masal Türkiyə, Türk dünyası – Azərbaycan" layihəsinin də təqdimatı keçirilib.**

Layihə Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzi ilə Atatürk Türk Mədəniyyət Mərkəzinin birgə əməkdaşlığı ilə ərsəyə gəlib. Bu əməkdaşlıq çərçivəsində "Masal, masal Türkiyə" mobil proqramına türk nağıllarına həsr olunmuş "Türk Dünyası – Azərbaycan" adlı yeni bölmə əlavə edilib.

Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov qeyd edib ki, layihənin məqsədi Azərbaycan şifahi xalq yaradıcılığı və folklor nümunələrinin təbliği, eləcə də müasir texnologiyalardan istifadə etməklə bu irsin daha geniş uşaq auditoriyasına çatdırılmasıdır. Atatürk Türk Mədəniyyət Mərkəzinin direktoru Zeki Özsöz bildirib ki, əməkdaşlıq çərçivəsində Azərbaycan tərəfi ilə birlikdə nağıllar seçib, onların mətnləri, illüstrasiyaları və audioversiyalarını hazırlayan xüsusi komissiya yaradılıb.

***Hazırladı:***
***F.ƏLİYEVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 214 (30908) 5 oktyabr 2025-ci il, bazar



## İDMAN

### Daha bir boksçumuz 1/4 finalda

**Azərbaycan millisinin daha bir boksçusu Çexiyanın Ostrava şəhərində keçirilən U-19 Avropa çempionatına qələbə ilə başlayıb.**




Millinin üzvü Məhəmməd Cəfərov (+90 kq) 1/8 finalda Nikolas Saleki (Çexiya) mübarizədən kənarlaşdırıb. Boksçu döyüşün taleyini ilk raundda həll edib. O, yerli idmançıya tam üstünlüklə qalib gəlib.

Cəfərov bu gün 1/4 finalda ilk mərhələdən azad olan Oleksander Slyesariyevlə (Ukrayna) döyüşəcək.

Qeyd edək ki, boksçularımızdan Bilalhəbaşi Nəzərov (50 kq), Zidan Hümbətov (55 kq), Sübhan Babayev (60 kq) və Məhəmməd Cəfərov (+90 kq) da adını 1/4 finala yazdırıb. Avropa çempionatına oktyabrın 9-da yekun vurulacaq.

### Fiqurlu konkisürmədə yeni olimpiya rekordu

**Azərbaycanı beynəlxalq fiqurlu konkisürmə yarışlarında təmsil edən Arina Kaluqina Qazaxıstanın Almatı şəhərində yeniyetmələr arasında keçirilən "Denis Ten Memorial Challenger" seriya yarışında uğurla çıxış edib. Təmsilçimiz çıxışı zamanı 2.91 xal toplayaraq "Dördlü Salxov" üzrə son olimpiya rekordunu yeniləyib.**



İdmançımız sərbəst proqram üzrə çıxışı zamanı öz uğurlu performansı ilə sonuncu dəfə rekorda imza atan yaponiyalı Mao Şimadanı geridə qoyub.

Arina Kaluqina seriya yarışında 13 ölkədən olan 20 idmançı arasında 167.24 xal toplayaraq, yekunda 3-cü nəticə göstərib. Cənubi Koreya idmançısı Kim Hin-Hi (179,24 xal) birinci, onun komanda yoldaşı Kim Min Sun (171,33 xal) isə ikinci yeri tutub.

### 2 parabadmintonçumuz Avropa finalında

**Azərbaycan parabadmintonçusu Zəhra Salmanlı Türkiyənin İstanbul şəhərində keçirilən Avropa çempionatında finala vəsiqə qazanıb. 14 yaşlı idmançımız ölkə badmintonu tarixində ilk dəfə qitə çempionatında qarışıq qoşa kateqoriyada finala yüksəlib.**



SH-6 kateqoriyasında ingiltərəli komanda yoldaşı Krysten Coombs ilə birgə çıxış edən Z.Salmanlı yarımfinalda polşalı Daria Bujniçka və şotland Endryu Deyvis cütünə 2:0 (21-18,21-10) hesabı ilə qalib gələrək turnirdə həlledici qarşılaşmaya vəsiqə qazanıb.

Azərbaycanın daha bir parabadmintonçusu İbrahim Əliyev Türkiyənin İstanbul şəhərində keçirilən Avropa çempionatında finala yüksəlib.

İdmançı kişilərin qoşa yarışında SU-5 kateqoriyasında buna nail olub.

O, polşalı komanda yoldaşı Bartlomiej Mroz ilə finala yüksəlmək uğrunda keçirilən qarşılaşmada İspaniya təmsilçiləri Manuel Qarsiya-Pablo Serrano qoşasına 2:0 (21-16,21-16) hesabı ilə qalib gəlib.

*Q.YUSİFOĞLU*
*XQ*

### Çövkən millimiz finalda

**Azərbaycanın çövkən yığması III MDB Oyunlarında finala yüksəlib.**



Yarımfinalda milli komanda Qazaxıstanla üz-üzə gəlib. Şəki şəhər stadionunda baş tutan görüş Azərbaycanın 5:1 hesablı qələbəsi ilə başa çatıb.

Yığma qrupdakı ilk oyunda Qırğızıstan üzərində 4:0, Küveyt üzərində isə 5:0 hesabı ilə qələbə qazanmışdı.

Çövkən millimizin finaldakı rəqibi yarımfinalda Qırğızıstan komandasından üstün olan Özbəkistan komandası olacaq.

Qeyd edək ki, çövkən yarışına oktyabrın 7-də yekun vurulacaq.

### Cüdoçularımızın uğuru

**Azərbaycan cüdoçuları III MDB Oyunlarında uğurla çıxış ediblər. Nərmin Ağamirzəzadə (52 kq), Könül Eyvazlı (48 kq), Fəxri Sahibzadə (66 kq), Zeyd Ələsgərov (60 kq) və Gülşən Hüseynova (44 kq) final görüşlərini qələbə ilə başa vuraraq qızıl medal qazanıblar.**



Hüseyn Hüseynzadə (66 kq), Röyal Qayıbov, Məhəmmədəli Hüsiyev (55 kq), Sunay Salamova (40 kq), Nəzakət Vəliyeva (57 kq), Məhəmməd Ağakişiyev (81 kq) və Sübhan Axundov (+90 kq) gümüş, Aysun Məmmədova (52 kq), Xədicə Abdullayeva (44 kq), Anar Quliyev (50 kq), İbrahim Talıbov (55 kq), Fidan Cəlilli (70 kq), Zemfira Əliyeva (+70 kq), Sadiq Məmmədov (73 kq), Nurəddin Əliyev (90 kq), Tunar Fərzəliyev və Sübhan Axundov (hər ikisi +90 kq) isə bürünc medalla kifayətləniblər.

Ümumi hesabda Azərbaycan cüdoçuları Oyunların ilk yarış gününü 21 medalla başa vurublar. Onlardan 5-i qızıl, 7-si gümüş, 9-u isə bürünc olub.

### Qılıncoynadanlarımızın 2 bürüncü

**Azərbaycanın qızlardan ibarət şpaqa üzrə milli komandası III MDB Oyunlarında bürünc medal qazanıb. Yığmamız yarımfinalda Özbəkistan kollektivi ilə üz-üzə gəlib. Qarşılaşma rəqibin 45:37 hesablı qələbəsi ilə başa çatıb.**



Beləliklə, Mirnuray Abasova, Aynur Quliyeva, Nəzrin Mehdiyeva və Xədicə Həsənlidən ibarət Azərbaycan komandası bürünc medal qazanıb.

Qılıncoynatmanın sablya növü üzrə oğlanlardan ibarət Azərbaycan millisi III MDB Oyunlarını bürünc medalla başa vurublar. Abbas Hüseynov, Nahid Məmmədli, Rəsul Əliyev və Timur Husnaddinovdan ibarət yığma 1/4 finalda Belarus yığmasına 45:40 hesabı ilə qalib gələrək yarımfinalda Rusiya komandası ilə qarşılaşıb. Sablyaçılarımız finala gedən yolda rəqibinə 32:45 hesabı ilə uduzaraq bürünc medalla kifayətlənib.

### Atıcılıq yarışında gümüş

**Gəncə İdman Sarayında təşkil olunan atıcılıq yarışlarında Azərbaycan təmsilçisi Xanna Əliyeva 10 metr məsafəyə pnevmatik tapançadan atəş açmada ikinci nəticə göstərərək gümüş medal qazanıb.**



Kişilər yarışında 10 metr məsafəyə pnevmatik tüfəngdən atəş açmada qazaxıstanlı Dmitriy Kim qızıl, belaruslu Arseni Livantsou gümüş, digər qazaxıstanlı Nikita Şakhtorin bürünc medal qazanıblar.

### Futbolçularımızın gümüşü

**Rusiyanın 16 yaşadək futbolçulardan ibarət millisi III MDB Oyunlarının qalibi olub. Valentin Qavvanın baş məşqçisi olduğu yığma finalda Azərbaycan millisinə 3:2 hesabı ilə qalib gəlib.**



Azərbaycan millisinin qollarını 46 və 67-ci dəqiqələrdə Əli Başirov vurub. Rusiya seçməsinin heyətində isə 73-cü dəqiqədə Klim Denisov, bir dəqiqə sonra İvan Kuzmin, 76-cı dəqiqədə isə Ratmir Lukianov fərqləniblər.

Bu nəticədən sonra Rusiya turniri qızıl, Azərbaycan isə gümüş medallarla başa vurub.

### Boks yarışlarında 9 medal

**Azərbaycanın ev sahibliyi etdiyi III MDB Oyunlarında boks yarışlarının final mərhələsi davam edir. Qadın boksçumuz Gülər Hüseynova 48 kiloqram çəki dərəcəsində final döyüşündə rusiyalı Daria Qavrina ilə qarşılaşıb.**



Rəqibinə 4:1 hesabı ilə qalib gələn Azərbaycan təmsilçisi qızıl medala sahib çıxıb.

Onun komanda yoldaşları Aysel Fərəcova (46 kq), Əminə Tağı (50 kq), Cəmilə Muradlı (54 kq), Aynur İsmayılova (60 kq) və Fidan Bakarova (63 kq) isə final görüşlərində məğlub olduqları üçün gümüş medalla kifayətləniblər.

Bundan əlavə, Aylin Nəzərova (46 kq), Zəhra Məmmədova (52 kq) və Mirrüqeyya Azərpur (57 kq) bürünc medallar qazanıblar.

Beləliklə, Azərbaycanın qadın boksçuları turniri 1 qızıl, 5 gümüş və 3 bürünc medalla başa vurublar.

Qeyd edək ki, boks üzrə yarışlar oktyabrın 5-də yekunlaşacaq.

### Güləşçilərimizin 1 qızılı, 2 gümüşü, 4 bürüncü

**III MDB Oyunlarında güləş yarışlarının ikinci günü Azərbaycan təmsilçisi Rəvan Həsənzadə (48 kq) qızıl, Əli Hacıyev (80 kq), Hüseyn İsmayılov (65 kq) gümüş, Hakim Tağıyev (110 kq), İbrahim Süleymanov (55 kq), qadın güləşçilər Esra Məmmədli (57 kq), Xədicə Qurbanzadə (49 kq) isə bürünc medalın sahibi olublar.**



Xəbər verdiyimiz kimi, oktyabrın 3-də də idmançılarımız sərbəst və qadın güləşçilərin mübarizəsində 7 medal qazanıblar.

### Karateçilərimiz 16 medal qazandılar

**Azərbaycanın karateçiləri III MDB Oyunlarını yüksək nəticələrlə başa vurublar.**



Turqut Həsənov (84 kq) və İrina Zaretska (68 kq) turnirin qalibi olublar.

Hər iki idmançı qızıl mükafat əldə edib. Bu, Azərbaycan karateçilərinin sözügedən yarışda 5-ci qızıl medalıdır.

Asiman Qurbanlı (+84 kq) gümüş, Aysu Əliyeva (61 kq), Fərid Şahbazlı (84 kq) və Rəşid Süleymanov (75 kq) bürünc medallara sahib olublar.

Qeyd edək ki, daha əvvəl Mədinə Sadıqova (55 kq), Nuran Rzazadə (67 kq) və Roman Heydərov (fərdi kata yarışında) qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Fərid Savadov (60 kq) və Nəzrin Piriyeva (55 kq) gümüş, İnci Əzizova (50 kq), Aslan Dostuyev (67 kq), Ramilə Heydərova, Rövşən Əliyev (hər ikisi fərdi kata yarışlarında) bürünc medallarla kifayətləniblər.

Beləliklə, karateçilərimiz yarışları 16 medalla başa vurublar. Onlardan 6-sı qızıl, 3-ü gümüş, 7-si bürüncdür.

### Oxatanlarımız, yoxsa belaruslar?

**Azərbaycanın ev sahibliyi etdiyi III MDB Oyunlarında kamandan oxatma yarışları davam edir. Xankəndi şəhər stadionunda qadınlar və kişilərdən ibarət komanda, həmçinin qarışıq komanda (1 qız və 1 oğlan) yarışları keçirilib. Azərbaycan yığma komandası yüksək əzmkarlıq nümayiş etdirərək, bütün qarşılaşmalarda sona qədər mübarizə aparıb.**



Yarışların həlledici mərhələsi olacaq. Final günündə qadınlardan ibarət yığma komandamız bürünc medal uğrunda Belarus komandasına qarşı mübarizə aparacaq.

*Y.QABİL*
*XQ*

## HAVA

# Yağmursuz bazar günü...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-şərq küləyi əsəcək.**



Havanın temperaturu gecə 15-17, gündüz 20-25 dərəcə isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunundan 761 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, bəzi yerlərdə arabir duman olacağı gözlənilir. Şərq küləyi bəzi dağlıq və dağətəyi rayonlarda arabir güclənəcək.

Havanın temperaturu gecə 11-16, gündüz 20-25, dağlarda gecə 4-8, gündüz 10-15 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3515
SİFARİŞ 1948
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00